RAFAİL KƏRİMOV

# NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİ TARİXİNDƏN

## MUSİQİ TƏHSİLİ

Bakı-2012

BBK 49.5
K-56

*Naxçıvanda uşaq musiqi məktəbinin yaradılmasının 75 illiyinə həsr olunur.*

**K-56 Kərimov Rafail. Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili.** Bakı: Azərnəşr, 2012.160 səhifə.

K-56 $\frac{4905000000}{\text{M-651 (07) 2012}}$ qrifli nəşr

**© Rafail Kərimov, 2012.**

*Bir azərbaycanlı, Azərbaycan Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik.*

*Heydər ƏLİYEV*



# RƏY

Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Rafail Məşədi Musa oğlu Kərimovun "Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili" monoqrafiyası bu təhsil ocağı haqqında yazılan ilk və yeganə kitabdır. Düzdür, Naxçıvan şəhər Uşaq Musiqi Məktəbində çalışan müəllim və şagirdlərin əmək fəaliyyəti, uğurları haqqında mətbuatda müxtəlif vaxtlarda ayrı-ayrı məqalələr yer almışdır. Lakin R.Kərimovun bu monoqrafiyası istər həcminə, istər məzmununa, istərsə də əhatə etdiyi dövrə görə (1937–2002) digər yazılardan daha dəyərli, dolğun və yaddaqalandır.

R.Kərimov monoqrafiyasında mədəniyyət və incəsənətimizin yaranma tarixini haqlı olaraq yaşı 5-6 min ilə yaxın olan Kiçik Qafqazın Qapıcıq dağlarının cənub və şərq yamaclarındakı Nəbi yurdunda və Qaranquş yaylaqlarında yerləşən Gəmiqaya qayaüstü rəsmlərindəki oxumağabənzər və rəqs hərəkətlərini əks etdirən rəsmlərdən başlayaraq sonralar intibah dövründə Naxçıvanda ucaldılan tarixi memarlıq abidələrində, miniatür sənət əsərlərində, qazıntı zamanı tapılan küpələrin üzərindəki mədəniyyətimizlə bağlı rəsmlərlə əlaqələndirmiş və bununla da musiqi, rəsm, rəqs mədəniyyət tariximizin 5-6 min ilə yaxın yaşı olduğu göstərilmişdir. Qeyd etmək lazımdır ki, müəllif istər ilk monoqrafiyasında, istərsə də mədəniyyətlə bağlı ayrı-ayrı yazılarında bu fikrə böyük önəm verməklə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın qədim tarixə malik olduğunu tutarlı faktlarla oxuculara çatdırır.

Müəllif dahi bəstəkar Üzeyir Hacıbəyovun Naxçıvan musiqi məktəbinin yaradılmasındakı rolundan, o dövrdə Naxçıvan musiqi mühitindən oxuculara geniş məlumat verir. O, Azərbaycanda yaradılmış ilk musiqi məktəblərindən biri olan Naxçıvan Musiqi Məktəbinə 1937-ci ildə keçirilən şagird qəbulu, muxtar respublika üzrə nəzərdə tutulan şagird kontingenti, burada müxtəlif vaxtlarda əmək fəaliyyəti göstərən görkəmli müəllim, sənət adamları və şagirdlər haqqında oxuculara lazımi məlumat verir. Digər maraqlı məqam 1937-ci ildə məktəbə daxil olan, 1960–1970-ci illərdə məktəbi

bitirən bir qrup şagirdin adlı siyahısı cədvəl şəklində monoqrafiyada yer almışdır ki, bu da tədqiqatçılar və sənət adamları üçün çox vacib bir amildir. R.Kərimov böyük zəhmət hesabına arxivlərdən əldə etdiyi tarixi sənədlər və fotoşəkilləri də oxuculara təqdim edir.

Monoqrafiyanın II fəslində müəllif Naxçıvanda doğulub boya-başa çatmış, lakin Naxçıvandan kənarda fəaliyyət göstərən naxçıvanlı musiqiçilər haqqında oxuculara dəyərli məlumatlar verir. Bu illər ərzində Naxçıvan Uşaq Musiqi Məktəbini bitirmiş və Azərbaycan, Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş onlarla musiqiçinin qısa tərcümeyi-halının, fəaliyyət göstərdikləri yer, müəssisə adlarının kitabda öz əksini tapması tarixi baxımdan həm tədqiqatçılar, həm də oxucular üçün çox faydalıdır. Bununla yanaşı, burada bir çox məsələlərə aydınlıq gətirilir ki, onlar da ilk dəfə olaraq bu monoqrafiyada toplanmış və oxuculara təqdim edilmişdir.

Bu faktlar monoqrafiyanın elmi baxımdan dəyərini daha da artırır.

Əsərin bir maraqlı cəhəti də ondan ibarətdir ki, müəllif Naxçıvan Musiqi Məktəbinin yaranmasını və fəaliyyət göstərməsini Bakı musiqi məktəbləri ilə sıx uzlaşdırmış və onun yaranmasının bu məktəblərdən qaynaqlandığını aydın şəkildə açıqlamışdır. Bundan əlavə, R.Kərimov Naxçıvanda yaradılmış ilk musiqi məktəbləri ilə Azərbaycan, xüsusilə də Bakı musiqi məktəbləri ilə əlaqə yaratmağa nail olmuşdur. İndiki və gələcək nəsil tədqiqatçıları üçün Naxçıvan Musiqi Məktəbi haqqında yazılmış ilk monoqrafiya dəyərli bir əsər kimi də mühüm əhəmiyyət kəsb edir.

Monoqrafiyanın bir müsbət cəhəti də onun dərs vəsaiti kimi uşaq musiqi məktəblərində, kollecdə musiqi ədəbiyyatı dərslərində Azərbaycan bəstəkarlarına, ifaçılarına, musiqiçilərinə aid bölümdə istifadə edilə bilinməsidir. Beləliklə, R.Kərimovun "Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili" kitabının bu sahədə ilk dəyərli sənət əsəri kimi mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Nazim Kazımov,*
*Azərbaycan Milli Konservatoriyası nəzdində*
*Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor*

# GİRİŞ

Naxçıvan Muxtar Respublikası dahi mütəfəkkirlər, dünya, ölkə və yerli əhəmiyyətli mədəni-tarixi abidələr diyarı olaraq bəşəri mədəni irs tarixində özünəməxsus yer tutmuşdur. Rəvayətlərdən və tarixi mənbələrdən belə məlum olur ki, baş verən mədəni-tarixi hadisələrin bir çoxu bu torpaqla bağlı olmuş və mədəniyyətimizin inkişafında Naxçıvan məfhumu, Naxçıvan varlığı mühüm rol oynamışdır.

Qədim dövrdən başlayaraq mədəni irs tariximiz ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında Gəmiqaya adlanan ərazidə, Kiçik Qafqazın Qapıcıq dağlarının cənub və şərq yamaclarındakı Nəbi yurdunda və Qaranquş yaylaqlarında yerləşən, yaşı təxminən 5-6 min ilə yaxın olan qayaüstü rəsmlərdən başlamış və günümüzədək gəlib çataraq mədəni irs tariximizin inkişafı yolunda bir mayak rolunu oynamışdır. Qayaüstü rəsmlərdə əks etdirilən ovçuluq, heyvandarlıq və sair səhnələr içərisində sırf mədəniyyətlə bağlı rəqs səhnələri, rəssamlıq sənəti kimi rəsmlər daha çox diqqəti cəlb edir. Sivil dünyanın ilkin mədəniyyət nişanələrini özündə əks etdirən Gəmiqaya rəsmlərində təsvir edilən rəqs hərəkətlərinin elementləri, rəqslərin dinamikası, ifaçıların üzündə müşahidə edilən nəğmə oxuma mimikaları belə deməyə əsas verir ki, mədəniyyətimizin bir qolu olan musiqi ifaçılığı sənəti də məhz o dövrlərdən formalaşmağa başlamışdır. Bu fikir müxtəlif mənbələrdə də dolayısı ilə öz əksini tapır. Bəlli ki, ibtidai insanlar rəqs etməyə çox meyilli olduqlarından ilk hecaları, sözləri tələffüz edər-etməz rəqslərini müəyyən intonasiyalı heca və sözlərlə müşayiət edirmişlər. Bu faktlar Gəmiqaya və Qobustandakı qayaüstü rəsmlərlə, xüsusilə də Naxçıvan Muxtar Respublikasında Qızılburun adlanan ərazidə aşkar edilmiş polixrom boyalı küpə üzərində təsvir edilmiş rəqs məqamlarında bir daha öz təsdiqini tapır.

Eyni zamanda, qayaüstü rəsmlər Azərbaycan rəsm məktəbinin əsası kimi də qiymətləndirilməlidir. O məktəb ki, sonralar miniatür və ilmələrdən yaranan xalçaçılıq, rəssamlıq sənətlərinin, misgərlərin əl işlərindəki naxışların və digər yaradıcılıq məktəblərinin təməl daşına çevrilmişdir.




*Gəmiqaya rəsmləri*

Əsrlər keçdikcə Naxçıvanın mədəni tarixi "Kitabi-Dədə Qorqud" boylarında, folklor və muğam yaradıcılığında, aşıq və xalq dastanlarında, nənələrimizin toxuduğu xalçalarda, miniatür sənətində, memarlıq abidələrində, rəssamlarımızın tablolarında və digər tarixi sənət nümunələrində öz əksini tapmışdır.

Nuh peyğəmbərin gəmisinin Naxçıvan Muxtar Respublikası ərazisində lövbər salması və qəbrinin Naxçıvan şəhərində olması, müqəddəs "Qurani-Kərim"də adı çəkilən "Əshabi-Kəhf"in Naxçıvan şəhərinin təxminən 13 kilometrliyində yerləşməsi, müxtəlif dövrlərə aid nekropol və yaşayış məntəqələrinin, 1160-dan artıq mədəni-tarixi abidələrin burada günümüzədək qorunub saxlanılması dediklərimizə əyani sübutdur.



*B.Kəngərli "Nuhun qəbri"*

Təsadüfi deyil ki, Oğuz ellərinin mərkəzində yerləşən Naxçıvan diyarında "Kitabi-Dədə Qorqud" boyları və onların personajları ilə bağlı əllidən artıq toponim yer alır. Onların sırasında adları birbaşa göstərilən yer adları: Ağqaya, Altunqaya, Qaradərə, Qaraçuq, Əlincə qalası, Dərəşam, Şəruk (Şərur); toponim və mikrotoponimlər-Böyükdüz, Sədərək, Şərur düzləri, Daşarx, Daşqışlaq, Qazançı, Qazançı gölü və s. günümüzədək öz adını qoruyub saxlamış və ulu mədəniyyətimizin canlı səhifəsi kimi dörd bir yana işıq saçmaqdadır.

İntibah dövründən başlayaraq mədəni irs tariximiz Naxçıvanda doğulub boya-başa çatmış bir sıra yaradıcı mütəfəkkir, elm, mədəniyyət, dövlət xadimlərinin fəaliyyəti ilə bağlıdır ki, onların da yaradıcılığı təkcə Naxçıvan, Azərbaycan miqyası ilə deyil, ümumbəşər səviyyəsi ilə ölçülür. Maraqlıdır ki, bu dövrdə yaşayıb yaradan mütəfəkkirlərin əksəriyyəti "Naxçıvani" təxəllüsü ilə fəaliyyət göstərmişlər. Onlardan-memarlar: Əcəmi Əbubəkr oğlu Naxçıvani (XII əsr), Əhməd İbn Əyyub

əl-Hafiz Naxçıvani (XIV əsr); görkəmli dövlət xadimi Cahan Pəhləvanın qızı, Qızıl Arslanın qardaşı qızı Cəlaliyyə Naxçıvani (XII əsrin sonu-XIII əsrin əvvəli); alim, filosof, dövlət xadimi Nəsrəddin Naxçıvani, Qutluqşah ibn Səncər ibn Abdullah əs-Sahibi ən-Naxçıvani (XIII əsr); tanınmış filosof Naxçıvani Nəcməddin ibn Əbubəkr ibn Məhəmməd (XIII əsr); tarixçi, dilçi, şair, dövlət xadimi Naxçıvani Məhəmməd ibn Hinduşah ibn Səncər ibn Abdullah əl-Girani ən-Naxçıvani (XIII-XIV əslər) və başqa görkəmli mütəfəkkirləri göstərmək olar.

İntibah dövründə mədəniyyət sahəsində əldə olunan ən böyük nailiyyətlərdən biri də muğam sənətinin Azərbaycanda və bir sıra başqa ölkələrdə inkişafı, zirvəyə ucalması və müxtəlif ölkələrdə bu sənətin mükəmməl ustadlarının yetişməsi ilə bağlıdır. Muğam sənətinin bu dövrdəki tərəqqisi haqqında altı əsrdən sonra görkəmli Azərbaycan bəstəkarı, klassik Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəyov çox gözəl demişdir: "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə yaxın özünün ən yüksək inkişaf mərhələsinə çatmış, on iki sütunlu və altı qülləli bir "bargah" (dəsgah) şəklində vüqarla yüksəlməkdə idi. Onun zirvəsindən dünyanın dörd tərəfinə: Əndəlicdən Çinə və Afrikadan Qafqaza qədər möhtəşəm bir mənzərə açılmışdı. Həmin bu "musiqi mədəniyyəti sarayının" inşasında ensiklopedist və qədim yunan musiqi nəzəriyyəsini yaxşı bilən Əbu-Nəsr Fərabi kimi alim-memar, Avropada Avisenna adı ilə məşhur olan mütəfəkkir alim Əbu Əli ibn Sina, əl-Kindi və başqaları iştirak etmişlər. Bu musiqi "bargah"ının zahirən möhkəm surətdə istinad etdiyi 12 "sütun" 12 əsas muğamı, 6 qüllə isə 6 avazatı təmsil edirdi..." Söz yox ki, muğam sənətinin beşiyi sayılan Azərbaycanda və onun bölgələrində, o cümlədən Naxçıvanda da muğam sənəti sürətlə inkişaf etmiş və xalq tərəfindən böyük hörmət, ehtiramla qarşılanaraq həvəslə öyrənilmişdir.

Bu dövrdə elmin, mədəniyyətin Naxçıvanda güclü inkişafının ilk növbədə mövcud tarixi şəraitlə bağlı olması xüsusi

qeyd olunmalıdır. Belə ki, 1146-cı ildə əmir Şəmsəddin Eldəgiz tərəfindən Atabəylər dövlətinin paytaxtının Naxçıvana köçürülməsi Naxçıvanda bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də güclü inkişafa səbəb olmuşdur. Əmirin iqamətgahına dəvət olunan dövrün ən qabaqcıl, tərəqqipərvər elm adamları, memarlar, rəssamlar, aşıqlar, xanəndələr, çalğıçılar və digər sənət sahibləri bu prosesin zirvəsində duraraq Naxçıvanda mədəni irsin tərəqqisi və nəsildən-nəslə çatdırılması üçün xeyli iş görmüşlər.

Doğrudur, digər mədəniyyət sahələri və sənət növləri ilə müqayisədə musiqi mədəniyyətinin zəif inkişafı müşahidə olunur ki, bu da müəyyən obyektiv və subyektiv səbəblərlə bağlıdır. Atabəylər dövlətinin böyük bir ərazidə yerləşməsi (Azərbaycan Atabəyləri dövləti–Eldəgizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövləti (1136-1225) Kürdən cənuba, şimal-qərbi İran vilayətləri, İsfahan, Rey və s. yerləri əhatə edirdi. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz, Bərdə olmuşdur. Mühüm şəhərləri: Naxçıvan, Təbriz, Gəncə, Beyləqan, Xoy və s.), bu torpaqların müxtəlif Atabəylər tərəfindən idarə olunması, daxili iğtişaşlar, atabəylərin və şahların tez-tez dəyişilməsi, əhalinin kasıb yaşaması və s. musiqi mədəniyyətinin inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi, lakin əsas və həlli çox çətin olan məsələ dini hökmranlığın baş alıb getməsi idi. Dini adət-ənənələrə görə musiqi, xanəndəlik, xüsusilə də rəssamlıqla məşğul olmaq qadağan edilməsə də ona çoxlu məhdudiyyətlər qoyulmuşdu. Bu sənətlə məşğul olanlar kafir adlandırılır, cəmiyyətdə, el içində onlara qarşı mənfi münasibət bəslənilirdir. Bu isə musiqi mədəniyyətinin, rəssamlıq sənətinin və incəsənətin digər janrları ilə bağlı sahələrin inkişafına mənfi təsir göstərirdi. Bu səbəbdəndir ki, xanəndəlik istedadına malik olanların əksəriyyəti məscidlərdə azan verər, mərsiyyə və sinəzən deyərdilər.

Müqayisə üçün qeyd olunmalıdır ki, bu illər tarixdə Azərbaycan memarlıq məktəbinin çiçəklənən dövrü kimi göstərilir. Belə ki, Naxçıvanda və digər bölgələrdə bu gün də əzəmətlə ucalan və dünya əhəmiyyətli abidələr siyahısına daxil edilən dahi memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Yusif ibn Küseyir (1162), Mömünə Xatın (1174-1186) türbələri, memar Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin Qarabağlar kəndində ucaltdığı "Qarabağlar" (XIV əsrin 30-cu illəri) türbəsi, habelə Bərdədəki "Türbə"(1322) bu inkişafın bariz nümunəsidir.



*Mömünə Xatın Türbəsi*

# I FƏSİL

## NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİ HAQQINDA

Musiqi mədəniyyətimiz tarixən olduğu kimi, o zamanlar da folklor yaradıcılığı, milli bayramlar, el şənlikləri hesabına qorunub saxlanılmış və daha da zənginləşmiş bir formada günümüzədək gəlib çatmışdır. Bayramlar və el şənlikləri mənaca iki qismə ayrılsalar da (milli Novruz bayramı, məhsul yığımı ilə bağlı keçirilən şənliklər və dini bayramlar: Qurban bayramı, Ramazan bayramı və s.) xalq tərəfindən yekdilliklə qeyd edildiyindən (Sovet dönəmi istisna olmaqla) tədricən ümumləşmiş və biri-biri ilə vəhdət təşkil edərək folklor, xalq yaradıcılığı və milli musiqimizin ilham mənbəyinə çevrilmişdir. Eyni zamanda, bayatı, meyxana və digər şifahi xalq ədəbiyyatı nümunələri müəyyən intonasiya və avazlarla müşayiət edilirdi ki, bunlar da öz növbəsində xalq mahnılarının yaranmasında müstəsna rol oynayırdı. Söz yox ki, aşıq yaradıcılığı və muğam sənəti hər zaman olduğu kimi, bu dövrdə də musiqi mədəniyyətimizin keşiyində durmuş və daima onu irəliyə doğru aparmışdır.

Naxçıvanda aşıq sənətinin yaranma tarixi uzaq keçmişə mənsub olsa da bu sənətin ilkin nişanələri və ərsəyə gəlməsi "Kitabi-Dədə Qorqud" dastanındakı Dədə Qorqud və onun çaldığı qopuzla bağlıdır. Əminliklə demək olar ki, qopuz bir musiqi aləti kimi əsrlər boyu təkmilləşərək öz yerini saza vermişdir. Qeyd etmək lazımdır ki, Naxçıvanda aşıq sənəti öz inkişaf zirvəsinə XVIII əsrdə Ağ Aşığın yaradıcılığı ilə yüksəlmişdir.

1754-cü ildə Şərur mahalının Kosacan kəndində dünyaya göz açmış Allahverdi Qara Osmanoğlu (Ağ Aşıq) nəinki Naxçıvanda, bütövlükdə Azərbaycanda, Qafqazda və s. bölgələrdə aşıq məktəbinin yaradıcılarından biri olmaqla yanaşı, səsi və ifaçılığı ilə böyük şöhrət qazanmışdır. 1794-cü ildə Araz boyu tez-tez baş

verən iğtişaşlarla əlaqədar Ağ Aşıq ailəsi ilə birlikdə Göyçə mahalına köçərək Kərkibaş kəndində məskunlaşır. Ağ Aşıq Kosacandan Buxaraya, Kərkibaşdan Dərbəndə, Qarabağdan Urmiyayadək olan geniş bir ərazidə saz-söz sahibi olmuş və hansı bölgədə çıxış etməsindən asılı olmayaraq əhali tərəfindən hörmət və ehtiramla qarşılanmışdır. Aşıq Alı kimi sənətkarın (Aşıq Ələsgərin ustadı) Ağ Aşığa uzun müddət şagirdlik etməsi, ondan dərs alması Ağ Aşığın necə böyük ustad olmasından xəbər verir. Ağ Aşığın müxtəlif formalarda (qoşma, gəraylı, qıfılbənd, dodaqdəyməz divan və s.) olan qoşmaları əsl sənətkarlıq nümunəsidir. Aşığın yaratdığı "Ağ Aşıq və Keşişoğlu", "Ağ Aşığın Borçalı səfəri" dastanları, "Ağ Aşıq və Süsənbər" məhəbbət dastanı ona zamanında böyük şan-şöhrət gətirmişdir. Təəssüf ki, bu dastanlardan günümüzədək yalnız kiçik parçalar gəlib çatmışdır.

Ağ Aşığın sağlığında və ölümündən (1860) sonra Naxçıvanda və digər bölgələrdə aşığın çoxlu davamçısı fəaliyyət göstərmiş və aşıq sənətinin inkişafı yolunda davamlı, məqsədyönlü, xeyirxah iş aparmışlar. Zaman keçdikcə bu sənətkarlardan məşhur ustadlar yetişmiş ki, onların da səsi-sorağı Azərbaycandan çox-çox uzaqlara yayılaraq aşıq sənətimizin əbədiliyinin göstəricisinə çevrilmişdir. Bu kimi ustadlardan XIX-XX əsrlərdə fəaliyyət göstərən Aşıq Cəlil, Aşıq Abbas Dəhri, Aşıq Əli Xanxanım oğlu, Gülali Məhəmməd, Vayxırlı Məmmədcəfər, Çobankərəli Məhəmməd, Aşıq Nabat, Aşıq Fətulla, Sərraf Qasım, Sədərəkli Yusif və başqalarının adı bu gün də dillər əzbəridir.

Naxçıvan aşıq məktəbi haqqında tam təsəvvür yaratmaq üçün məktəbin qadın təmsilçisi Nabat xanımın yaradıcılığını xüsusilə qeyd etmək lazımdır.

Cavadova Nabat Paşa qızı (Aşıq Nabat) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində dünyaya gəlmişdir. Erkən yaşlarından ata-ana nəvazişindən məhrum olan Nabat qohumlarının himayəsində yaşayır. Ailə vəziyyəti ilə əlaqədar Nabat xanım Bərdə rayonuna köçür. Gözəl səsə malik olan Nabat

xanım bir müddət burada Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov və tarzən Qurban Pirimovla birlikdə fəaliyyət göstərmiş, xanəndəlik etmişdir. Aşıq Ələsgərin qardaşı oğlu Musadan aşıqlıq sənətinin sirlərinə yiyələnən Nabat xanım tədricən aşıq sənətinin görkəmli nümayəndələrindən biri olmuş və nəinki Azərbaycanda, qonşu ölkələrdə də ustad aşıq kimi tanınmışdır. Bir neçə yüz şeirin müəllifi olan və bir sıra xalq dastanlarını əzbər bilən Aşıq Nabat nəinki xalq, həmçinin həmkarları arasında da böyük ad-san qazanmışdır. Aşıq Nabat bir sıra qoşma və gəraylıların ("Sinəmdə", "Bahara", "Yaxşıdı", "Baxtımı" və s.) müəllifidir. Aşıq müxtəlif festivalların, Azərbaycan Aşıqların II qurultayının, 1938-ci ildə Moskvada keçirilən mədəniyyət və incəsənət ongünlüyünün fəal iştirakcısı olmuş, müxtəlif mükafatlara layiq görülmüşdür. Aşıq Nabat 1973-cü ildə Şərur rayonunun Siyaqut kəndində dünyasını dəyişmişdir.

Aşıq sənəti ilə yanaşı xanəndəlik, instrumental ifaçılıq və başqa musiqiçi sənətkarların bu dövrdəki fəaliyyəti musiqi mədəniyyətimizin ümumilikdə tərəqqisinə müsbət təsir göstərirdi. XVIII əsrdə Türkiyə sultanı IV Muradın sarayında çalğıçı kimi fəaliyyət göstərən Muradağa Naxçıvanlı, XIX əsrin 1-ci yarısında bir müddət Naxçıvanda yaşamış xanəndə Səttar (xanəndənin Naxçıvanla bağlı fəaliyyəti, Ehsan xanın qızı gənc şairə Qönçəbəyim, gürcü şairi N.Barataşvili ilə yaradıcılıq münasibətləri, məclislərdə iştirakı və burada Azərbaycan muğamını layiqincə təmsil etməsi mərhum şair Müzəffər Nəsirlinin "Qönçəbəyimin nəğməsi" adlı iki hissəli pyesində çox gözəl və ətraflı təcəssüm etdirilmişdir), xanəndə Cəfər, qarmonçalan Səlminaz, kamança ifaçısı Firuz, XIX əsrin sonu-XX əsrin birinci yarısında fəaliyyət göstərən xanəndə və müğənnilərdən Mandi Mələk, Gülanoğlu, Məşədi Əsəd, Məşədi Həsən, Məşədi Əbil, Məşədi İsmayıl, Həsənqulu, Sarı Heydər, İdris Nağıyev, Kərbəlayı Baxşəli və başqalarının fəaliyyəti xüsusilə qeyd olun-

malıdır. Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Abdulla Babayev bu gün də xanəndələr Məşədi Həsən və Həsənqulunun "Heyratı", Məşədi Əbilin "Çahargah", Məşədi İsmayılın "Şahnaz" və "Qatar", İdris Nağıyev tərəfindən ifa edilən "Şur" muğamları haqqında heyranlıqla danışır.



*Xanəndə Səttarın dəstəsi. Tiflis, 1850.*

Göründüyü kimi, aşıq və muğam sənəti milli musiqi mədəniyyətimizin əsasını təşkil edən sənət növü kimi əsrlər boyu Azərbaycan xalqının qürur mənbəyi olmuşdur. Muğamat və muğam sənəti haqqında görkəmli musiqiçilər hər zaman dəyərli fikirlər söyləmiş və musiqi mədəniyyəti tarixində muğamatın yerini müəyyənləşdirməyə çalışmışlar. Bu baxımdan XX əsrin korifey bəstəkarı Qara Qarayevin söylədiklərini bir daha xatırlamaq istəyirəm. O yazırdı: "Muğamat yarandığı ən qədim zamanlardan başlayaraq, əsrlər boyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində yetkinləşmiş, formalaşmış, kamilləşmişdir. Muğamat xalq vokal-instrumental kompozisiyasının ən yüksək yaradıcılıq mərhələsinə çatdırılan nümunəsidir".

# MƏCLİS VƏ CƏMİYYƏTLƏRİN NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ROLU

Milli dəyərlər hər zaman xalqın, cəmiyyətin tələbinə uyğun formalaşmış və onun inkişaf prosesini mərhələli şəkildə özündə əks etdirmişdir. Təsadüfi deyil ki, XVIII əsrin ikinci yarısında Naxçıvanda formalaşmağa başlayan yeni sosioloji mühit bir sıra yeniliklərin həyata keçirilməsi ilə yadda qalmışdır. Bu sırada ilk növbədə xalqın təhsilə, elmə, mədəniyyətə artan marağını qeyd etmək lazımdır. Fəaliyyət göstərən şəriət təmayüllü mədrəsələr əhalini, xüsusilə də onun qabaqcıl, tərəqqipərvər fikirli təbəqəsini qane etmədiyindən tez-tez daha mütərəqqi tədris ocaqlarının yaradılma məsələsi gündəmə gətirilirdi. Eyni zamanda, illər boyu pərakəndə şəkildə fəaliyyət göstərən saz-söz ustadlarının: şairlərin, aşıqların, xanəndələrin, müğənnilərin, instrumental ifaçıların və başqalarının bir ortama gəlməsi, idarə olunması vacib məsələlərdən biri kimi müzakirə obyektinə çevrilmişdir. Bu dövrdə müxtəlif yerlərdə tədricən yaranan cəmiyyətlərin və ədəbi məclislərin xalqın marağına cavab verdiyini, əhalinin tələblərini qismən də olsa ödədiyini göstərmək vacibdir.

Cəmiyyətlər, ədəbi məclislər, demək olar ki, şifahi xalq məktəbləri funksiyasını yerinə yetirirdi. Məclis üzvləri yaşından, aldığı təhsildən asılı olmayaraq yenilik axtarır, yazılan yeni şeir, nəsr nümunələrini məclislərdə oxuyub müzakirə və mütaliə edirdilər. Aşıqlar, xanəndələr və digər musiqiçilər də öz növbəsində məclis iştirakçılarını muğam, xalq mahnıları, yeni yaranan aşıq havaları, dastanlar və mahnılarla tanış edir, musiqi haqqında, onun gələcəyi ilə bağlı dəyərli fikirlər söyləyir, tövsiyələr verirdilər.

XIX əsrin 30–40-cı illərində Naxçıvanda "Qönçeyi-ülfət" adlı ədəbi məclis fəaliyyət göstərməyə başlayır. Bu məclis sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin sarayında təşkil olunmuş və Ehsan xanın qızı Qönçəbəyimin şərəfinə belə adlandırılmışdır. Azərbaycanın yaradıcı qadınları içərisində öz dəst-xətti ilə seçilən Qönçəbəyim bu məclisin fəal üzvü, təşkilatçısı, aparıcılarından biri olmuş, bir çox şeir və qəzəllərini ilk dəfə məhz bu məclisdə söyləmişdir. Məclisin Ehsan xanın sarayında və himayəsi altında təşkil olunması onun səs-sorağının geniş yayılmasına səbəb olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, görkəmli ədiblər A.A.Bakıxanov, N.Barataşvili məclislə əlaqə saxlamış, onun ayrı-ayrı məşğələlərində iştirak etmişlər. Hətta 1844-cü ildən Naxçıvanda qəza rəisinin köməkçisi vəzifəsində çalışan N.Barataşvili Qönçəbəyimin şeirlərini gürcü əlifbası ilə köçürərək Tiflisə göndərmiş, tərcümə edilərək çap olunmasını və ədəbi məclislərdə oxunmasını dostlarından xahiş etmişdir. Fransız yazıçısı və tənqidçisi Sent Böv isə şairə haqqında belə yazmışdır: "Bu qadın təkcə şairə deyildir, onun bütün varlığı poeziyadır".



*Qönçəbəyim xanım*

Təxminən eyni vaxtda–1838-ci ildə Ordubad şəhərində "Naib" təxəllüsü ilə şeirlər yazan Şeyxəli bəy Kəngərli tərəfindən yaradılmış "Əncüməni-şüəra" adlı məclis öz ətrafına dövrün qabaqcıl ziyalılarından görkəmli yazıcı M.S.Ordubadinin

atası Fəqir Ordubadi (1836-1886), M.T.Sidqi (1854-1903), Əhməd Ağa Şəmi (XIX), Aşıq Abbas Dəhri (1818-1932) və başqalarını toplayaraq ədəbiyyat və incəsənətimizin inkişafı yolunda müstəsna rol oynamışdır. Sonralar bu ənənəni davam etdirən M.T.Sidqi öz çayxanasını ziyalıların, ədəbiyyat həvəskarlarının, aşıq və xanəndələrin toplandığı mədəni "mərkəzə" çevirmişdir.

Bir qədər sonra–1882-ci ildə Eynəli bəy Sultanov başda olmaqla bir qrup naxçıvanlı ziyalı böyük zəhmət və fədakarlıq hesabına Naxçıvanda "Ziyalılar Cəmiyyəti" yaradır. Onların sırasında Cəlil Məmmədquluzadə, Mirzə Əliməmməd Xəlilov, Nəsrulla Şeyxov, Əhməd ağa Kəngərlinin səmərəli fəaliyyəti xüsusilə diqqətəlayiqdir. "Ziyalılar Cəmiyyəti"nin təsiri altında 1883-cü ildə Naxçıvanda "Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" adlı cəmiyyət yaradılır ki, onun da uğurlu fəaliyyəti ümumlikdə Naxçıvanın mədəni-tarixi inkişafında müstəsna rol oynamışdır. Məhz bu cəmiyyətin səyi nəticəsində 1883-cü ilin may ayında Eynəli bəy Sultanov və Cəlil Məmmədquluzadənin başçılığı ilə M.F.Axundovun "Müsyo-Jordan və Dərviş Məstəli şah" əsəri Hacı Nəcəf Zeynalovun evində tamaşaya qoyulmuş və bununla da Naxçıvan teatrının yaranma tarixi rəsmiləşdirilmişdir.

Naxçıvan teatrının yaradılması Naxçıvanda mədəniyyətin, incəsənətin tərəqqisi kimi qiymətləndirilməlidir. Nəhayət ki, yerli yazıçı, aktyor və musiqiçilərin bir araya gəlməsinə, yaradıcılıq işi ilə birgə məşğul olmalarına geniş imkanlar yaranmışdır. Bundan əlavə, tamaşaya qoyulan əsərlərə bəstələnən musiqi ilə yerli musiqiçilərin yaxından tanış olması, onların bir ifaçı kimi bu əsərlər üzərində işləməsi, birgə ərsəyə gətirilməsi sayəsində işgüzar bir ortam yaranırdı. Bununla yanaşı, müxtəlif vaxtlarda digər regionlardan olan yazıçıların, bəstəkarların, aktyorların bir mədəniyyət mərkəzi olaraq Naxçıvanda yaşayıb-yaratması Naxçıvan mədəni irsinin inkişafına müsbət

təsir göstərirdi. Məhz bu dövrdən Naxçıvan musiqi mədəniyyəti tarixində yeni bir səhifə açılır desək, yanılmarıq. Buna misal olaraq, görkəmli bəstəkar Zülfüqar Hacıbəyovun həyat və yaradıcılığının Naxçıvanla bağlı dövrünü xatırlamaq kifayətdir. Z.Hacıbəyov iki dəfə 1911-1912 və 1917-ci illərdə Naxçıvanda olmuş, qısa müddət ərzində burada yaşayıb-yaratmasına baxmayaraq öz yaradıcılığı ilə Naxçıvan musiqi mədəniyyətinin inkişafında həlledici rol oynamışdır. Bəstəkar Naxçıvan teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun", "Ər və arvad", müəllifi olduğu "50 yaşında cavan" əsərlərini hazırlayıb tamaşaya qoyur (tamaşalar Z.Hacıbəyovun dirijorluğu ilə oynanılmişdir). Bundan əlavə, bəstəkar Naxçıvanda "Evliykən subay" operettasını tamamlayır. Naxçıvanda əsərin bəzi səhnələri üzərində məşqlər aparılsa da, operetta 1913-cü ildə tam şəkildə Bakı şəhərində tamaşaya qoyulmuşdur. Z.Hacıbəyov Naxçıvanda olduğu müddət ərzində öz yaradıcılığı ilə ətrafına bir qrup instrumental ifaçı toplayaraq teatrda ilk professional ifaçı qrupu yaratmağa nail olur. Bu kimi musiqiçilərdən tarzən Adil Kəngərli, kamançaçalan Mansur Sultanov, fleyta ifaçısı Əli Şərifov, klarnet ustası Məmməd Sultanov, 1920-ci illərin sonundan isə bu işin davamçıları kimi tarzən Tapdıq Hüseynov, dəfçalan Yusif Şeyxov, dəf və tarçalan Səfər Rəcəbov və başqalarının teatrdakı fəaliyyətini göstərmək olar.

# Naxçıvan Inqilabi Turq Tijatrosı



Aprelin 18 ndə cumə axşamı ... ... ezeqinin ... telməsi nə'fnə olaraq hazırlanmış ... ...

## Programma

### I

## Oktaj El oglı (durama)

3 nci pərdəsi Əsər: C. Cəbbarlı.

Iştirak edənlər:

1 - oktaj: Ə. S. Kovsovi.
2 - firəngiz: Zina
3 - as .. bəq: M. E. Təhmasib
4 - Hacı zaman: Ə. Xəlilof
5 - Ojuloqaz: Xədicə
6 - Nadija: Nina

### II

## əjəc olsyn - kyş olsyn

Operetka 1 - pərdə (ənnəncə)

Iştirak edənlər:

1 - Oi an: Aşot
2 - Arşak: Andranik
3 - Makta: Armenyhi
4 - Şyhik: Akafija
5 - Nazik: Prapijon
6 - Sako: Hazo
7 - Nahapet: Vanyş

### III

## Hummət aga (Komedija 1-nci pərdə)

Iştirak edənlər:

1 - Hummət aga: E. Isfəndijarlı
2 - Şəfiqə Xanım: Zina
3 - Doktor: M. E. Təhmasib
4 - Nyri bəq: S. Məlovi
5 - Noqər: Ə. Məhəmmədzadə

## Konsert şəbəsi

1 - Ey səhnəmiz ajinədir ... Xor
2 - Turq mahnısı : Saşa, Kyrken və Məhəmməd
3 - Səhnə (Deklamatsja) : ...
4 - Şejx və inilisqəni (mubahisə) : Təhmasib və ...
5 - Karmon (solo - seqah) : ...
6 - Tavarişçi (deklamatsja) : ...
7 - Tar (solo) : ...
8 - Əzbəq mahnısı (okymak) : A. məhəmmədkyliqi
9 - Aşık (Qor oglından) : Aşık Rustəm.
10 - Ojic maxo : Andranik
11 - Qamança (solo) : Kyrken
12 - Rəks (Lezkinka) : Xədicə
~~13 - Iqi kuvvət (deklamatsja) :~~ M. Nesimi
14 - Çoban dudəqi (kojın mahnısı) : Şahnaz çoban
15 - Vaj - Vaj : Əli Xəlilof, Riza Isfəndijarof
16 - Karmon (solo - şiqəsteji fars : ...
17 - Dəşti (okymak) : Saqinə Rizalı
18 - Aşık (qəribi) : Aşık Rustəm
19 - Kadınlar mejxanası : Aktrisalar
20 - Mejxana : Xor ilə

Tamaşadan sonra səhərə kədər Avropa və Şərq rəksləri olacakdır.

Mə'syl mudir: Bagırof.

Konfıranse: S. məlovi.

Tijatro mudiri: Ə. Xəlilof.

Nəşri № 425 — „Şərk Kapısı" mətbəəsi ...

# NAXÇIVANDA MUSİQİ TƏHSİLİ

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərindən Naxçıvanda instrumental heyətdə, solo ifada klassik musiqi əsərləri ifa olunmağa başlanır. Bu işdə teatrda fəaliyyət göstərən musiqiçilərin aparıcı rolu xüsusi qeyd olunmalıdır. Teatrda çalışan xanəndə, müğənni və instrumental ifaçıların gücü ilə açıq konsertlər keçirilir, 20-ci illərin sonu 30-cu illərin əvvəllərindən isə istirahət parkında (Böyük Bağda) nəfəs alətləri orkestri və Şərq üçlüklərinin konsertləri müntəzəm təşkil olunurdu. Maraqlı faktlardan biri də bu konsertlərdə teatrda fəaliyyət göstərən xanəndə, müğənni və artistlərdən təşkil olunmuş xorun müstəqil konsert proqramı ilə çıxış etməsi idi.

Ötən əsrin 20-ci illərindən başlayaraq Naxçıvan şəhərində fəaliyyət göstərən E.Telman adına "Qadınlar Klubu"nun bölgəmizdə musiqi mədəniyyətinin inkişafına xeyli müsbət təsir göstərməsini də qeyd etməliyik. Klubun nəzdində təşkil olunan musiqi dərnəyində qadınlar və qızlar musiqinin əsaslarını öyrənir, musiqi təhsili yolunda ilk addımlarını atırdılar. Təsadüfi deyildi ki, 1937-ci ildə Naxçıvanda açılan musiqi məktəbinin şagirdləri sırasında vaxtilə "Qadınlar Klubu"nda fəaliyyət göstərən bir çox qadınların övladları, kiçik bacı və qardaşları, yaxın qohumlarının adlarına rast gəlirik. Əminliklə demək olar ki, bu uşaqlar 10-15 il əvvəl "Qadınlar Klubu"nda musiqi dərnəyinin üzvü olmuş qadınların tövsiyəsi ilə musiqi məktəbinə daxil olmuş şagirdlər idi.

Naxçıvanda qısa müddət ərzində musiqi mədəniyyətinin belə güclü inkişaf etməsi artıq qabaqcıl, tərəqqipərvər musiqiçilər tərəfindən milli dəyərlər əsasında musiqi məktəbinin yaradılması məsələsini gündəmə gətirirdi. Bu da əsassız deyildi. Bakıda fəaliyyət göstərən musiqi məktəbi bölgələr üçün bir təhsil ocağı kimi örnək olmaqla yanaşı, yerlərdə də musiqi məktəblərinin açılmasına təkan verirdi. Yeri gəlmişkən, bu musiqi oca-

ğının yaranması və Azərbaycanda musiqi təhsilinin inkişafında onun rolu haqqında oxuculara bir qədər ətraflı məlumat vermək istəyirəm.

Moskva Konservatoriyasının məzunu, pianoçu Antonina Nikolayevna Yermolayeva 1895-ci ildə Bakıda özəl musiqi məktəbi açır. Dövrün qabaqcıl ziyalılarından olan A.N.Yermolayevanın bu addımı yüksək qiymətləndirilsə də nəticə etibarı ilə musiqi təhsili almaq üçün məktəbin azərbaycanlılara o qədər də xeyirli olmadığını göstərməliyik. İyirmi illik fəaliyyəti ərzində bu məktəbdə bir nəfər də olsun azərbaycanlı balası təhsil ala bilməmişdi. Üzeyir Hacıbəyov bununla bağlı özünün "Azərbaycanda musiqi təhsili" məqaləsində ürək yanğısı ilə yazırdı: "Bakı hələ çar hökumətinin quberniya şəhərlərindən biri olan zamanlarda burada "Rus İmperator Musiqi Cəmiyyəti" adlanan bir müəssiseyi-musiqiyyənin şöbəsi olmaq üzrə bir musiqi məktəbi mövcud idi. Bu məktəb Bakıda iyirmi illik uzun bir müddət ömür sürüb, müntəzəm bir surətdə yaşadığı halda, qapılarını musiqi təhsili arzusunda bulunan türk balaları üçün daim bağlı saxladı. Bu qədər uzun bir zaman içində bu məktəbdə bir nəfər belə yerli türklərdən oxuyan və məktəbi bitirən olmadı. Məktəbin mövcud olub-olmaması haqqında yerli türklərin xəbəri belə yox idi". Belə bir vəziyyətlə barışmayan Üzeyir Hacıbəyov öz tərəfdaşları ilə həmin məktəbin qapılarını azərbaycanlı balalarının üzünə açmaq məqsədi ilə sözdən əməli işə keçir. Belə ki, Üzeyir bəy 1916-cı ildə A.N.Yermolayevanın təsis etdiyi musiqi məktəbinin dövlət orta ixtisas musiqi məktəbinə çevrilməsinə nail olur. Məhz bu dövrdən Üzeyir Hacıbəyovun yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanda milli dəyərlər əsasında musiqi təhsilinin əsası qoyulur. Məktəbə daxil olan şagirdlərin əksəriyyətinin azərbaycanlı olması və onların qabaqcıl şagird kimi məktəbdə aparıcı mövqe sərgiləməsi təhsil sistemində mühüm islahatların başlamasından xəbər verirdi. Beləliklə, Üzeyir Hacıbəyov Azərbaycan milli

musiqi təhsili sisteminin əsasını qoyur. Üzeyir bəyin səmərəli fəaliyyəti sayəsində 1920-ci ildə Bakıda Xalq Konservatoriyası, onun əsasında isə 1921-ci ildə Dövlət Konservatoriyası yaradılır. İlk musiqi məktəbinin yaranmasından keçən 25 il ərzində, daha dəqiq desək, 1916–1922-ci illər ərzində Üzeyir bəyin səyi ilə Bakıda Dövlət Orta İxtisas Musiqi Məktəbi, Xalq Konservatoriyası, Bakı Dövlət Konservatoriyası, Şərq Konservatoriyası (1922) yaradılır. Bu təhsil ocaqlarının fəaliyyəti Azərbaycanda milli musiqi təhsil sisteminin formalaşması ilə nəticələnir. Tezliklə Bakı şəhərində formalaşan milli musiqi təhsil sistemi öz bəhrəsini verməyə başlayır. Belə ki, 20-ci illərin əvvəlindən Bakı Dövlət Orta İxtisas Musiqi Məktəbini ilk azərbaycanlı məzunlar bitirməyə başlayırlar. Onların sırasında Azərbaycan musiqi elminin öndə gedən sənətkarlarından Səid Rüstəmov, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Xurşud Ağayeva, Leyla Muradova, Əşrəf Həsənov, Tamara Rəhimova, Fatma Səmədova, Məmməd Nəsirbəyov, Nigar Usubova, Ələkbər Daşdəmirov, Qılman Salahov, Əhməd Bakıxanov və başqaları var idi. Bundan əvvəl Ü.Hacıbəyov tərəfindən məktəbdə pedaqoji fəaliyyətə cəlb olunan ustad sənətkarlardan Hüseynqulu Sarabski, Qurban Pirimov, Seyid Şuşinski, Mansur Mansurov, Ağası Məşədibəyov, Bülbül məktəbin yeni məzunları ilə birlikdə çiyin-çiyinə çalışaraq Azərbaycanda musiqi təhsilinin inkişafında çox böyük nailiyyətlər əldə edirlər.

Naxçıvanda musiqi məktəbinin açılması dövrün ən vacib, ürəkaçan hadisələrindən biri olmaqla yanaşı, Naxçıvan musiqi mədəniyyətinin inkişafı tarixində çox mühüm əhəmiyyət kəsb edir. Musiqi məktəbinin açılmasında Üzeyir Hacıbəyovun müstəsna xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Musiqi məktəbinin Bakıdan sonra məhz Naxçıvanda açılması Ü.Hacıbəyov tərəfindən bir neçə səbəbə görə bəyənilmiş və tövsiyə edilmişdir. İlk növbədə muxtar respublikanın paytaxtı kimi Naxçıvan şəhəri bu işdə müstəsna hüquqi səlahiyyətlərə malik

idi. Bundan əlavə, yerli əhalinin elmə, mədəniyyətə olan marağı, Naxçıvan şəhərində və ərazi etibarı ilə ona bitişik kəndlərdə əhalinin sayı və tərkibi, fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, klub, mədəniyyət evlərinin və digər mədəniyyət müəssisələrinin ümumi sayı məktəbin uğurla fəaliyyət göstərəcəyinin əsaslı təminatçısı kimi şərtləndirilə bilər. Bununla yanaşı, oxucular üçün maraq doğuran faktlardan Naxçıvanın mütəfəkkirlər diyarı olması, Zülfüqar Hacıbəyovun vaxtı ilə Naxçıvanda yaşayıb-yaratması və burada olan musiqi mühiti ilə Üzeyir bəyi yaxından tanış etməsi, poeziyamızın sönməz günəşi Hüseyn Cavidlə Üzeyir bəyin qardaşlıqdan seçilməyən yaxınlığı, Cəlil Məmmədquluzadə ilə daimi yaradıcılıq əlaqələrinin olmasını və digər məqamları göstərmək olar. Deyilənlərə əlavə olaraq, Üzeyir Hacıbəyovun 1937-ci ildə Naxçıvandan SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputat seçilməsi bu işin müsbət həll edilməsində mühüm amil kimi də göstərilə bilər.




***Ü.Hacıbəyovun deputat vəsiqəsi. 1937-ci il.***

Beləliklə, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri Cəfərovun 23 avqust 1937-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasında musiqi məktəblərinin açılması haqqında qərar imzalanır. Hətta 1937–1938-ci tədris ili üçün Naxçıvan şəhəri və rayonlar üzrə şagird kontingenti də müəyyənləşdirilir:

*1. Naxçıvan şəhəri üzrə - 47 şagird;*
*2. Ordubad rayonu üzrə - 10 şagird;*
*3. Noraşen (Şərur) rayonu üzrə - 10 şagird;*
*4. Şahbuz rayonu üzrə - 5 şagird;*
*5. Əbrəqunus rayonu üzrə - 5 şagird;*
*6. Culfa rayonu üzrə - 3 şagird.*

Muxtar Respublika üzrə musiqi məktəblərinə 1937/1938-ci tədris ili üçün cəmi 80 şagird qəbulu planlaşdırılmışdı. Lakin rayonlarda ixtisaslı müəllim kadrlarının çatışmaması, şagird kontingentinin rayonlar üzrə düzgün müəyyənləşdirilməməsi və rayon əhalisinin musiqi təhsilinə laqeyd münasibəti nəticəsində muxtar respublikanın rayon mərkəzlərində açılması nəzərdə tutulan musiqi məktəbləri üçün ayrılmış şagird kontingentinin (cəmi 80 şagird) hamısı Naxçıvan şəhərinə ünvanlanmış və 1937–38-ci tədris ilində şagird qəbulu yalnız Naxçıvan şəhəri üzrə keçirilmişdi. Bunu həmin tədris ilində məktəbə 5 şöbə üzrə qəbul edilmiş şagirdlərin ümumi sayı da təsdiq edir. Əldə olunan arxiv sənədlərinə əsasən 1937–1938-ci tədris ilində Naxçıvan musiqi məktəbinə 5 şöbə üzrə: tar, kamança, royal, nəfəs və simli alətlər şöbələrinə (o dövrdə şöbələr belə adlanırdı) aşağıdakı sayda şagird qəbul edilmişdir: pianino (fortepiano) şöbəsi üzrə 28 şagird; tar şöbəsi üzrə 18 şagird; kamança şöbəsi üzrə 16 şagird; skripka şöbəsi üzrə 10 şagird. Nəfəs alətləri şöbəsi üzrə ayrılmış yerlər isə (8) vakant olaraq saxlanılmışdı. Göstərilən qərarın 5-ci bəndinə əsasən məktəbin direktoru vəzifəsi müvəqqəti olaraq İncəsənət İşləri İdarəsinin təlimatçısı Hüseyn Baqiyə həvalə olunmuşdur. Təəssüflə qeyd etməliyik ki, musiqi məktəbinin açılmasından 73 il keçsə də Hüseyn müəllimin sonrakı fəaliyyəti haqqında əlimizdə tutarlı bir məlumat yoxdur.

Qərarın bir maraqlı və təqdirəlayiq cəhətini də oxucuların nəzərinə çatdırmaq istəyirəm. Qərarın 4-cü və 6-cı bəndlərində təlimatçılara və Azərbaycan Xalq Komissarları Şu-

rasının İncəsənət İşləri İdarəsinin rəisi Səfərova tapşırılır ki, məktəbin fəaliyyətini gücləndirmək üçün 40 nəfərlik yataqxananın yaradılmasını və lazımi miqdarda musiqi alətləri almaq üçün vəsaitin əldə olunmasını təmin etsinlər.



П О С Т А Н О В Л Е Н И Е

Президиума Нах. ЦИК"а от 23/VIII-37г.

О создании в Нахичеванской ССР Музыкальной школы.

( т.т. Махмудов и Сафаров )

Президиум ЦИК"а Нах.АССР постановляет:

1. Создать в Нах.ССР Музыкальную школу.

2. Утвердить контингент приема в Музыкальную школу на 1937/38г. учебный год в 80 человек с разверсткой по р-нам Нах.Республики в следующем порядке:

а) Ордубатский район - 10 человек
б) Норашенский " - 10 -"-
в) Шахбузский " - 5 -"-
г) Абракунисский " - 5 -"-
д) Джульфинский " - 3 -"-
е) город Нахич. " - 47 -"-

3. На 1937/38 учебный год при музыкальной школе иметь классы по следующим специальностям:

а) Т а р а
б) Кеманча
в) Р о я л ь
г) класс игры на духовых инструментах (гобой, фагот, труба, волторн, тромбон и т.д.)
е) теоретические дисциплины

4. ~~Отвести под музыкальную школу помещение Наркомместпрома (5 классн. комнат )~~. Наркомкомхозу т. Оганову не позднее 1/IX-представить в распоряжение музыкальной Школы помещение под общежитие на 40 человек.

5. Временное исполнение обязанности Директора Музыкальной Школы возложить на тов. Гусейн Беги. (Инспектор Комитета Искусств)

6. Поручить тов. Махмудову и представителю Управления по делам искусства при СНК Аз.ССР тов. Сафарову к 5/IX-с.г. подыскать зав. учебной частью (специалиста) и обеспечить контингент приема требуемым количеством инструментов.

7. В виду расхождения сметных ассигнований с утвержденным контингентом учащихся на 1937/38 учебный год, поручить тов. Махмудову и Сафарову уточнить смету в Управлении по делам искусств при СНК Аз.ССР, обратив внимание на увлечение ассигнований в части приобретения инструментов.

8. Предложить т. Махмудову обеспечить начало занятий в музыкальной Школе 15/IX-37г.

ПРЕДСЕДАТЕЛЬ НАХ.ЦИК"а: ( ДЖАФАРОВ )

*Naxçıvan MSSR-də musiqi məktəbinin yaradılması haqqında qərarın surəti. 1937-ci il.*

Qeyd etmək lazımdır ki, Naxçıvan Musiqi Məktəbi yarandığı gündən məktəbdə ixtisaslı kadrların çatışmaması rəhbər kadrların tez-tez dəyişməsinə səbəb olurdu. İlk vaxtlar məktəbə qeyri-ixtisaslı kadrlar, əsasən, İncəsənət İşləri İdarəsinin təlimatçıları rəhbərlik etmişlər. Hüseyn Baqidən sonra məktəbə hamımızın hərbi komissar kimi tanıdığı Əsgər Əhmədov rəhbərlik etməyə başlayır. Bunu əlimizdə olan Naxçıvan Kəndli, Fəhlə və Qırmızı Əsgərlər Deputatları Şurasının Mərkəzi İcrayə Komitəsi tərəfindən verilmiş 1937-ci il oktyabr tarixli vəsiqənin surəti də təsdiq edir. 1939-cu ildə məktəbə İncəsənət İşləri İdarəsinin rəisi İsmail Sailov, həmin ildən 1941-ci ilədək Məmməd Ələkbərov, 1943–1944-cü illərdə Siddiqə Abbasova, 1945–1946-cı illərdə isə Məmməd Cavadov rəhbərlik etmişlər. Bundan əlavə Məmməd Cavadov 1942, 1945–1950-ci illərdə tədris hissə müdiri vəzifəsini də uğurla yerinə yetirmişdir.

Musiqi məktəbinə qısa müddət rəhbərlik edən Hüseyn Baqini 1939-cu ildə Məmməd Ələkbərov əvəz edir. İxtisasca truba müəllimi olan Məmməd Ələkbərov ixtisaslı kadırların az olmasına baxmayaraq müəllim kontingentinin ixtisaslı kadrlarla təmin olunmasına ciddi diqqət yetirirdi. Bu işdə Üzeyir bəy Məmməd müəllimə böyük köməklik göstərərək öz tələbələrindən bir neçəsinin Naxçıvana musiqi məktəbinə işləmək üçün göndərilməsinə nail olmuş və beləliklə, Naxçıvan Musiqi Məktəbində müəllim kollektivinin yeni ixtisaslı kadrlarla təmin olunması işində ilkin uğurlu addımlar atılmışdır. Bu kimi ixtisaslı müəllimlərdən ilk növbədə Hüseyn Sadıxov (tar) və Rəhim Babayevi (kamança) göstərmək olar. Onların səmərəli və professional müəllimlik fəaliyyəti nəticəsində Naxçıvan Musiqi Məktəbində güclü tar və kamança instrumental ifaçılıq sənətinin əsası qoyulmuş və aradan uzun illər keçməsinə baxmayaraq bu ənənə özünü bu gün də göstərməkdədir. Beləliklə, 1939–41-ci illərdə Naxçıvan Musiqi Məktəbinə başçılıq etmiş Məmməd Ələkbərov özü də daxil olmaqla adları aşağıda gös-

tərilən kiçik müəllim kollektivi ilə işləməsinə baxmayaraq çox boyük uğurlara imza atmışdır:

*1. Məmməd Ələkbərov - direktor (truba ixtisası üzrə müəllim)*
*2. Hüseyn Sadıxov - tar ixtisası üzrə müəllim*
*3. Rəhim Babayev - kamança ixtisası üzrə müəllim*
*4. Nikolskaya Olqa Andreyevna - fortepiano ixtisası üzrə müəllim.*
*5. Javarenkovun ixtisası isə sənədlərdə göstərilməmişdir.*

Arxiv sənədlərində naməlum səbəblərə görə əksini tapmasa da görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü, professor Nəriman Məmmədovun söylədiklərinə əsasən, o dövrdə fəaliyyət göstərən müəllimlər sırasında musiqi məktəbində skripka ixtisası üzrə dərs deyən Zül və tar müəllimi Nəbiyev də yer alırdı. Hətta Nəriman müəllim söhbətimizdə Zülün oğlunun pianoçu olduğu və Tiflisdə musiqiçi kimi fəaliyyət göstərdiyini ətraflı xatırladı (Bakı şəhəri, 31 mart 2009-cu il). Nəriman Məmmədovun bu fikri 1939/1940-cı tədris ili üçün keçirilən qəbul imtahan protokolunda da açıq-aşkar öz təsdiqini tapır. Arxiv sənədlərində həmin tədris ili üçün keçirilən qəbul imtahan komissiyası aşağıdakı tərkibdə təsdiq olunmuşdur:

*1. Ələkbərov Məmməd - sədr, direktor, İncəsənət İşləri İdarəsinin işçisi*
*2. Zül - tədris hissə müdiri*
*3. Nikolskaya O. A. - piano sinfinin müəllimi*

Sənəddən o da məlum olur ki, Zül o dövrdə məktəbdə skripka ixtisası üzrə müəllim işləməklə yanaşı tədris hissə müdiri vəzifəsini də uğurla yerinə yetirirmiş. Onu da qeyd etməliyəm ki, göstərilən sənədə əsasən Naxçıvan Musiqi Məktəbi o dövrlər ÜLKGİ (Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı) adını daşıyırdı. (Naxçıvan MR Dövlət arxivi f-529, siyahı 1, arxiv 3).

Qeyd etmək lazımdır ki, Olqa Andreyevna Naxçıvanda hərbi qulluqda olan zabitin həyat yoldaşı idi və uzun illər Naxçıvanda səmərəli həkimlik fəaliyyəti ilə yaddaşlarda silinməz iz buraxmış Suslovanın yaxın rəfiqəsi olmuşdur. Nəbiyev isə ehtimal ki, Üzeyir bəyin Naxçıvan musiqi məktəbinə göndərdiyi mütəxəssislərdən biri idi.

Yəqin ki, tədqiqatçılar və oxucularda 1937–1938-ci tədris ilində Naxçıvan musiqi məktəbinə qəbul olunan şagirdlərin adlı siyahısı böyük maraq doğurar. Bunu nəzərə alaraq həmin siyahını olduğu kimi təqdim edirəm. Sözsüz ki, bu siyahıda kimlərsə öz ata-anasının, bacı-qardaşının, babasının, nənəsinin və ya yaxın qohumlarının adına rast gələcəklər. O, onlar haqqında, onların sonrakı taleləri haqqında oxucular tərəfindən bu kitabın müəllifinə bir qədər geniş məlumat verilsə, gələcək tədqiqatlar üçün böyük köməklik olar. Bir müəllif kimi mən adları siyahıda olanların bir qismini yaxından tanıyaraq onlarla görüşüb söhbət etmişəm.

Beləliklə, Naxçıvan şəhər Musiqi Məktəbinə qəbul edilmiş ilk şagirdlərin, yəni 1938-ci il dekabr ayında məktəbdə olan və ad, soyadlarını müəyyənləşdirdiyim şagirdlərin adlı siyahısı:

***Pianino şöbəsi üzrə (28 şagird)***

1. Kəngərli Rəna
2. İsmayılova Sonya
3. Qədimova Turaç
4. Əliyeva Roza
5. Qasımbəyova Nina
6. Qazıyeva Şəfiqə
7. Səfərli Gültəkin
8. Dadaşova Şəfiqə
9. Ələkbərova Fatma

10. Qədimova Rübabə
11. Məmmədova Roza
....................................
....................................
....................................

*Tar şöbəsi (18 şagird)*

1. Məmmədov Nəriman
2. Tağıyev Ənvər
3. Abdullayev Kamil
4. Abdullayev Ramiz
5. Ələkbərov Kərim
6. Yusifov Rəhim
7. Abdulov Kamal
8. Sultanov Şəmsi
9. Əmirov Gültal
10. Əsgərov Əsgər
11. İbrahimova Xurşud
12. Məmmədov Firudin
13. Nəcəfov Əkbər
14. İsayeva Emma
..............................
..............................
..............................

*Kamança şöbəsi (16 şagird)*

1. Nəcəfov Adil
2. Mürsəlov Həmid
3. Məmmədov Təvəkkül
4. Kəngərli Ənvər
5. İsgəndərov Yusif
6. İsayev Nəriman

7. Quliyev Adil
8. Hüseynov Hüseyn
9. İsayev İbrahim
10. Ələkbərov Yaqub
11. Əliyev Tapdıq
12. Ələkbərov Məmməd
13. Abbasov Şulan
14. Hüseynova Nəcibə
15. Məmmədov Məmməd
16. İsmayılov Nemət

*Skripka şöbəsi (10 şagird)*

1. Turabov Aslan
2. Qoçəliyev Rəşid
3. Kəngərli Şəfiqə
4. Sultanov Mehdi
5. Mirişli İra (İrina)

................................
................................
................................

Musiqi məktəbinin ilk müdavimlərindən bir çoxu musiqi təhsilini davam etdirərək bu sənətin görkəmli ustadları kimi Naxçıvan musiqi mədəniyyəti tarixində silinməz iz qoymuşlar. Bu kimi sənətkarlardan məktəbin ilk şagirdləri olmuş Nəriman Məmmədov (tar), Kamil Abdullayev (tar), Ənvər Kəngərli (kamança), Məmməd Ələkbərov (kamança), Məmməd Məmmədov (kamança) və başqalarını göstərmək olar. Digərlərinin isə müxtəlif sənət sahibləri olmasına baxmayaraq bir ziyalı kimi formalaşmalarında aldıqları musiqi təhsilinin onlara əsaslı təsiri olduğunu deyə bilərik. Bu kimi ziyalılardan Yavuz Axundov (tar), Mehdi Sultanov (skripka), Mirişli İradə (skripka), Fikrət Qədimov (tar), Cəmil Təhməzbəyov (tar), Nadir

Təhməzbəyovu (skripka) xatırlamaq kifayətdir. Bu şəxslərin hər biri naxçıvanlıların qəlbində əsl ziyalı rəmzinə çevrilmişlər.

Qeyd etmək lazımdır ki, məktəbə ilk qəbul olunan şagirdlərin sırasında tanış soyadlara (Kəngərli, Mirişli, Qədimov, Məmmədov və s.) rast gəlinir. Onlardan bir çoxu bəstəkar, nəzəriyyəçi, musiqi müəllimi kimi nəinki Naxçıvanda, Azərbaycanda, hətta bir sıra qonşu ölkələrdə də Azərbaycan musiqi sənətinin layiqli təmsilçisi kimi şöhrət tapmışlar.

...Cəmi bir neçə il əvvəl yaradılmış Naxçıvan Musiqi Məktəbinin müdiriyyəti ağır müharibə illərində də müəllim kollektivinin köməyi ilə məktəbin fəaliyyətini gücləndirmək və tam qüvvəsi ilə işləməsi üçün müxtəlif yeniliklər həyata keçirirdi. Belə yeniliklərdən biri də 1944-cü ildə məktəbə rəhbərlik edən Siddiqə Abbasovanın 01 aprel tarixli 116 nömrəli əmri ilə Naxçıvan Musiqi Məktəbi nəzdində şəhərin ziyalı qadınları üçün tar dərnəyinin təşkil edilməsi idi. Bura ilk növbədə əsgər ailələrindən olan ziyalı qadınların cəlb olunması nəzərdə tuturdu. Bununla da Naxçıvan Muxtar Respublikasında, bəlkə də Azərbaycanda ilk dəfə olaraq nisbətən yaşlı qadınların musiqi təhsilinə cəlb olunması prosesinə başlandı desək, səhv etmərik. Bu hərəkətin uğurlu nəticəsi illər ötdükcə özünü daha çox göstərməyə başlayırdı. Belə ki, dərnək üzvləri tədricən övladlarını, yaxın qohumlarını musiqi məktəbinə göndərməyə başlamış və nəticədə gələcək üçün yerli musiqiçi kadrların hazırlanması işində ilk kövrək addımlar atılmağa başlanmışdır.

Naxçıvan musiqi məktəbinin yaradılmasından bir neçə il sonra (1943) Azərbaycan Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi rəisinin əmri ilə Naxçıvan musiqi məktəbinə göndərilən və səmərəli əmək fəaliyyəti ilə diqqətləri cəlb edən müəllimlərdən Məmməd Cavadovu xüsusilə qeyd etmək istəyirəm. Məmməd müəllim direktor, tədris hissə müdiri vəzifələri ilə yanaşı, Naxçıvan Musiqi Məktəbində nəfəs alətləri şöbəsinin, orkestr və xor kollektivlərinin yaradılması, onlara

başçılıq etməsi, caz orkestrinə kadrlar hazırlanmasında xeyli səmərəli, yaddaqalan, uzun illər müxtəlif nəslin nümayəndələrinin bəhrəsini gördüyü işləri aparmışdır. Bütün bunları 01 mart 1943-cü il tarixli 4 nömrəli və 01 yanvar 1944-cü il tarixli 113 nömrəli əmrlər deməyə əsas verir. (Naxçıvan dövlət arxivi fond-529, siyahı-2, arxiv-12/46 və arxiv-11).

Məmməd Cavadovun həyat və yaradıcılığı haqqında oxuculara bir qədər ətraflı məlumat vermək yerinə düşər. Ümumiyyətlə, Naxçıvan Musiqi Məktəbinin yaradılmasından uzun illər keçməsinə baxmayaraq Naxçıvanda yaşayıb–yaratmış və Naxçıvan musiqi mədəniyyətinə töhfələr vermiş bir sıra musiqi xadimləri, bəstəkarlar var ki, onların yaradıcılığı haqqında qəribə də olsa bugünədək Naxçıvan, Azərbaycan musiqi ictimaiyyətinə çox az faktlar məlumdur. Bir müəllif kimi bu boşluğu doldurmaq və yeri gəldikcə həmin sənətkarlar haqqında əldə etdiyim sənədli məlumatları oxuculara təqdim etməyi özümə borc bilirəm.

# Məmməd Kərim oğlu Cavadov
# (1912-2002)



Naxçıvan haqqında yazılmış mahnılardan Naxçıvanın "atributu" sayılan "Naxçıvan" mahnısının müəllifi, on ildən artıq Naxçıvanda yaşamış, yazıb-yaratmış istedadlı bəstəkar, gözəl pedaqoq, ictimai fəallığı ilə diqqətləri cəlb edən Məmməd Cavadovdur.

Uzun araşdırmalar, şifahi söhbətlərdən sonra müğənni Sevinc Allahverdiyevanın Məmməd Cavadovun qız nəvəsi olduğunu müəyyənləşdirdim. Yeri gəlmişkən, tanışlığımıza səbəb olan dostum, həmkarım, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Quliyevə öz təşəkkürümü bildirirəm.

Telefon danışığımızda Sevinc xanım mənə dayısı Məmməd Cavadovun oğlu Azər müəllimlə görüşməyi tövsiyə etdi. Qeyd edim ki, Azər müəllim atasının yolunu davam etdirir və haliyyədə doğma yurdu Füzuli rayonunun Horadiz şəhərində yerləşən musiqi məktəbinə rəhbərlik edir. Azər Cavadovun çox səmimi, mehriban bir insan olduğunu ilk telefon söhbətimizdən hiss etdim. Məqsədimi ona bildirəndə məmnuniyyətlə görüşmək təklifimi qəbul etdi və Qurban bayramı ərəfəsində Bakıya gələrək (26 noyabr 2009) mənimlə görüşəcəyinə söz verdi.

Görüşə Azər müəllim əliboş gəlməmişdi. O, Məmməd müəllimin uzun illər qoruyub saxladığı, bu gün isə tarixə çevrilmiş fotoşəkli, əlyazmaları və digər sənədlərlə gəlmişdi. Qəlbimdə bir minnətdarlıq hissi oyandı və sanki üzümü Məmməd müəllimə tutub pıçıldayırdım: "Rahat yat, hörmətli ustad. Nəsillərə əmanət etdiyin mədəni-mənəvi irsin etibarlı əllərdə-

dir. Allah sənə rəhmət eləsin, qəbrin nurla dolsun". Azər müəllimlə çay süfrəsi arxasında Məmməd Cavadovun yaradıcılığına bir daha nəzər salıb, şirin xatirələri yad etdik. Bir neçə əlyazmanın və Naxçıvanla bağlı üç ədəd fotoşəkilin surətini çıxarıb özümlə götürdüm...

Məmməd Kərim oğlu Cavadov 1912-ci ildə Füzuli şəhərində sadə peşə sahibi olan dərzi Kərim ustanın ailəsində dünyaya göz açmışdır. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərsə də Füzuli şəhərində musiqi məktəbi, musiqi dərnəyi olmadığından balaca Məmməd bu həvəsi ürəyində yaşatmış və orta məktəbi bitirdikdən sonra musiqi təhsili almaq üçün Bakıya, Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinə üz tutmuşdur. Heç bir musiqi təhsili olmasa da Məmmədin musiqiyə olan böyük həvəsini və milli kadrlara olan kəskin ehtiyacı nəzərə alaraq məktəb rəhbərliyi onu nəfəs alətləri şöbəsinə, klarnet sinfinə qəbul edir. 1929-cu ildə orta ixtisas musiqi məktəbinə daxil olan gənc gərgin məşqlər hesabına tanış olmadığı Avropa musiqi alətini öyrənməyə başlayır. Qısa müddət ərzində Məmməd Cavadov bu alətin sirlərinə dərindən yiyələnərək istedadlı ifaçılar sırasına qoşulur. Nə qədər ağır olsa da Məmməd üzərinə düşən işin öhdəsindən bacarıqla gələrək ikinci ixtisas üzrə də bəstəkarlıq şöbəsində təhsil almağa başlayır. Məmməd sanki illərdən bəri daxilində yığılıb qalmış musiqiyə olan böyük sevgisinin hamısını musiqi elminə "xərcləmək" istəyirdi. Bu işdə ona ixtisas müəllimləri Fedoroviç və Üzeyir bəyin hərtərəfli köməyini qeyd etmək lazımdır. Gərgin əməyin nəticəsi olaraq Məmməd Cavadov 1932-ci ildə Üzeyir Hacıbəyovun yaratdığı və ilk zamanlar başçılıq etdiyi Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinə klarnet ifaçısı kimi işə qəbul olunur. Beləliklə, gənc musiqiçi uzun illər həsrətində olduğu böyük musiqi dünyasına qədəm qoyur.

1938-ci ildə Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü keçirilirdi. Bu ongünlük Azərbaycan musiqiçilərinin, incəsənət işçilərinin, ümumiyyətlə, Azərbaycan mədə-

niyyət və incəsənətinin ümumittifaq tamaşaçıları qarşısında ilk hesabat konserti idi desək, heç də səhv etmərik. Digər tərəfdən isə bu tədbir Azərbaycan incəsənət işçiləri üçün beynəlxalq aləmə yol açan ilk "vəsiqə" idi. Bu baxımdan ongünlükdə iştirak edəcək sənətkarlar çox məsuliyyətlə seçilib kollektivlərə daxil edilirdilər. Məmməd müəllimin də bir musiqiçi kimi Moskvada iştirak edəcək sənətkarlar sırasına daxil edilməsi onun professional ifaçılığına verilən ən yüksək dəyər idi. Təsadüfi deyildi ki, elə həmin il (1938) Üzeyir bəyin təklifi ilə Məmməd Cavadov Azərbaycan Dövlət Opera və Balet Teatrının simfonik orkestrinə işə təyin edilir. Tezliklə o, gözəl klarnet, saksafon və bir sıra nəfəs alətləri ifaçısı kimi Bakı musiqi ictimaiyyətində ad-san qazanmağa başlayır. Məmmədin ifaçılığına yüksək dəyər verən maestro Niyazi və bəstəkar Tofiq Quliyev onu 1941-ci ildə yaratdıqları Azərbaycan Caz Orkestrinə solist-saksafonçu kimi işə dəvət edirlər. Musiqi sənəti ilə yaxından tanış olanlar yaxşı bilirlər ki, caz orkestrində solist kimi fəaliyyət göstərmək necə çətin bir vəzifədir. Bu vəzifənin öhdəsindən gəlmək üçün musiqiçidən hər zaman musiqi duyumu ilə yanaşı yüksək ifaçılıq texnikası, musiqi alətinin səs diapazonu üzrə bütün səslərin lazımi səviyyədə səsləndirilməsi və müəyyən dərəcədə artistlik qabiliyyəti tələb olunur. Belə xüsisiyyətlərə malik istedadlı ifaçı iki ilə yaxın caz orkestrində çalışır. Lakin idarəçilik qabiliyyətinə malik musiqiçilərə olan böyük ehtiyac Məmməd Cavadovun tezliklə (1943-cü ilin yanvar ayından etibarən) Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrına direktor, bir ay sonra isə Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi rəisinin 25 fevral 1943-cü il tarixli 123 nömrəli əmrinə əsasən Naxçıvan Dövlət Musiqili Dram Teatrına direktor və dirijor vəzifələrinə təyin edilməsi ilə nəticələnir. Həmin andan Məmməd müəllimin "ömür kitabında" Naxçıvanla bağlı unudulmaz, ağrılı-acılı, eyni zamanda şirin xatirələrlə zəngin səhifələr yer alır.

ТРУДОВАЯ КНИЖКА

Фамилия ДЖАВАДОВ

Имя МАМЕД

Отчество КЕРИМ оглы

Год рождения 1912 г.

Образование: высшее /незаконченное/

Профессия Музыкант /Кларнетист/

Подпись владельца Трудовой книжки

Подпись

Дата заполнения Трудовой книжки

24 Января 1939 г.

СВЕДЕНИЯ О РАБОТЕ

| № записи | Дата: Год | м-ц | число | Сведения о приеме на работу, перемещениях по работе и увольнении /с указанием причин/ | На основании чего внесена запись /документ, его дата и номер/ |
|---|---|---|---|---|---|
| 1 | 2 | | | 3 | 4 |
| I. | | | | Общий стаж работы по найму до поступления в Азгосоперу составляет 9 лет /девять лет/ из них 2 года 6 м-ц. пед стаж. | 6 лет 8 мес твердд. доку. 2 г. 4м. сотск |
| | | | | Азербайджанский Государственный ордена Ленина театр опера и балет им. М.Ф.Ахундова. | |
| 2. | 1938 | Ноябрь | I | Зачислен на работу в качестве артиста оркестра. | Приказ по Театру № [illegible] |
| 3. | 1941 | XI | 21 | Освобожден в виду перевода в Гос. ДЖАЗ оркестр Аз.ССР<br>Управделом: Подпись | |
| | Гербовая печать | | | | |
| 4. | 1943 | I | 16 | Зачисляется в Азерб.Госуд.драм. театр им. Азизбекова Директором оркестра. | Приказ № по театру № 10 от [illegible]/I-[illegible]г. |
| 5. | 1943 | II | 22 | Освобождается от занимаемой должности в виду перевода в Нахичеванский Гостеатр; согласно приказа Упрл/д Искус при СНК АЗ ССР за № 123<br>Управ делами: Подпись | Приказ по театру № [illegible] от 2[illegible]/II-4[illegible]г. |
| | Гербовая печать | | | | |
| 6. | 1943 | II | 25 | Назначен на должность Директора Госдрам театра Нахи АССР, согл.приказа Аз Искусств.<br>Директор: Подпись | № 123 театр № |
| | Гербовая печать | | | | |
| 7. | 1944 | XII | 20 | Освобожден согл.приказа НахУправл. Искуства в виду перевода на должность директора и преподователя Нах.муз школы<br>Начальник Управлением искусств и Подпись | № 47 |
| | Гербовая печать | | | | |
| 8. | 1944 | | 27 | Назначить на должность [illegible] преподавателя Нах муз школы<br>Директор Нах.муз школы | приказ № 56 |

см.на обороте

*Məmməd Cavadovun əmək kitabçasının surəti*

| | | | | | |
|---|---|---|---|---|---|
| 9 | 1946 | Ш | I | Освобожден в виду перевода на должность художеств.руководителя Нах.Гос.оркестра с оставлением на должности педагога Нах Муз школе<br>Начальник Упр.Нах.Искуства: Подпись | Приказ № 23 |
| | Гербовая печать | | | | |
| 10 | 1946 | Ш | 2 | Назначить на должность художественного руководителя Нах.Гос оркестра<br>Директор: Нах.Гос оркестра: Подпись | Приказ № 92 |
| | Гербовая печать | | | | |
| 11 | 1949 | Ш | 25 | Освободить от занимаемой должности в виду ликвидации Нах.Гос оркестра<br>Директор Гос Оркестра: Подпись | Приказ |
| | Гербовая печать | | | | |
| 12 | 1949 | Ш | 25 | Назначить на должность художественного. руководителя Нах.дом культуры<br>Директор: Подпись | |
| | Гербовая печать | | | | |
| 13 | 1954 | X | I | Назначено на должность педогог по предпод. музыка и пения Карягинской педучилища им. Ленина. | Приказ № 85 от 1/.. 1954 г. |
| 14 | 1958 | У | I | Освобождается от занимаемой должности сог.распоряжен. Райком партии для перевода на другую работу<br>Директор Карягинский педучилища: Подпись /Худиева/ | Приказ ... от 1/У-... |
| | Гербовая печать | | | | |
| 15 | 1957 | IX | I | Зачислить педагогом Карягинской Музшколы по теоретическим дисциплинам.<br>Директор: Подпись /Набиев/ | Пр. № 5 1/IX-1957 |
| | Гербовая печать | | | | |
| 16 | 1961 | 8 | 30 | Освобождает от занимаемой должности педагога Физулинской Музшколы по собственному желанию<br>Директор Физулинской Музшколы: Подпись /Набиев/ | |
| | Гербовая печать | | | | |
| 17 | 1961 | IX | I | Принять на должность преподователя общ. фортепиано по народному отделу<br>Директор Агдамского Музучилища: Подпись /Джамамиров/ | Приказ № 80 § 2 от 1/IX-... |
| | Гербовая печать | | | | |

Сурәтин ... ... ...

...ынын ... ...

3 Декабр ... јанвар 196... ил. Мән ... Физули ... дөвләт нотариат кантору ...

Мейрзиев М.А. ...

Бу сурәтин ... ... ... тәсдиг едирәм. Сурәтин ... ... ... ... ... ...

... хүсусијјәт ... ... ... ... ...

12-492 ... ... ...

... ...



*Nəfəs alətləri ansamblı. M.Cavadov (soldan birinci)*

Məmməd Cavadov teatrla yanaşı Naxçıvan musiqi məktəbində də dərs verir. Gərgin iş cədvəlinə baxmayaraq, Məmməd müəllim müxtəlif sahələrdə əmək fəaliyyətini davam etdirir. Əgər gənc bəstəkar teatrda Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına, "Arşın mal alan" musiqili komediyasına uğurla dirijorluq edirdisə, musiqi məktəbində nəzəriyyə və xor siniflərində, həmçinin klarnet ixtisası üzrə dərs keçərək gənc musiqiçilərin sənətə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmirdi. Əmək fəaliyyəti ilə yanaşı, Məmməd müəllim yaradıcılıq fəaliyyətini də uğurla davam etdirir. Bu baxımdan illər boyu dillər əzbəri olan "Naxçıvan" mahnısının yaranma tarixini nəzərinizə çatdırmaq istəyirəm. 1945-ci il aprel ayının 25 idi. Teatrın həyətində (o zamanlar teatr "Böyük Bağda" yerləşirdi) Məmməd Cavadov aktyorlarla söhbət əsnasında onlardan xahiş edir ki, Naxçıvan haqqında mahnı yazmaq üçün yerli şairlərdən biri ilə onu tanış etsinlər. Həmkarları təəssüflə bildirirlər ki, bu işin öhdəsindən şair İslam Səfərli gələrdi, lakin o, müharibəyə gedib, cəbhədədir. Çox

keçmədən aktyorlardan biri onlara yaxınlaşan gənci göstərib deyir: "Arzuladığın şair gəlir". Məmməd Cavadovun şair Hüseyn Əzimlə tanışlığı belə başlamışdır...

Şair bəstəkarın fikrini dinləmiş, üzünə baxıb söz demədən teatra keçib otaqların birində masa arxasına oturaraq nə isə yazmağa başlamışdır. Təxminən 40 dəqiqədən sonra şair bəstəkarın yanına qayıdıb şeir yazılmış bir vərəqi ona uzadır. Məşhur "Naxçıvan" mahnısının sözləri belə yaranmışdır. Göründüyü kimi, bu uzunömürlü mahnının sözlərinin çox qısa yaranma tarixi var.

Şeir bəstəkarın çox xoşuna gəlir. O, vaxt itirmədən musiqi məktəbinə gedib piano arxasına keçir. Segah üstündə yazılmış mahnı, görünür, yaxşı alınmışdı. Belə ki, mahnı 1945-ci il 28 aprel tarixdə (mahnı yarandıqdan üç gün sonra) keçirilən bayram konsertinin proqramına daxil edilir. Mahnının ilk ifaçısı isə Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası, bəstəkarın həyat yoldaşı Zərqələm Cavadova olur. Mahnını hərarətlə qarşılayan tamaşaçılar müğənni Zərqələm Cavadovanı dəfələrlə səhnəyə çağırıb mahnının alqışlar altında təkrar-təkrar ifa olunmasını xahiş edirlər.

Məmməd müəllimin çoxşaxəli fəaliyyəti bununla bitmir. O, Naxçıvanda bir sıra yaradıcı kollektivlərin təşkil edilməsində səmərəli işlər görüb. Belə ki, 1946-cı ildən başlayaraq bəstəkar ilk dəfə olaraq burada Azərbaycan Xalq Çalğı Alətləri Orkestri, Dövlət Caz Orkestri, Sazçı Qızlar Ansamblı yaradır. Bu kollektivlərin yaranması öz növbəsində bir sıra istedadlı müğənnilərin, saz və rəqs ifaçılarının üzə çıxmasında mühüm rol oynamışdır. Onların sırasında müğənni Zərqələm Cavadova, o dövrdə gözəl rəqqasə kimi tanınan Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Sofya xanım Hüseynova (İsmayılova), aşıq Mənzər Məmmədova və başqalarını göstərmək olar.



*Azərbaycan Respublikasının xalq artisti, Prezident təqaüdçüsü Sofya xanım Hüseynova (İsmayılova).*

1946-cı il 15 sentyabr tarixində "Azərbaycan Gəncləri" qəzetində Məmməd Cavadovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestri haqqında dərc olunmuş məqaləni sizlərə təqdim edirəm:

"Naxçıvan şəhərində istedadlı gənclər çoxdur. Bunların içərisində incəsənət həvəskarlarının göstərdiyi fəaliyyət xüsusilə diqqətəlayiqdir. Gənc istedadların düzgün və mədəni yolla inkişaf etməsində Naxçıvan musiqi məktəbi mühüm rol oynayır. Musiqi məktəbini bitirənlərin bir çoxu ali musiqi təhsili almaq üçün Bakı və başqa şəhərlərə gedir, bəziləri isə respublikada xidmət edir.

Öz çıxışları ilə Naxçıvan zəhmətkeşlərinin rəğbətini qazanmış Naxçıvan Xalq Çalğı Alətləri Orkestrinin demək olar ki, bütün heyəti bu gənclərdən ibarətdir.

Orkestr yeni təşkil edilmişdir. Onun tərkibində 30 nəfər musiqiçi – tar, kamança, tütək, klarnet və dəfçalan vardır.

Bədii rəhbər və dirijor gənc bəstəkar Məmməd Cavadov yoldaşın səyi ilə orkestr mədəni səviyyəyə qaldırılmış və rayon zəhmətkeşlərinin sevdiyi bir orkestr olmuşdur.

Orkestrin solistləri və çalğıçıları bütün yenilikləri öyrənmək və mənimsəmək arzusu ilə yaşayır və yaradırlar. Onlar ən yeni musiqi parçalarını, xalq mahnılarını öz repertuarlarına daxil edir və bunların ifasını qabaqcıl sənət adamlarının ifası səviyyəsinə qaldırmaq üçün ciddi səy göstərirlər. Tarçalanlardan Kamil Abdullayev, kamançaçılardan Ənvər Hüseynov və başqaları hələ gəncdirlər. Lakin onların gələcəkdə bacarıqlı musiqiçi olacaqlarına şübhə yoxdur. Mahir dəfçalan Yusif Şeyxovu təkcə Naxçıvanda deyil, Bakıda da tanıyanlar çoxdur. Klarnetçalan Məmməd Ramazanov orkestrin görkəmli ifaçılarındandır.

Oxuyanlardan Zərqələm Cavadova, Rafail Səmədov məlahətli səsə malik olub düzgün inkişaf yolu tapmışlar. "Sevgili canan" nəğməsini, xalq mahnılarından "Kəklik", "Naxçıvan", "Layla" və s. məharətlə ifa edən Zərqələm Cavadova böyük ümidlər verir. Orkestrin müşayiəti ilə çıxış edən Sofya İsmayılova Azərbaycan xalq mahnı və rəqslərini ("Qazağı", "Bağlarda çiçək" və s.) yüksək mədəni səviyyədə ifa edir.

Bu orkestrin tamaşalarını və radio ilə çıxışlarını naxçıvanlılar böyük maraqla dinləyirlər. O indi təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikanın rayon mərkəzlərində də geniş kütlələrə mədəni xidmət edir.

Orkestr Noraşen (Şərur) rayonunun Yenicə kəndindəki kolxozda, Noraşen pambıq zavodunda və MTS fəhlələrinin klubunda, Culfada, Ordubad ipək fabrikində, konserv zavodunda və ətraf kolxozlarda böyük müvəffəqiyyətlə çıxış etmişdir. Əlbəttə, yeni təşkil edilmiş Naxçıvan Xalq Çalğı Alətləri Orkestri hələ zəngin təcrübəyə malik deyildir. Orkestr özünün ilk müvəffəqiyyətləri ilə kifayətlənməyib yaradıcılıq işini müvəffəqiyyətlə davam etdirməlidir. Qarşıda duran ən ümdə vəzifələrdən biri xor və rəqs dəstəsi yaratmaqdır" .



*Naxçıvan şəhər Musiqi Məktəbi. Məmməd Cavadov (ortada ayaq üstə duranlardan sağ tərəfdən birinci)*

Keçirilən konsertlərin rəngarəng olması üçün Məmməd Cavadov konsert proqramlarına teatrın aktyorlarından sonralar Azərbaycan Respublikasının Xalq artisti kimi yüksək fəxri ada layiq görülmüş Zəroş Həmzəyeva, Əyyub Haqverdiyev, Firuzə Əlixanovanın iştirakı ilə müxtəlif tamaşalardan parçalar, məzəli səhnələr daxil edirdi.

1949-cu ildən Məmməd Cavadov Naxçıvan şəhər mədəniyyət evində bədii rəhbər vəzifəsində işləməyə başlayır. Bu, 1954-cü ilədək Naxçıvanda çalışan Məmməd Cavadovun muxtar respublikada son iş yeri olmuşdur. Qeyd etmək lazımdır ki, Məmməd müəllim Naxçıvanda musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1944-cü ildə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.



*Məmməd Cavadov rəhbərlik etdiyi Naxçıvan musiqi kollektivləri ilə birlikdə. (3-cü sıra oturanlardan soldan 4-cü)*

1955-ci ildə yenidən doğulduğu şəhərə, Füzuliyə qayıdan bəstəkar burada bir sıra vəzifələrdə çalışır. İctimai fəallığı ilə seçilən Məmməd müəllimin adı tezliklə sözün yaxşı mənasında doğma diyarda da məşhurlaşmağa başlayır. Onun rəhbərliyi ilə Füzuli şəhərində yaradılmış özfəaliyyət dram dərnəyi, xalq çalğı alətləri ansamblı, 72 nəfərdən ibarət folklor ansamblı, internat məktəbində qızlardan ibarət nəfəs alətləri orkestri Füzuli rayonu üzrə sayılıb–seçilən kollektivlərdən idi. Təkcə onu qeyd etmək kifayətdir ki, Məmməd müəllimin yaratdığı folklor kollektivi Danimarkada olmuş, Azərbaycan folklorunu burada layiqincə nümayiş etdirmişdir. Məmməd müəllimin nailiyyətlərindən danışarkən onun təşəbbüsü ilə yaradılmış Füzuli rayon musiqi məktəbini xatırlamamaq olmaz. 1957-ci ildən həmin məktəbdə fəaliyyət göstərən Məmməd Cavadov 1961-ci ildə Ağdam rayon orta ixtisas musiqi məktəbinə işləməyə gedir. Uzun illər burada yaşayıb–yaradan bəstəkarın ağlına belə

gəlməzdi ki, ahıl çağında o, qaçqınlıq həyatı yaşamağa məcbur olacaqdır. Erməni təcavüzünə məruz qalmış Ağdam qaçqını kimi Məmməd Cavadov 1992–1998-ci illərdə Lənkəran şəhərində yaşayır. Ömrünün son illərini Bakı şəhəri yaxınlığında, Sulutəpə qəsəbəsində keçirən Prezident təqaüdcüsü Məmməd Cavadov 2002-ci ildə burada haqq dünyasına qovuşur.

Ölümündən sonra Məmməd Cavadovun müxtəlif janrlarda yazdığı xeyli sayda musiqi əsəri yadigar qalmışdır. Onlarla mahnı, xor və xalq çalğı alətləri orkestri üçün yazılmış musiqi əsərləri, dram tamaşalarına yazılmış musiqi, 2 tar və 2 kamança üçün kvartet, süita və sair əsərləri buna misal ola bilər. Azərbaycan Televiziya və Radio Verlişləri Şirkətində (Komitəsində) Xalq Çalğı Alətləri Orkestri tərəfindən lentə alınan əsərlərdən bəzilərinin adlarını sizlərə təqdim edirəm:

Mahnılar: “Getmə, Ceyran” söz: Ələddin İncəlinindir, “Küləklər” söz: M.Müşviqindir, “Aydın günlər” söz: M.Şəhriyarındır, “Nə tez unutdun məni” söz: Çingiz Əlioğlunundur, “Sənsizlik” söz: Ziyafətindir, “Naxçıvan” söz: Hüseyn Əzimindir; xalq çalğı alətləri üçün yazılmış: “Düşüncələr” pyesi, “Sülh” marşı, “Naxçıvan Qızlar Bulağı” süitası; dram əsərlərinə yazılmış musiqilər: Səttar Axundov “Nişan üzüyü”, Stefan Georgiyevski “Şeytan əməli”, Mirzağa Atəm “Qara libaslı adam”, “Baş tutmayan kələk”, Şəkər Aslan “Bu yerlər”, “Təkcə səni”, Mirpaşa Talışlı “Lənkəran”, “Rəsm müəllimi” və s.

Düşünürəm ki, Məmməd Cavadovun Naxçıvanla bağlı fəaliyyəti haqda qısa da olsa oxuculara məlumat verə bildim. Allah Ona rəhmət eləsin...

Bu illər ərzində Naxçıvan musiqi məktəbinə hərtərəfli köməklik göstərilir, hədiyyələr verilirdi. Belə hədiyyələrdən ən qiymətlisi, yadda qalanı Üzeyir bəy tərəfindən edilmişdir. 1937-ci ildə SSRİ Ali Sovetinin Millətlər Sovetinə Naxçıvan dairəsindən deputatlığa irəli sürülən Üzeyir Hacıbəyov seçicilərlə görüşmək üçün Naxçıvana gəlir və uşaq musiqi məktəbi

üçün çox qiymətli bir hədiyyə, "Berlin" markalı fortepiano gətirir. Gənc pianoçular üçün bundan qiymətli hədiyyə ola bilməzdi. Həmin fortepiano illər boyu Naxçıvan Uşaq Musiqi Məktəbində neçə-neçə gənc ifaçının sevimli pianosu olmuş, lakin təəssüf ki, nəsillər dəyişdikcə həmin musiqi aləti də xatirələrdən silinmiş və bu gün dahi bəstəkarın hədiyyə etdiyi musiqi alətinin harada olması barədə qəti fikir söyləmək çətindir.

Məktəbin ilk 10-12 ili çox çətin bir dövrü əhatə etsə də (repressiya illəri, İkinci Dünya müharibəsi, müharibədən sonra ölkə iqtisadiyyatının bərpası və s.) muxtar respublikanın ilk musiqi təhsil ocağında iş öz axarında gedir, gənc nəslin musiqi təhsili sahəsində tədricən irəliyə doğru uğurlu addımlar atılırdı. Belə uğurlardan ilk növbədə məktəb məzunlarının Bakıya, A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinə (Musiqi Kolleci) təhsil almağa getmələrini qeyd etmək lazımdır. İlk orta ixtisas təhsilli musiqiçilər kimi onlar Naxçıvan musiqi mədəniyyəti tarixində xüsusi hörmət və ehtirama layiq sənətkarlardır. Onların sırasında ilk növbədə Nəriman Məmmədovu (1947–1951), Məmməd Ələkbərovu (1947–1951), Ramiz Mirişlini (1950–1954), Rəşid Məmmədovu (1953–1957), həmin orta ixtisas musiqi məktəbində oxumuş, lakin təhsilini başa vurmamış Məmməd Məmmədovu və başqalarını qeyd etmək olar. Onlardan bəzilərinin 50-ci illərin əvvəllərində təhsilini başa vuraraq ilk ixtisaslı yerli kadrlar kimi doğma məktəbə qayıdıb müəllimlik etmələrini də musiqi təhsili sistemində irəliyə atılmış yeni addım kimi qiymətləndirmək olar.

Üzeyir bəyin Naxçıvana ikinci səfəri haqda yazanda Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsü Nəriman Məmmədovun xatirələrini qeyd etməmək olmur. Nəriman müəllim Naxçıvan Musiqi Məktəbini bitirdikdən sonra çox gənc olmasına baxmayaraq Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tarzən, unudulmaz sənətkar Kamil Abdullayevin vəfatından sonra isə

konsertmeystr vəzifəsində işləyir. Məhz bu dövrdə bəstəkarın həyatında o unudulmaz tarixi görüş baş verir. Həmin günü bəstəkar belə xatırlayır: "1946-cı ilin yanvar ayının sonu idi. Teatrın direktoru, sonralar Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülmüş İbrahim Həmzəyev məni yanına çağırdı. İçəri girəndə gördüm ki, aşıq Mənzər Məmmədova da direktorun otağındadır. Salamlaşdıq. İbrahim müəllim çox sevinclə bizə müraciət edərək dedi ki, hazırlaşın, gedirik Üzeyir bəylə görüşə... Birlikdə o dövrlər Naxçıvanda fəaliyyət göstərən mehmanxanaya (indiki Nizami küçəsi-41) gəldik. Növbətçi bizə otağı göstərdi. Qapını döydük. Qapını bir nəfər açdı... Bu şəxs sonralar uzun illər ərzində musiqi fondunun direktoru işləmiş Ramazan Qamzayeviç idi. O bizi içəri dəvət etdi, Üzeyir bəy divanda istirahət edirdi. İbrahim Həmzəyev məni və Mənzər xanımı Üzeyir Hacıbəyova təqdim etdi. Dahi sənətkarla mənim ilk və yeganə tanışlığım belə oldu ".



АЗƏРБАЈЧАН СОВЕТ СОСИАЛИСТ РЕСПУБЛИКАСЫ
БАШ СОВЕТИНИН ПРЕЗИДИУМУ

АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА
ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА

Бакы—Баку

25 Января 1946 н/г.
№ 02/27

УДОСТОВЕРЕНИЕ

Тов. ГАДЖИБЕКОВ УЗЕИР является кандидатом в депутаты Верховного Совета Союза ССР и едет в Нахичеванскую АССР для встречи со своими избирателями.-

СЕКРЕТАРЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР (К. Фараджева)

*Ü.Hacıbəyovun SSRİ AS MS-ə Naxçıvan dairəsindən deputatlığa namizədlik vəsiqəsi*

Zaman keçdikcə Naxçıvan musiqi məktəbində tədrisin keyfiyyəti yüksəlir, təhsil sistemi isə mükəmməlləşirdi. Yalnız məktəbə şagird qəbulu davamlı aparılsa da kontingent sayı artmırdı. Bu amil özünü xüsusilə buraxılış siniflərində qabarıq şəkildə göstərirdi. Bunu ilk növbədə musiqi alətlərinin baha və çox çətin əldə olunması ilə izah etmək olardı. Xüsusilə də fortepiano və skripka alətlərini nəzərdə tuturam. Yəqin ki, yaşlı nəsil 50-ci illəri yaxşı xatırlayır. Fortepiano aləti almaq istəyən şəxs min bir yoxlamadan və əzab-əziyyətdən keçməli olurdu. Skripka aləti isə dəbdə olmadığından demək olar ki, satışa gətirilmirdi. Bir vacib səbəb isə məktəbdə təhsil alan zabit ailələrinin övladları ilə bağlı idi. Hərbi qulluğu başa vuran və ya SSRİ-nin başqa bölgələrinə köçürülən hərbçi ailələrinin övladları istər-istəməz məktəbi tərk etməli olurdular. Bu isə məktəbdən lazımsız, gözlənilməyən şagird axınına və şagird kontingentinin azalmasına səbəb olurdu. Təkcə onu göstərmək kifayətdir ki, 1959–1960-cı tədris ilində Naxçıvan Musiqi Məktəbini iki ixtisas üzrə (skripka və kamança) 4 şagird bitirmişdi. 1959/1960–1969/1970-ci tədris illərində isə (10 il ərzində) məktəbi beş ixtisas üzrə (tar, kamança, fortepiano, skripka, klarnet) cəmi 189 şagird bitirmişdir. Müqayisə üçün qeyd etməliyəm ki, bu gün Naxçıvan Muxtar Respublikası üzrə hər il uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini 15 ixtisas üzrə mindən artıq, Naxçıvan şəhəri üzrə isə 350-yə yaxın şagird bitirir. 1959/60–1969/70-ci tədris illərində Naxçıvan Musiqi Məktəbini bitirən yerli şagirdlərdən müəyyən qismini oxuculara və tədqiqatçılara təqdim edirəm (digər şagirdlərin ad və soyadı müəyyənləşdirilmədiyindən və ya oxunmadığından siyahıya daxil edilməmişdir).

| Sıra №-si | Şagirdlərin adı və soyadı | İxtisas | Qeyd |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | *1959-1960 (4 nəfər).* *Direktor: Ənvər Hüseynov* | | |
| 1. | Əliyev Adıgözəl Məmmədhüseyn | Kamança | |
| 2. | Əliyev Kamal Rza | Kamança | |
| 3. | Səfərova Fəridə Abbas | Kamança | |
| | *1960-1961(10 nəfər)* | | |
| 1. | Orduxanova Anelya Abdulla | Fortepiano | |
| 2. | Novruzov Afət Məmmədcəfər | Tar | |
| 3. | Məmmədov Əkrəm Məmməd | Tar | |
| 4. | Sultanov Eduard Əli | Klarnet | |
| 5. | Rubinova Lyudmila Aleksandrovna | Skripka | |
| | *1961-1962 (10 nəfər).* *Direktor:RəsidMəmmədov* | | |
| 1. | Abbasova Şəhla Əziz | Fortepiano | |
| 2. | Bağırova Nərgiz Mehdi | Fortepiano | |
| 3. | Rəcəbli Səidə Qasım | Fortepiano | |
| 4. | Xəlifəzadə Validə Əli | Fortepiano | |
| 5. | Səfərova Fəridə Abbas | Kamança | |
| | *1962-1963 (9 nəfər)* | | |
| 1. | Abdullayeva Zöhrə Arif | Fortepiano | |
| 2. | İsmayılova Tamella Hacı | Fortepiano | |
| 3. | Məmmədov Vaqif Müslim | Tar | |
| 4. | Bayramov Fikrət Yusif | Tar | |
| 5. | Qasımov Fikrət Məmməd | Tar | |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | *1963-1964 (13 nəfər)* | | |
| 1. | Bağırova Adilə | Fortepiao | |
| 2. | Şeyxova Raisə | Fortepino | |
| 3. | İbrahimov Rəhim Əli | Tar | |
| 4. | Rzayev Firuz Həbib | Tar | |
| 5. | Tahirova Tamella Əbdüləli | Fortepiano | |
| 6. | Mahmudov Çingiz H.B. | Klarnet | |
| | *1964-1965 (16 nəfər)* | | |
| 1. | Əhmədov Kamal | Tar | |
| 2. | Kazımov Nazim Kazım | Tar | |
| 3. | Məmmədov Nizami Tahir | Klarnet | |
| 4. | Əsgərov Müsəvvər Əsgər | Fortepiano | |
| 5. | Ələkbərov Ələkbər Hüseyn | Tar | |
| 6. | İsmayılov Zəfər Səməd | Tar | |
| 7. | İbrahimov Arzu Kazım | Klarnet | |
| | *1965-1966 (28 nəfər)* | | |
| 1. | Quliyev Arif Cəmil | Tar | |
| 2. | Abbasov Rza Əsgər | Tar | |
| 3. | Məmmədov Kamil Məmməd | Kamança | |
| 4. | Şəfiyev Xaliq Şəmil | Tar | |
| | *1966-1967 (15 nəfər)* | | |
| 1. | Hüseynova Səkinə Nadir | Fortepiano | |
| 2. | Heydərov Vidadi Əkbər | Fortepiano | |
| 3. | Əliyeva Rəna Əli | Fortepiano | |
| 4. | Əliyeva Leyla Qadir | Fortepiano | |
| 5. | Məmmədov Cəmaləddin Müslim | Kamança | |
| | *1967-1968 (25 nəfər)* | | |
| 1. | Quliyev Nazim Paşa | Tar | |
| 2. | Kərimov Rafail Musa | Tar | |
| 3. | Məmmədov Məhərrəm Hüseyn | Tar | |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 4. | Teymurov Namiq Həmid | Tar | |
| 5. | Teymurov Natiq Həmid | Kamança | |
| 6. | Məmmədov İlyas Arif | Tar | |
| 7. | Qulamov Cahangir Rza | Fortepiano | |
| | *1968-1969 (25 nəfər)* | | |
| 1. | Abbasov Tariyel Abbasqulu | Tar | |
| 2. | Axundova Solmaz Məmməd | Fortepiano | |
| 3. | Heydərov Sahib Aydın | Tar | |
| | *1969-1970 (25 nəfər)* | | |
| 1. | Axundov Ramazan Əsgər | Tar | |
| 2. | Axundov Elçin Kəndli | Tar | |
| 3. | Tağıyev Tağı Fərman | Kamança | |
| 4. | Sadiqova Tünzalə Cabir | Fortepiano | |
| 5. | Əliyev Yadigar Nuca | Tar | |
| 6. | Əliyev Salman Tapdıq | Tar | |
| 7. | Musayev Vaqif Əsəd | Tar | |
| 8. | Rəhimov Baxşəli Firudin | Tar | |

Ümumi siyahıdan o da aydın olur ki, musiqi məktəbində təhsil alan yerli şagirdlərin sayı lazımi səviyyədə olmamışdır. Naxçıvan Musiqi Məktəbində şagird kontingentini nizamlamaq və artırmaq üçün bir sıra tədbirlər işlənib həyata keçirilməli idi. Belə tədbirlərdən biri, bəlkə də ən zərurisi məktəbə şagird qəbulu zamanı yerli, azərbaycanlı balalarına üstünlük verilməsi, qəbul zamanı müsabiqədən keçməyən istedadlı şagirdlərin öz istəkləri ilə ixtisaslar üzrə vakant qalan yerlərə yönəldilməsi, ildən-ilə məktəbə şagird qəbul planının artırılması və bölgələrdə yeni musiqi məktəblərinin açılması ola bilərdi. Bu kimi tədbirlər şagird kontingentinin komplektləşdirilməsinə və məktəbdən şagird axınının qarşısının alınmasına lazımi köməklik göstərə bilərdi.

Araşdırmalar göstərir ki, 1959–1960-cı tədris ilindən, yəni Ənvər Hüseynovun direktorluğu dövründən Naxçıvan musiqi məktəbinə şagird qəbulu planı tədricən artırılmağa başlanmışdır. Bunu yuxarıdakı cədvəldən də aydın görmək olur. Əgər 1959–1960-cı tədris ilində məktəbi dörd şagird bitirmişdirsə, 1969–1970-ci tədris ilində onların sayı 34 nəfər olmuşdur. Bu dövr istər müəllim potensialı, istərsə də şagird sarıdan musiqi məktəbindəki artım açıq-aydın özünü hiss etdirirdi. Məktəbdə fəaliyyət göstərən Məmməd Ələkbərov (kamança), Yusif Əliyev (tar), Vahid Axundov (tar), Ənvər Huseynov (kamança), Məmməd Məmmədov (truba, xor), Rəşid Məmmədov (tar) kimi müəllimlərlə yanaşı 1960-cı illərin əvvəllərində Naxçıvan musiqi məktəbinə dərs demək üçün Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirmiş bir qrup naxçıvanlı gənc də cəlb olunur. Onlardan Tapdıq Bağırov (kamança), Səyavuş Əlizadə (klarnet), Sahib Axundov (tar), Kamal Əliyev (kamança), Azər Abbasov (tar) bir müddət sonra isə Səidə Məmmədova (fortepiano, xor), Əkrəm Məmmədov (tar), Lyudmila Rubinova (Parxominko-skripka) kimi uzun illər musiqi məktəbində səmərəli fəaliyyət göstərmiş yerli müəllimləri göstərmək olar. Eyni zamanda, A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirib Bakı şəhərində qalmış və orada Naxçıvan musiqi məktəbinin layiqli təmsilçiləri kimi Azərbaycanda şöhrət tapmış musiqiçilərimizdən Yaşar Səfərovu (vokal), Elbrus Mehdiyevi (vokal), Adıgözəl Əliyevi (kamança), Abdulla Abdullayevi (kamança), Afət Novruzovu (tar) xatırlamamaq olmaz.

1962-cı ildən Naxçıvan Musiqi Məktəbinin fəaliyyətində yeni inkişaf mərhələsi başlanır. Bu, əsasən, məktəbdə çalışan ixtisaslı gənc müəllimlərin və 1961/62-ci tədris ilindən məktəbə rəhbərlik edən gözəl tarzən, pedaqoq, ictimai fəallığı ilə digərlərindən seçilən Rəşid Məmmədovun düzgün rəhbərliyi sayəsində əldə edilmişdir. Bu baxımdan Rəşid Məmmədovun təhsillə bağlı fəaliyyəti ayrıca təhlil olunmalıdır.

## Rəşid Rza oğlu Məmmədov
## (1936–2006)

Naxçıvan şəhərinin qədim məhəllələrindən birində, Sarvanlılar məhəlləsində 2 fevral 1936-cı il tarixdə Rza kişinin ailəsində dünyaya bir oğlan uşağı göz açır. Sayca üçüncü övlad olan Rəşid bütün körpələr kimi ailədə böyük sevincə səbəb oldu. Körpənin şərəfinə qurban kəsildi, süfrələr açıldı... Qısa zaman kəsiyində ailənin dördüncü və beşinci övladları da dünyaya gəldilər. Beləliklə, Rza kişinin ailəsi dörd oğlan və bir qız uşağı ilə bütövləşdi.

Ağır müharibə illərinə baxmayaraq hamı kimi Rza kişi də ailəsini yarı ac, yarı tox dolandırırdı. Ən başlıcası isə ailədə olan mehribanlıq və səmimiyyət bütün çətinliklərin öhdəsindən gəlməyə köməklik göstərirdi. Amma atalar demişkən, sən saydığını say, gör fələk nə sayır. 1944-cü ilin yazı balaca Rəşidin ailəsində qarlı-boranlı rüzgarlar əsirdi, o rüzgarlar ki, qış şaxtasıtək səkkiz yaşlı Rəşidin bədəninə hopdu və haqq dünyasına qovuşanadək sümüklərini sızlatdı...

Nahaq yerə deməyiblər ki, dərd-bəla batmanla gələr, misqalla çıxar. Həmin yaz balaca Rəşid iyirmi gün içərisində əvvəlcə atasını, sonra anası Zərri xanımı itirdi. Beş uşaq: Əhməd, Həsən, Rəşid, Əli, Zeynəb yapyalnız qalırlar. Böyüyü Əhməd on beş yaşında, balacası Zeynəb isə bir neçə aylıq idi. Zeynəb südəmər olduğundan onu körpələr evinə yerləşdirirlər. Oğlanları isə bibiləri Məşədi Bəni və Fatma xanım öz himayəsinə götürürlər. Ailə son dəhşətli zərbəni körpə Zeynəbin yoxa çıxması ilə aldı. Körpələr evinin Naxçıvandan Ordubada, oradan isə Bakıya köçürülməsi qızcığazın itməsinə səbəb olmuşdu. Ailəni cənginə almış dəhşətli hadisələr bununla sanki sakitləşib dağılmağa başladı. Ailə üzvləri isə son nəfəslərinə qədər Zey-

nəbin yolunu gözlədilər. Bu gün də qardaşların balacası Əli bacısı Zeynəbin yolunu gözləyir...

Çətin günün ömrü az olar, deyiblər. Doğrudan da günlər ötdü, qardaşlar böyüdü, iş-güc, oğul-uşaq sahibi oldular. Hərə öz sevimli işi ilə ailəsini dolandırmağa çalışdı. Rəşid də ikinci həyatı hesab etdiyi musiqiyə könül verib son nəfəsinədək bu sahədə işlədi, yazıb-yaratdı. Musiqi elminə yiyələnmək üçün Rəşid Məmmədov 1953-cü ildə Naxçıvan şəhər Musiqi Məktəbini, 1957-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1967-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (Musiqi Akademiyası) bitirdi. Bu dövrdə Rəşid bir sıra görkəmli bəstəkar, musiqiçi, tanınmış pedaqoqlardan dərs almış və addım-addım istədiyinə nail olmuşdur. Onlardan Yusif Əliyev, Vahid Axundov, Məmməd Cavadov, Əhməd Bakıxanov, Ağabacı Rzayeva və başqalarını misal göstərmək olar.

Mövzudan uzaqlaşmamaq məqsədi ilə Rəşid Məmmədovun həyat və yaradıcılığı haqqında oxuculara ətraflı məlumat verməyi lazım bilmirəm. Fikrimcə, Rəşid Məmmədovun həyat və yaradıcılığı haqqında yazılan qəzet, jurnal məqalələri və Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Quliyevin "Saçlar ağarmasın neyləsin?" (Bakı 1998), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Cəlil Vəzirovun "İllərin nəğmə yaddaşı" (Naxçıvan 2001) monoqrafiyalarında ətraflı və ürək yanğısı ilə məlumat verilmişdir. Mən isə mövzu daxilində Rəşid Məmmədovun Naxçıvanda musiqi təhsili sistemində apardığı maraqlı, yaddaqalan quruculuq fəaliyyəti haqqında oxuculara bir qədər ətraflı məlumat verməyi özümə borc bilirəm.



*Rəşid Məmmədov ixtisas müəllimi, görkəmli pedaqoq Azərbaycan Respublikasının Xalq artisti Əhməd Bakıxanovla dərs zamanı*

Rəşid Rza oğlu Məmmədov Naxçıvan Musiqi Məktəbinə rəhbərlik etməyə başladığı gündən qarşısına əsasən yerli müəllim kollektivinin gücündən səmərəli istifadə edərək məktəbi gənc musiqiçilərin yetişib boya-başa çatdığı tədris ocağına çevirmək kimi nəcib bir vəzifə qoyur. Bu məqsədlə o, uzun müddət burada çalışan müəllimlərdən Yusif Əliyev, Vahid Axundov, Məmməd Ələkbərov, Məmməd Məmmədov, Ənvər Hüseynov və yeni pedaqoji nəslin nümayəndələri Səyavuş Əlizadə, Tapdıq Bağırov, Sahib Axundov, Azər Abasov, Kamal Əliyevlə birlikdə görüləcək işlər və qarşıda duran vəzifələri müəyyənləşdirir. Ciddi əmək intizamının tərəfdarı olan R.Məmmədov digər müəllimlərə də nümunə olmağa çalışırdı. Bu baxımdan o hər bir müəllimin əməyinin nəticəsi olaraq dərs dediyi yox, ixtisasçı kimi yetirdiyi şagirdlərin sayını ön plana çəkmişdir. Əgər əvvəllər bu tələb sözdə ifadə olunurdusa, indi bu xətt sözün əsl mənasında, bir "ölçü" meyarına çevrilmişdi. Qısa müddət ərzində məktəbdə, xüsusilə də xalq çalğı alətləri

şöbəsində bir-birinin ardınca istedadlı solo ifaçılığına meyil göstərən şagirdlərin sayı durmadan artmağa başladı. Bu o şagirdlər idi ki, bir müddət sonra məktəbi bitirib uğurla Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə (Musiqi Kolleci) qəbul olundular. Onların sırasında Ələkbər Ələkbərov, Arif Quliyev, Rza Abbasov, Kamil Məmmədov, Vaqif Məmmədov, Nazim Kazımov, Nazim Quliyev, Rafail Kərimov, Məhərrəm Məmmədov, Vidadi Heydərov, Solmaz Axundova, Tünzalə Sadiqova, Əqidə Ələkbərova, Həsənağa Qurbanov və başqalarını misal göstərmək olar. Bu yaşdan olan digər gözəl ifaçılar Namiq Teymurov, Tağı Tağıyev, Ramazan Axundov, Natiq Teymurov, Tariyel Abbasov isə bir müddət sonra Azərbaycanın digər orta ixtisas musiqi məktəblərinə, o cümlədən Soltan Hacıbəyov adına Sumqayıt, Üzeyir Hacıbəyov adına Naxçıvan orta ixtisas musiqi məktəblərinə daxil oldular. Gözəl ifaçılıq qabiliyyətinə malik olan bir sıra şagirdlər isə müxtəlif institutlara daxil olduqlarından musiqi təhsillərini davam etdirə bilmədilər. Onlardan ilk növbədə Xaliq Şəfıyev, Zəfər İsmayılov, Firuz Rzayev və başqalarının adlarını göstərmək olar. Adları sadalanan tar sinfi şagirlərinin əksəriyyəti Rəşid müəllimin yetirmələri olmuş və öz müəllimləri ilə haqli olaraq fəxr edirlər. Təsadüfi deyildi ki, Naxçıvanda musiqiçilər arasında belə bir deyimə tez-tez rast gəlinir: “Naxşıvanda əlində tar tutan hər kəs ya Rəşid müəllimin şagirdi, ya da şagirdinin şagirdidir”.

Rəşid müəllim şagirdlərin texniki imkanlarını artırmaq məqsədi ilə Naxçıvanda ilk dəfə olaraq Səid Rüstəmovun “Tar məktəbi” dərsliyində verilən etüd və qammaları yuxarı sinif şagirdlərinə kütləvi şəkildə beş-altı, bəzən isə yeddi-səkkiz ştrixlə çaldırmağa başlamışdır. Bununla yanaşı o “Melodik etüdlər” məcmuəsindən ayrı-ayrı nömrələri tədris proqramlarına daxil etmiş və istedadlı şagirdlərə öyrətməyə başlamışdır. Rəşid müəllim o dövrədək məktəbdə ifa olunmayan bir sıra Qərb və

rus bəstəkarlarının əsərlərinin Azərbaycan milli musiqi alətləri tar və kamançada ifa edilməsinə nail oldu. Xüsusilə də C.Bizenin "Karmen" operasından "Vals", "Antrakt", Qlinkanın "İvan Susanin" operasından "Vals", Şubertin "Serenada"sı, Azərbaycan bəstəkarlarından Üzeyir Hacıbəyov, Səid Rüstəmov, Hacı Xanməmmədov, Adil Gəray, Tofiq Quliyev və başqalarının o dövrədək ifa olunmayan müxtəlif əsərlərini tədris proqramına daxil etməklə şagirdlər üçün rəngarəng bir repertuar çələngi hazırlamışdı. Əslində ifa olunan bu əsərlər uşaq musiqi məktəbinin deyil, orta ixtisas musiqi məktəbinin tədris proqramına belə cavab verirdi. Bu isə o deməkdi ki, şagirdlər artıq orta ixtisas musiqi məktəbinə qəbul imtahanı vermək səviyyəsinə yüksəlmişdilər.

Rəşid müəllim şagirdlərlə nə qədər sərt davransa da, onları bir o qədər də çox istəyirdi. Bir sözlə, o, şagirdləri öz ətrafına cəlb edə bilmişdi. İş o yerə çatmışdı ki, şagirdlər dərsdən sonra saatlarla məktəbdə qalıb özləri müstəqil məşq edirdilər. Bunun üçün Rəşid müəllimin məktəbin gözətçisinə, təsərrüfat müdirinə xüsusi tapşırığı da olmuşdu. Həmyaşıdlarımızdan Ələkbər Ələkbərov, Arif Quliyev, Rza Abbasov, Nazim Quliyev, Rafail Kərimov, Namiq və Natiq Teymurovlar, Ramazan Axundov və onlarla başqalarını buna misal göstərmək olar. Rəşid Məmmədov qabiliyyətli yuxarı sinif şagirdlərinə dərs demək metodikasını da öyrədirdi. Belə ki, yuxarı sinif şagirdləri aşağı sinif şagirdlərinə əməllibaşlı dərs keçirdilər. Bütün bunların nəticələri sonralar çox gözəl bəhrə verdi...

Şagirdləri səhnəyə alışdırmaq üçün Rəşid müəllim onların tez-tez konsertlərini təşkil edirdi. Bu işdə məktəb zalının çox böyük köməyi var idi. Qeyd etməliyəm ki, məktəbdə zalın olması tədrisin düzgün istiqamətdə aparılması ilə yanaşı küt-

ləvi tədbirlərin keçirilməsini də çox gözəl təmin edirdi. Bununla yanaşı, 1963-cü ildən fəaliyyətə başlayan Naxçıvan Dövlət Televiziya və Radio Verlişləri Komitəsində məktəbin şagirdlərinin çıxışları da müntəzəm təşkil olunurdu. Naxçıvan şəhər musiqi məktəbinin şagird kollektivlərinin və solo ifaçılarının ifaçılıq qabiliyyətləri haqqında ilk dəfə olaraq məhz bu dövrdə müsbət fikirlər söylənməyə başlandı. Xüsusilə də şəhər musiqi məktəbinin uşaq xalq çalğı alətləri orkestri haqqında.

Təxminən 1962-ci ildə Naxçıvan Musiqi Məktəbində Azərbaycanın çox gözəl bəstəkarlarından biri, yaradıcılığı ilə Üzeyir Hacıbəyov sənətinin davamçısı hesab edilən Xəlil Cəfərov müəllimlik fəaliyyətinə başladı. Qısa müddət ərzində Naxçıvanda yaşayıb yaratmağına baxmayaraq Xəlil müəllim özəl dəsti-xətti ilə musiqiçilərin könlündə tac qurdu. Xəlil Cəfərov ixtisas fənni (tar) ilə yanaşı məktəbdə xalq çalğı alətləri orkestri yaratdı. Şagirdlər sanki özlərini göstərmək üçün fürsət axtarırmışlar. Onlar boş vaxtlarını demək olar ki, məktəbin zalında keçirir, orkestrdə ifa olunan əsərləri yorulmadan məşq edirdilər. Xəlil Cəfərov seçdiyi əsərləri böyük dəqiqliklə əzbər bildiyindən partitura və ayrı-ayrı partiyaların not yazısına ehtiyac duymurdu. Hamıya çox dəqiqliklə hansı səsdən başlayacağını, hansı mizrabla vuracağını, kamançaların kamanlarının hansı istiqamətdə çəkiləcəyini, hətta pauzaların hansı ölçüdə olduğunu belə əzbər deyərdi, öyrədərdi. Xəlil Cəfərov ixtisas fənnindən (tar) də bacarıqla dərs aparırdı. Təəssüflər olsun ki, Xəlil müəllim Naxçıvanı tez tərk etdi.



*Xəlil Cəfərov*

Xəlil müəllim Bakıya döndükdən sonra onun ixtisas üzrə dərs dediyi şagirdlər tez bir müddətdə məktəb müəllimləri arasında paylaşdırıldı. Yeganə orkestr üzrə dərs saatlarının kimə veriləcəyi sual doğururdu. Rəşid müəllim çox düşünmədən orkestr dərsininin aparılmasını öz üzərinə götürdü. Əvvəlki dərslərdən fərqli olaraq orkestr məşqlərində ciddi nizam-intizam yaradıldı. Qısa müddət ərzində keçiriləcək əsərləri Rəşid müəllim orkestrə təqdim etdi və şagirdlərin hamısından öz partiyalarını köçürməyi tələb etdi. Şagirdlər çox böyük həvəslə bu işə başladılar. Orkestr dərsi  üçün hərə bir not dəftəri alıb klavirdən öz partiyalarını köçürməyə başladılar.



*R.Məmmədov məşq zamanı*

Bu, şagirdlər üçün bir sınaq dövrü oldu. Şagirdlər klavirin nə olduğunu görür, orada öz partiyalarının yerləşdiyi sətirləri çox həvəslə axtarırdılar. Not yazmaq təcrübəsini də, mən deyərdim ki, bizim nəsil bu orkestr dərslərində dərindən öyrəndi. Orkestr sinfinə (zala) pultlar alındı və beləliklə, orkestr əsl adlı-sanlı orkestrlərdən heç də geri qalmayan bir görünüş aldı. İndi əsas məsələ orkestri çalışdırmaq, repertuarı orkestrə öyrətməkdən ibarət idi. Rəşid müəllim burada da bir yenilik etdi. O, orkestri gücləndirmək və çatışmayan musiqi alətlərinin yerini doldurmaq məqsədi ilə nisbətən yaşlı nəsil musiqiçilərindən bir neçəsini orkestrə dəvət etdi. Onlardan məktəbin müəllimi kamançaçalan Kamal Əliyevi, akkordeonçalan Nizami Məmmədovu, balabançalan Salman Əliyevi, oxuyan Fikrət Qasımovu göstərmək olar. Qısa müddət ərzində orkestrin tərkibi

komplektləşdirildi, repertuar hazır oldu. İki aydan sonra isə orkestrin konsert proqramı hazırlandı. Hamı səbirsizliklə orkestrin ilk konsertinin harada keçiriləcəyini gözləyirdi. Doğrudan da orkestrin repertuarı uşaq musiqi məktəbi proqramından fərqli olaraq çox zəngin və çətin idi. Konsert Üzeyir Hacıbəyovun "Koroğlu" operasından "Uvertüra" ilə başlanırdı. Sonra proqramda Xəlil Cəfərovun "Lirik rəqs", Rəşid Əfəndiyevin "Qaytağı", Nəriman Məmmədovun "Üzmə məni yar", Şubertin "Serenada"sı və s. əsərlər səsləndirildi. Orkestrin ilk baxış konserti məktəbdə keçirildi. Baxışda Naxçıvan MSSR mədəniyyət naziri İsa Məmmədov iştirak etdi və orkestrin ifasını yüksək qiymətləndirərək bizə uğurlar arzuladı.

1964-cü ilin yaz tətili günlərində Bakı şəhərində Azərbaycan uşaq musiqi məktəblərinin müsabiqəsi keçirilirdi. Bu müsabiqədə rayonlardan yalnız Naxçıvan musiqi məktəbi orkestrlə təmsil olunurdu. Orkestrin ifa tərzi, repertuarı Əhməd Bakıxanov başda olmaqla münsiflər heyəti tərəfindən çox yüksək qiymətləndirildi. Orkestrin bədii rəhbəri və dirijoru Rəşid Məmmədov isə münsiflər heyətinin təqdimatı ilə Azərbaycan Mədəniyyət Nazirliyinin fəxri fərmanına layiq görüldü. Bu uğur kollektivimizin şöhrətinin bütün Azərbaycanda artmasına səbəb oldu. Müsabiqə iştirakçıları, münsiflər heyəti ancaq Naxçıvan musiqi məktəbinin orkestrinin uğrundan danışırdılar.

Naxçıvana qayıtdıqdan sonra Naxçıvan MSSR mədəniyyət naziri orkestr üzvləri ilə görüşərək onlara öz təşəkkürünü bildirdi. Kollektivimizə rayonlarda çıxış etmək üçün avtobus təhkim edildi və biz Naxçıvan MSSR-in rayonlarında geniş konsert proqramı ilə çıxış etdik. Naxçıvan televiziyası və radiosu ilə dəfələrlə konsertimiz səsləndi. Əfsuslar olsun ki, o lent yazıları qorunub saxlanılmayıb.



*Rəşid Məmmədov xalq çalğı alətləri orkestrinin şagirdləri ilə*

Rəşid Məmmədov Naxçıvan musiqi təhsili sistemində apardığı quruculuq fəaliyyəti ilə də yadda qalmışdır. 1964-cü ildən başlayaraq Rəşid müəllim rayon mərkəzlərində musiqi məktəblərinin açılması məsələsini gündəmə gətirir. O, musiqi məktəblərinin yaradılması məqsədi ilə rayon mərkəzlərində ilk növbədə Naxçıvan Musiqi Məktəbinin filialını yaradır, sonra isə həmin məktəbin müstəqil məktəbə çevrilməsinə nail olurdu. Beləliklə, 1965-ci ildə Ordubad rayon Musiqi Məktəbi, 1967-ci ildə Culfa rayon Musiqi Məktəbi, 1968-ci ildə Bəhruz Kəngərli adına Şərur rayon Uşaq İncəsənət Məktəbi, 1969-cu ildə Şahbuz rayon Uşaq Musiqi məktəbi yaradıldı. Bu məktəblərin hər birinin yaradılmasında Rəşid Məmmədovun çox böyük zəhməti olmuşdur.

Məktəblərin yaradılması üçün ilk növbədə çoxlu müəllim kadrlarına ehtiyac var idi. Təyinatla Naxçıvana göndərilən

gənc müəllimlər tələbatı tam ödəmirdilər. Belə bir vaxtda köməyə Naxçıvan musiqi məktəbini əla qiyymətlərlə bitirmiş, yüksək ifaçılıq qabiliyyətinə malik məzunlar yetişdilər. O şagirdlər ki, Rəşid müəllim başda olmaqla məktəbin müəllim heyəti ilə birlikdə Naxçıvan musiqi mədəniyyətinin inkişafı yolunda ilk uğurlu addımlarını atırdılar. Musiqi və orta məktəbi yenicə bitirmiş şagirdlərdən Nazim Quliyev (tar), Rafail Kərimov (tar), Namiq Teymurov (tar), Natiq Teymurov (kamança), Ramazan Axundov (tar), Mübariz Axundov (kamança), Tamella İsmayılova, Tahirə İsmayılova, Zöhrə Abdullayeva, Həbib Axundov (fortepiano), Nizami Məmmədov (klarnet), Ədalət Qasımov (kamança), Cəmaləddin Məmmədov (kamança), Yadigar Əliyev (fortepiano) və onlarla başqaları gənc olmasına, heç bir müəllimlik təcrübəsinə malik olmamalarına baxmayaraq, yeni açılan musiqi məktəblərində və müxtəlif musiqi kurslarında uğurlu müəllimlik fəaliyəti göstərdilər. Onu da nəzərinizə çatdırmalıyam ki, onlardan bir çoxu həyatlarını bu gözəl peşəyə həsr etmişlər. Sevindirici haldır ki, bu gənc müəllimlərin əksəriyyəti illər keçdikcə hərəsi bir məktəb, mədəniyyət müəssisəsinin rəhbəri olmuş və bu günədək əmək fəaliyyətlərini davam etdirməkdədirlər. Burada həmişə vurğuladığım bir ifadəni xatırlamaq istəyirəm: "Naxçıvan musiqi mədəniyyəti bizim müəllimlər və yazıda adları göstərilən, sevə-sevə çəkilən şəxslərin bilavasitə gərgin əməyi və səyi nəticəsində inkişaf etmiş, şaxələnmiş və nəinki muxtar respublikada, Azərbaycan miqyasında da özünə layiqli yer tutmuşdur" .

Gərgin əmək fəaliyyətinə baxmayaraq Rəşid müəllim bir an da olsun yaradıcılıq axtarışlarına ara vermirdi. Müəllimləri Əhməd Bakıxanov, Ağabacı Rzayeva, Rəşid Əfəndiyev, Kamil Əhmədov və başqaları onun bir yaradıcı insan kimi formalaşmasında böyük rol oynamışlar. Müəllimlərindən aldığı bu enerji ömrünün son günlərinədək Rəşid Məmmədovu yaradıcılıq işini davam etdirməyə sövq etmişdir. Təsadüfi deyil ki, bu

gün onun zəngin yaradıcılıq irsi xatirələrdə yaşayır. Bu silsilədən Rəşid Məmmədovun ulu öndər Həydər Əliyevə, əmək qəhrəmanlarına həsr etdiyi iyirmi beşdən artıq mahnı, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 19 tamaşaya yazılmış musiqi, iki tar və fortepiano üçün pyes, xor və xalq calğı alətləri üçün mahnı, xalq çalğı alətləri ansamblı üçün "Süita" və s. əsərlərini göstərmək olar.

Rəşid Məmmədovun əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1967-ci və 1974-cü illərdə Naxçıvan MSSR Ali Sovetinin Fəxri Fərmanına, 1973-cü ildə Naxçıvan MSSR Əməkdar Mədəniyyət İşçisi fəxri adına, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adına, 2006-cı ildə isə Prezident mükafatına layiq görülmüşdür. Təəssüflə qeyd etməliyəm ki, ürəyində cərrahiyyə əməliyyatı keçirmiş Rəşid Məmmədov həmin il haqq dünyasına qovuşdu.

1976–1989-cu illərdə Naxçıvan Misiqi Məktəbinə məktəbin digər yetirməsi Tapdıq Bağırov başçılıq edir. Bu ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəminə təsadüf edirdi və hər yerdə olduğu kimi Naxçıvan musiqi məktəbində də yaradıcılıq işləri geniş vüsət almışdı. Ali ixtisas təhsilli Tapdıq Bağırov məktəbdə dövrün tələbinə uyğun olaraq Avropa musiqi alətləri tədrisində və həmin şöbələrdə şagird kontingentinin artırılmasında əsaslı dönüş yaratmışdı. Zamanın tələbinə uyğun olaraq fortepiano və skripka siniflərində şagirdlərin sayı xeyli artırılmışdı. Bu da qısa müddət ərzində musiqi məktəblərini bu ixtisaslar üzrə yerli müəllim kadrları ilə təmin etmək imkanı yaratdı. Onların sırasında məktəbin yetirmələrindən Əliağa Seyidov, Ruhəngiz Əzimova, Təranə Hüseynova, Nərminə Qədimova, Rəsmiyyə Əsədova, Xalubər Namazova, Həvva Hüseynova, Məhin Orucova və başqalarını qeyd etmək olar.

Gözəl pedaqoq Tapdıq Bağırov məktəbdə tədrisin keyfiyyətini yüksəltmək üçün xeyli səy göstərirdi. Şagirdlərdə dər-

sə davamiyyət yüksəlmişdi. Məktəbin şagird və müəllim kollektivləri Naxçıvan Muxtar Respublikasında keçirilən mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edirdilər. Tapdıq Bağırov və məktəbin tədris işləri üzrə direktor müavini Məmməd Ələkbərovun tapşırığı ilə müəllimlər təhsil ocaqlarında şagird və tələbə bədii özfəaliyyət kollektivlərinin təşkil olunmasına köməklik göstərirdilər. Fortepiano və skripka şagirdlərinin fərdi ifaçılıq qabiliyyətlərinin artırılmasına diqqət xeyli artırılmışdı. Təsadüfi deyildir ki, bu zaman musiqi və incəsənət məktəbləri üzrə Azərbaycan Mədəniyyət Nazirliyinin keçirdiyi müsabiqələrdə ilk dəfə olaraq Naxçıvan şəhər musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinin şagirdləri ilə yanaşı, fortepiano şöbəsi və skripka sinfi şagirdləri uğurla çıxış edirdilər. Naxçıvanlı şagirdlər daima mükafata layiq yerlər tutaraq Naxçıvan musiqi təhsili sistemində böyük irəliləyiş olduğunu göstərirdilər.

Naxçıvan Muxtar Respublikasında keçirilən mahnı və məhsul bayramlarında məktəbin aparıcı müəllimləri tədbirlərin uğurlu keçməsi üçün əllərindən gələni əsirgəmirdilər. Bu işdə məktəbin xor müəllimləri Məmməd Məmmədov, Rafail Kərimov, xalq çalğı alətləri şöbəsinin müəllimi Azər Abasov, Namiq Teymurov, nəfəs alətləri şöbəsinin müəllimləri Nizami Məmmədov, Məmməd Əsgərovun əməyini xüsusilə qeyd etmək lazımdır.

Məktəbdə xor, orkestr dərsləri yüksək səviyyədə keçirilirdi. Qeyd edək ki, Azər Abasovun hazırladığı xalq çalğı alətləri orkestrinin müşayiəti ilə Rafail Kərimovun rəhbərlik etdiyi xor kollektivi Musa Mirzəyevin "Salam kommunizm" və başqa əsərləri ilə dövlət konsertlərində böyük uğurla çıxış edirdilər. Bunu uşaq musiqi məktəbi şagirdlərinin yaradıcılıq sahəsində qazana biləcəyi uğurların böyük göstəricisi kimi qiymətləndirmək olar. İllər ötdükcə məktəbdə müəllimlər, direktorlar bir-birini əvəz edirdi. Qeyd etməliyəm ki, 1989-cu ildən 2002-ci ildə daxil olmaqla Məmməd Məmmədov adına Naxçıvan şə-

hər 1 saylı Uşaq Musiqi Məktəbinə başçılıq etmək bu sətirlərin müəllifinə də nəsib olmuşdur. Yəqin ki, illər ötəcək, gələcək nəsil Naxçıvan Musiqi Məktəbinin yaranma tarixinə nəzər saldıqda, 1990-cı ildən başlayaraq ağır blokada şəraitində, azğınlaşmış ermənilərin hücumlarını dəf edə-edə, işıq, istilik olmayan bir şəraitdə Naxçıvan Musiqi Məktəbinin fəaliyyəti haqqında da oxuculara ətraflı məlumat veriləcəkdir.

# SON SÖZ

Bu gün Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbi özünün firavan günlərini yaşayır. Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada onlarla mədəniyyət müəssisəsi yenidən tikilmiş və ya əsaslı surətdə təmir edilərək istifadəyə verilmişdir. Sədərək rayonunun ulu öndərin adını daşıyan Heydərabad qəsəbəsindən tutmuş Ordubadın Kotam kəndinədək yeni-yeni mədəniyyət müəssisələrinin və kənd mərkəzlərinin inşası, onların yeni, müasir tipli avadanlıqlarla təchiz olunması insanın ruhunu oxşayır. Məhz belə binalardan birində bu gün Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbi fəaliyyət göstərir.

Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin 1937-ci ildən 1989-cu ilədək olan fəaliyyət dövrünü əldə olan sənədlər əsasında araşdırıb oxuculara təqdim etməklə, məktəbin fəaliyyətinə, bir sıra örtülü məqamlarına aydınlıq gətirərək oxucularımızın müzakirəsinə çıxardım. Bundan sonrakı dövr indiki nəslə daha yaxın, daha əl çatan bir mərhələni əhatə etdiyindən bu haqda ətraflı məlumat verməyi gələcək tədqiqatçıların öhdəsinə buraxıram. Belə ki, orta nəsil nümayəndələri, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin əhatə etdiyi 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində dərs deyən müəllimlərin əksəriyyəti bu dövr Naxçıvan musiqi mədəniyyəti tarixinin inkişafı haqqında daha geniş məlumata malikdirlər. Ümid edirəm ki, qocaman musiqi təhsil ocağının fəaliyyəti bundan sonra da yüksələn xətlə davam edəcək və buranın məzunları sırasından həmişə olduğu kimi Azərbaycanın neçə-neçə görkəmli musiqiçisi yetişəcəkdir.

Sonda Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbi başda olmaqla bu gün muxtar respublikada fəaliyyət göstərən 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin siyahısını təqdim edirəm.

| S. №-si | Məktəbin adı | Yaranma tarixi |
|---|---|---|
| 1 | Naxçıvan şəhər M.Məmmədov adına 1№-li UMM | 1937 |
| 2 | Naxçıvan şəhər 2№-li UMM | 1987 |
| 3 | Naxçıvan şəhər S.Rəcəbov adına 3№-li UMM | 1976 |
| 4 | Naxçıvan şəhər 4№-li UMM | 1991 |
| 5 | Naxçıvan şəhər Uşaq İncəsənət Məktəbi | 1980 |
| 6 | Naxçıvan şəhər Ərtogrul Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi | 1990 |
| 7 | Naxçıvan şəhəri Qaraçuq kənq UMM | 1983 |
| 8 | Babək rayon UMM | 1976 |
| 9 | Babək rayonu Nehrəm kənd UMM | 1981 |
| 10 | Babək rayonu Zeynəddin kənd UMM | 2009 |
| 11 | Babək rayonu Cəhri kənd UMM | 1982 |
| 12 | Babək rayonu Şıxmahmud kənd UMM | 1991 |
| 13 | Şərur rayon Uşaq İncəsənət məktəbi | 1968 |
| 14 | Şərur rayonu Çərçiboğan kənd UMM | 1983 |
| 15 | Şərur rayonu Şəhriyar kənd UMM | 1988 |
| 16 | Şərur rayonu Yuxarı Daşarx kənd UMM | 1982 |
| 17 | Şərur rayonu Aralıq kənd UMM | 1999 |
| 18 | Şərur rayonu Ələkli kənd UMM | 1991 |
| 19 | Ordubad rayon UMM | 1965 |
| 20 | Ordubad rayonu Vənənd kənd UMM | 1976 |
| 21 | Culfa rayon UMM | 1967 |
| 22 | Culfa rayonu Bənəniyar kənd UMM | 1982 |
| 23 | Şahbuz rayon UMM | 1969 |
| 24 | Şahbuz rayonu Kolanı kənd UMM | 1989 |
| 25 | Kəngərli rayonu Qıvraq qəsəbə UMM | 1981 |
| 26 | Kəngərli rayonu Çalxanqala kənd UMM | 1993 |
| 27 | Sədərək rayon UMM | 1987 |

# II FƏSİL

Bu fəslin yazılmasında başlıca məqsəd Naxçıvanda doğulub boya-başa çatmış və Naxçıvan musiqi mədəniyyətinin inkişafında layiqli xidmətləri olmuş musiqiçiləri Naxçıvan musiqi ictimaiyyətilə, xüsusilə də gənc musiqiçilərlə yaxından tanış etmək, onlara bu sənət adamları haqqında əldə olan məlumatları çatdırmaqdır.

Cəsarətlə demək olar ki, bu gün Bakı şəhərində yaşayıb-yaradan və Azərbaycan musiqi ictimaiyyətinə yaxşı tanış olan musiqiçilərimiz Azərbaycan musiqi mədəniyyətinin inkişafında aparıcı rola malikdirlər. Qəribədir ki, geniş tamaşaçı və dinləyici auditoriyası olmasına baxmayaraq bu gün Naxçıvanda orta və gənc nəslin nümayəndələri belə sənət adamlarından yalnız bir neçəsinin adlarını sadalaya bilərlər. Halbuki onlar bu torpağın yetirmələridir və biz onlarla həmişə fəxr etməliyik. Unutmaq olmaz ki, bu gün uğurla fəaliyyət göstərən onlarla bəstəkar, nəzəriyyəçi, solo ifaçıları ilə yanaşı, təhsil ocaqlarında bir qrup naxçıvanlı ustad musiqiçi-müəllim fəaliyyət göstərir ki, onların nailiyyətləri Azərbaycanda çox yüksək qiymətləndirilir. Bu sənət adamlarının təkcə çalışdıqları təhsil ocaqlarının adları bunu deməyə əsas verir: Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Milli Konservatoriyası, Asəf Zeynallı adına Bakı Musiqi Kolleci, Bakı Musiqi Gimnaziyası, Bülbül adına Bakı Orta İxtisas Musiqi Məktəbi, Bakı musiqi məktəbləri və s.

Söhbətimizə milli adət-ənənələrə uyğun olaraq, Naxçıvan musiqi mədəniyyətinin görkəmli simalarından biri, ağsaqqalı, bu gün yaşlı nəslin belə çox az-az xatırladığı Məmməd Nəsirbəyovun həyat və yaradıcılığı ilə başlamaq istəyirəm.

# Məmməd Mirzə Həsən oğlu Nəsirbəyov
# (1897-1980)



Qocaman bəstəkar, musiqişünas, pedaqoq, yorulmaz ictimai xadim Məmməd Mirzə Həsən oğlu Nəsirbəyov 6 iyun 1897-ci ildə Naxçıvan şəhərində indiki İstiqlal küçəsi, dalan 6, ev 4 ünvanda dünyaya gəlmişdir. Atası, böyük maarifçi Mirzə Cəlilin, sonralar isə Nəriman Nərimanovun yaxın silahdaşlarından olmuş Mirzə Həsən Hacı Gülməmməd oğlu Nəsirbəyov 1887-ci ildə İrəvan müəllimlər seminariyasını bitirmiş və həmin ilin yayında minbir əzab-əziyyətlə, uzun məsafə qət edərək Bakı şəhərinə gəlmişdir. Burada Mirzə Həsən İçəri şəhər axundunun mədrəsəsində ilk ibtidai təhsil məktəblərindən birini təsis edir. Qori seminariyasını bitirib Bakıya dönən Nəriman Nərimanovla məhz burada tanış olmuşdur. Mirzə Həsən 1887-ci ildən 1934-cü ilədək Bakıda və Azərbaycanın müxtəlif rayonlarında müəllimlik etmiş, Azərbaycanda maarifçilk hərəkatının öndə gedən nümayəndələrindən biri olmuşdur. Mirzə Həsən Hacı Gülməmməd oğlu Nəsirbəyov 1934-cü ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Məmməd Nəsirbəyovun öz dəst-xətti ilə yazılmış tərcümeyi-halından belə məlum olur ki, o, beş yaşınadək Naxçıvanda yaşamış, sonra isə atası Bakıda işlədiyindən ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. Məmmədin musiqiyə həvəs göstərməsi bəlkə də atasının musiqiyə, teatra olan böyük həvəsindən yaranmışdır. Atası Mirzə Həsən yumşaq tembrli, orta diapazonlu tenor səsə malik idi və evdə tez-tez Azərbaycan xalq

mahnılarını, teatr tamaşalarından müxtəlif melodiyaları dodaqaltı zümzümə edərdi. Ümumiyyətlə, incəsənət vurğunu olan atası Azərbaycanda, xüsusilə də Bakı şəhərində teatr quruculuğunun fəal iştirakçılarından olmuşdur.

Atası kimi gözəl tenor səsə malik olan Məmməd musiqi sənətinə vokal ifaçılığı ilə başlamışdır. O, atası ilə birlikdə teatr tamaşalarında iştirak edər və eşitdiyi musiqi parçalarını həvəslə oxuyardı. Yalnız 1923-cü ildə 26 yaşlı Məmməd musiqi məktəbində vokal ixtisası üzrə Aleksandr Petroviç Kolotovdan dərs almağa başlayır. Qeyd etmək lazımdır ki, Məmməd Nəsirbəyov bu dövrdə artıq Bakı opera teatrının artisti işləyirdi. 1919-cu ildən opera teatrında fasilələrlə (1919-1924, 1929-1930 və 1934) işləyən Məmməd Nəsirbəyov burada bir çox Azərbaycan və Qərb bəstəkarlarının opera və vokal əsərlərini dərindən öyrənmiş və məharətlə ifa etmişdir. Məmməd eyni zamanda, tar sinfində Mansur Mansurovdan da dərs alır. Məktəbdə yeni nəsil bəstəkarların, nəzəriyyəçilərin, dirijorların hazırlanması məqsədi ilə Üzeyir bəy məktəbin nəzdində istedadlı gənclərdən ibarət qrup yaradır və onların təhsilinə nəzarəti öz üzərinə götürür. Bu qrupa Asəf Zeynallı, Aşur Həsənov, Əbdülrəhim Kərimovla yanaşı, Məmməd Nəsirbəyov da daxil edilir. Gənc musiqiçi bu sahədə püxtələşmək, sənətin zirvəsinə çatmaq üçün təhsilini durmadan artırır, müxtəlif təhsil ocaqlarında 20-ci əsrin görkəmli sənət adamlarından dərs alırdı. 1927-ci ildə Bakı Musiqi Texnikumuna daxil olan Məmməd Nəsirbəyov burada əvvəlcə professor M.A.Kolotovadan, sonra isə (1929-1931) professor N.İ.Speranskidən vokal sənətinin sirlərinə yiyələnir. Təhsilini artırmaqdan böyük zövq alan Məmməd eyni zamanda bəstəkarlıq fakültəsində də təhsilini davam etdirir. Məmməd Nəsirbəyov kompozisiya üzrə professor N.Z.Xeyfets, alətşünaslıq üzrə professor S.E.Ştrasserdən dərs alır. Qeyd edək ki, Məmməd Nəsirbəyov 1923-cü ildən 1940-cı ilədək ardıcıl təhsilini davam etdirir. O, 1931-ci ildə Bakı Musiqi Tex-

nikumunu bitirdikdən sonra 1932-ci ildə P.İ.Çaykovski adına Moskva Konservatoriyasında təhsilini davam etdirir. Burada o, professor Q.İ.Litinskidən kompozisiya və polifoniya üzrə dərs alır. 1933-cü ildə yenidən Bakıya qayıdan Məmməd Nəsirbəyov Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. O, kompozisiya üzrə professorlar L.M.Rudolf, P.B.Ryazanov, Azərbaycan musiqisinin əsasları fənnindən isə professor Üzeyir Hacıbəyovdan dərs alır. 1940-cı ildə M.Nəsirbəyov konservatoriyanı professor B.İ.Zeydmanın sinfi üzrə bitirir.

Təhsil almaq və vokal ifaçısı kimi işləməklə yanaşı Məmməd Nəsirbəyov gənc yaşlarından yaradıcılıq işlərinə də imza atır. İlk əvvəl o, bir vokal ifaçısı kimi opera səhnəsində gözəl rolların yaradıcısı olaraq xatirələrdə canlanır. Təəssüf ki, bu gün mütəxəssislər də daxil olmaqla çox az adama məlumdur ki, Məmməd müəllim Çaykovskinin "Yevgeni Onegin" operasında Lenskinin partiyasını tam şəkildə ifa edən ilk Azərbaycan opera müğənnilərindən biridir. Bundan əlavə o, Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından Əsgərin mahnısı və ariozosunu, "Koroğlu" operasından Koroğlunun ariyasını, mahnısını, bir sıra başqa tamaşalarda müxtəlif tenor partiyalarını, xalq mahnılarını uğurla ifa etmişdir.

1931-ci ildən Məmməd müəllim bəstəkarlıq fəaliyyətinə başlayır. Məmməd Nəsirbəyovun bu sahədəki ilk addımlarını da uğurlu saymaq olar. Onun klassik üslubda bəstələdiyi əsərlər bunu deməyə əsas verir. Gənc bəstəkarın 1936-cı ildə simli kvartet üçün yazdığı "Fuqa", "Ekspromt", məktəbəqədər uşaqlar üçün 24 mahnı (1932), Azərbaycan xalq mövzuları əsasında "Süita" (1938), "Yeddi fuqa" (1938), "Fantaziya" (1940), mahnı və rəqs ansamblı üçün Məmməd Rahimin sözlərinə yazılmış "Nizami" süitası (1940), "Sonatina" (1945), "Aşıqsayağı" (1945), fortepiano üçün 12 pyes (1953), M.Rahim və N.Rəfibəylinin sözlərinə yazdığı "Yurdumuz" (1950), "Vətən qızları" (1954) və s. əsərlərini xatırlamaq olar.

Bundan əlavə, Məmməd Nəsirbəyov müxtəlif illərdə (1931-ci ildən başlayaraq) Cəfər Cabbarlı, Məmməd Səid Ordubadinin mətnləri əsasında tamaşaya qoyulmuş dram; Nizami Gəncəvi, Cəfər Cabbarlı, Osman Sarıvəlli, Nigar Rəfibəylinin və başqa şairlərin sözlərinə yazılmış onlarla xor, romans, vokal, fortepiano üçün yazılmış musiqi əsərlərinin, mahnılar məcmuəsinin və s. əsərlərin müəllifidir. İlahi quvvənin təsirimi, yoxsa ilahi yazısımı deyək, ancaq 78 yaşlı sənətkar bəstəkarlıq fəaliyyətini Naxçıvan MSSR-in yaradılmasının 50 illiyinə həsr etdiyi xalq çalğı alətləri orkestri üçün "Süita" ilə tamamlamışdır. Bəstəkar bununla sanki bütün varlığının doğma yurdu Naxçıvanla bağlı olduğunu göstərmək istəmişdi.

Məmməd müəllim elmi-pedaqoji yaradıcılığına da çox ciddi yanaşırdı. Onun elmi metodiki məqalə və monoqrafiyaları bu gün də öz aktuallığını itirməmiş və müxtəlif musiqi təhsil ocaqlarında istifadə olunmaqdadır. Bu baxımdan "Hamofon musiqisinin formalarına aid göstərişlər" (1938-1940), "Azərbaycan musiqisində lad xüsusiyyətləri" (1944), "Musiqi nəzəriyyəsi" (1955, birinci nəşr 1964, ikinci nəşr 1976) monoqrafiyaları xüsusi qeyd olunmalıdır.

İctimai fəallığı ilə seçilən Məmməd Nəsirbəyov musiqi təhsili sistemində də bir sıra nailiyyətlərə imza atmışdır, xüsusilə də musiqi məktəblərinin yaradılması işində onun müstəsna xidmətləri qeyd olunmalıdır. Məmməd müəllilmin təşəbbüsü və ciddi səyi nəticəsində Bakı şəhərində 1№-li, Maştağa qəsəbəsində 11№-li (1951), Suraxanı rayonunda 5№-li (1953) uşaq musiqi məktəbləri açılmışdır. Həmin məktəblərdə direktor vəzifəsində işləməklə yanaşı Məmməd müəllim nəzəri fənlər üzrə də dərs aparmışdır. O, 1941-ci ildə SSRİ Bəstəkarlar İttifaqının üzvü seçilmiş, "Böyük Vətən müharibəsində (1941-1945) Əməkdə fərqləndiyinə görə" medalı ilə təltif edilmişdir. Məmməd Mirzə Həsən oğlu Nəsirbəyov 1980-ci ildə Bakı şəhərində 83 yaşında vəfat etmişdir.

# Qacar Xurşid

(*Tərcümeyi-halından*)

Qacar Xurşid (1894, Naxçıvan şəhəri – 1963, Bakı şəhəri)-müğənni. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Rəhim xan Naxçıvanskinin qızı. Moskva Konservatoriyasını (professor U.Mozettilinskinin sinfi) bitirmişdir (1915). Moskvada Xalq Maarif Komissarlığının incəsənət şöbəsində işləmiş, Moskva estrada ansamblının solisti (1919–1924) olmuşdur. 1924–1934-cü illərdə Azərbaycan Opera və Balet Teatrında fəaliyyət göstərmiş Gülzar ("Şah İsmayıl" Müslüm Maqomayev), Xurşidbanu, Gülçöhrə, Asya, Gülnaz ("Şah Abbas və Xurşidbanu", "Arşın mal alan", "O olmasın, bu olsun", Üzeyir Hacıbəyov), Mikoela ("Karmen", J.Bize) və s. partiyalarda çıxış etmişdir. 1934-cü ildən "Azərnəşr"də özünün təşəbbüsü ilə yaradılmış musiqi şöbəsinin müdiri işləmiş, eyni zamanda 1935-ci ildə Azərbaycan Opera və Balet Teatrı nəzdində studiya yaratmış, tələbələrin ifasında "Demon" (A.Rubinşteyn), "Çar gəlini" (N. Rimski-Korsakov) operalarını tamaşaya hazırlamışdır. "Dügah", "Rast", "Segah-Zabul" muğamlarını nota almışdır.

## Elbrus Abbasqulu oğlu Mehdiyev (1940-1981)



1956-cı ilin isti yay günlərindən biri idi...

Həmin günü o zamanlar Naxçıvan MSSR Komsomol Komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri işləmiş Ənvər Məmmədov belə xatırlayır:

Mən Puşkin küçəsi ilə tələsik Pioner və Məktəblilər evinə gedirdim. Birdən qulağıma mahnı səsi gəldi. Oxuyanın səsi məni çox heyrətləndirdi. Həddindən artıq gözəl, aydın və cəzbedici səs idi. Bir anlığa tələsdiyimi unudub dayandım, dönüb ətrafa baxdım. Yaxınlıqdakı döngənin başlanğıcında (İstiqlal küçəsi, 82 №-li binanın yeri) daş üstündə 15-16 yaşlarında üç gənc əyləşmişdi. Mən onlara yaxınlaşıb, "oxuyan kim idi?" –deyə soruşdum. Sualım cavabsız qaldı. Görünür, mənim qəfildən səmt dəyişib onlara yaxınlaşmağım oğlanları bir az qorxutmuşdu. Səmimiyyətlə onlara özümü təqdim edib oxuyanın çox gözəl səsi olduğunu və təşkilatımızın belə gənclərə köməklik göstərmək istədiyini bildirdim.

"Onda gəlin tanış olaq" –deyə oturanlardan biri əlini mənə uzatdı. Biz tanış olduq, onun adı Elbrus idi...

Elbrus Abbasqulu oğlu Mehdiyev 31 yanvar 1940-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. Ümumi təhsilini A.S.Puşkin adına 3 saylı orta məktəbdə alan Elbrus, paralel olaraq Naxçıvan şəhər Uşaq Musiqi Məktəbində də təhsil alırdı. Musiqi aləmindəki ilk addımlarını da məhz burada, 3 №-li məktəbin bədii özfəaliyyət kollektivində atmışdı. O, özfəaliyyət kollektivinin fəal üzvü kimi müxtəlif tədbirlərdə, el şənliklərində çıxış

etmiş və məktəbin müdiriyyəti tərəfindən dəfələrlə fəxri fərmanlarla təltif edilmişdi.

Ənvər müəllimin tövsiyəsi ilə Elbrus Naxçıvan şəhərində Pioner və Məktəblilər evində (Məktəblilər sarayı) fəaliyyət göstərən «Əlvan çiçəklər» mahnı və rəqs ansamblına üzv qəbul edilir. Qısa müddət ərzində o, kollektivin aparıcı solistlərindən biri kimi əksər konsertlərdə çıxış edərək bədii rəhbərin və müdiriyyətin ona göstərdiyi etimadı doğruldur.

Gözəl pedaqoq, bəstəkar və ictimai xadim Məmməd Məmmədovun başçılıq etdiyi bu kollektiv nəinki muxtar respublikada, onun hüdudlarından çox-çox uzaqlarda belə məşhur idi. Kollektivin heyətində Elbrus Mehdiyev dəfələrlə Bakı şəhərində keçirilən festivallarda, olimpiadalarda iştirak etmiş və bu tədbirlərin laureatı, diplomantı adına, habelə bir çox fəxri fərmanlara layiq görülmüşdü. Onun məharətlə ifa etdiyi M.Cavadovun «Naxçıvan», V.Axundovun «O Naxçıvandır», T.Quliyevin «Bakı», pioner və məktəblilərə həsr edilmiş bir sıra başqa mahnıları tamaşaçılar həvəslə dinləyirdilər.

1959-cu ildən 1961-ci ilədək E.Mehdiyevin yaradıcılıq fəaliyyəti Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblı ilə bağlıdır. Burada onun Naxçıvan musiqi mədəniyyəti tarixində özünə layiqli yer tutmuş gözəl sənətkarlar, bəstəkar Məmməd Ələkbərov, həvəskar bəstəkar, tarzən və müğənni Vahid Axundov, tanınmış müğənni Abdulla Babayev, müğənni Fikrət Qasımov, Qurban İsmayılov, kamançaçalan Aydın Camalbəyov, klarnetçalan Kamil Hüseynov, dəfçalan, bu gün də Bakıda yaşlı nəsil tərəfindən böyük ehtiramla yad edilən Yusif Şeyxov və başqaları ilə birlikdə Naxçıvan MR musiqi mədəniyyətinin inkişafı, təbliği sahəsində əməli və yaddaqalan fəaliyyəti olmuşdur.

Xalq mahnılarından «Almanı atdım xarala», «Bu gün ayın üçüdür», «Ay Güləbətin», bəstəkar Məmməd Ələkbərovun «Doğma Naxçıvan», «Araz» və digər mahnıların Elbrus

tərəfindən məharətlə ifa edilməsi keçirilən konsertlərin uğur qazanmasına böyük təsir göstərirdi.

45 – 50 il bundan əvvəl keçirilən tədbirlərin ağırlığını və mahiyyətini qiymətləndirmək üçün təkcə belə bir faktı göstərmək kifayətdir ki, ansamblın üzvləri yük avtomobillərində, arabalarda, bəzi hallarda isə (yaxın kəndlərə) yolu piyada qət edərək muxtar respublikanın rayon mərkəzlərində və əksər kəndlərində olmuş, çox çətin şəraitdə konsertlər verərək musiqi mədəniyyətimizi layiqincə təbliğ etmişlər. Burada mahnı və rəqs ansamblının yaradılmasında böyük xidmətləri olmuş, sonralar isə kollektivin direktoru Məmməd Ələkbərovun ansamblın daim və sabit fəaliyyət göstərməsində apardığı yaradıcılıq və təşkilatçılıq işini xüsusi qeyd etmək lazımdır.

Ansamblda işləməklə yanaşı, E.Mehdiyev paralel olaraq teatr səhnəsində ilk uğurlu rolunu yaradır. O, Naxçıvan teatrında tamaşaya qoyulmuş Bəxtiyar Vahabzadənin «Ədalət» tamaşasında xanəndə rolunda çıxış etmiş və öz oyunu ilə tamaşaçıların yaddaşına xoş xatirələr yazmışdır. Naxçıvan teatrının korifeylərindən İbrahim Həmzəyev, Səməd Mövləvi, Əyyub Haqverdiyev və başqaları Elbrusun ifaçılıq qabiliyyətini çox yüksək qiymətləndirirdilər.

«Şərq qapısı» qəzetinin 13 may 1959-cu il tarixli, 93 №-li sayında gözəl şair və dramaturq Hüseyn Razi tamaşaya həsr etdiyi məqaləsində müğənni E.Mehdiyevin yaradıcılığını belə qiymətləndirmişdir: «Xanəndə rolunun ifaçısı E.Mehdiyev ifa etdiyi mahnının bütün incəliklərini tamaşaçıya çatdıra bilir».

Təhsil almaq, başqa sözlə desək, vokal sənətinə dərindən yiyələnmək, rus, Qərb bəstəkarlarının əsərləri ilə yaxından tanış və peşəkar bir vokal ifaçısı olmaq arzusu ilə E.Mehdiyev 1961-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsinə daxil olur.

Qeyd etmək lazımdır ki, müəllim sarıdan Elbrusun bəxti gətirir. O, Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindən biri, M.F.Axundov adına Opera və Balet Teatrının

solisti, gözəl pedaqoq Firudin Mehdiyevin sinfinə təyin edilir. İlk tanışlıqdan sonra Firudin müəllim Elbrusun gözəl səsi və yüksək səhnə mədəniyyəti olduğunu vurğulasa da, səs aparatının refleks hərəkəti və səslənmənin düzgün alınması, səsin sazlanması sahəsində xeyli iş görüləcəyini bildirir. Bunları isə yalnız gündəlik oxuma məşqi ilə səsi düzgün açmaq prosesində əldə etmək olardı.

Firudin müəllim əvvəlcə əsas diqqəti səsin sazlanması və səs aparatının refleks hərəkətinin əldə olunmasına yönəltsə də, lirik-dramatik səs tembrinə malik Elbrusun səs diapazonunu genişləndirmək üçün diapazonun aşağı hissəsində kiçik oktavanın "lya-si bemol, si," yuxarı hissəsində isə ikinci oktavanın "lya" səsindən üçüncü oktavanın "do" səsi daxil olmaqla, qalan hissəsini işləyib səsləndirmək problemini gərgin zəhmət tələb edən bir iş kimi qiymətləndirirdi. Bu məsələ hər bir lirik-dramatik səsə malik vokal ifaçısının və onu çalışdıran müəllimin qarşıya qoyduğu ümdə və vacib məsələlərdən birincisidir. Belə ki, lirik-dramatik tenorun bu səs diapazonuna malik olması (kiçik oktavanın "lya-si" səsindən üçüncü oktavanın "do" səsinə qədər olan səs həcmi) onun klassik opera yaradıcılığına müraciət etməsinə tam zəmanət verən amillərdən birincisi hesab edilir. Hər ötən gün, ay E.Mehdiyevin bu işin öhdəsindən cəsarətlə gələcəyindən xəbər verirdi.

Gərgin məşq saatları günləri, günlər ayları, aylar isə illəri əvəz etdikcə Elbrus da vokal sənətinin sirlərinə dərindən yiyələnir, klassik opera sənətinə böyük maraq göstərirdi. Təsadüfi deyil ki, artıq son kursda E.Mehdiyevin repertuarında Üzeyir Hacıbəyov, Fikrət Əmirov, C.Verdi, C.Puccini, C.Bize, P.Çaykovski və digər bəstəkarların operalarından ariyalar, ariozolar, R.Şuman, F.Şubert, M.Qlinka, Ü.Hacıbəyov, A.Zeynallı, Q.Qarayevin romansları əsas yer tuturdu. Müğənninin ifa etdiyi hər bir əsər tamaşaçılar tərəfindən hərarətlə qarşılanırdı.

1965-ci ildə E.Mehdiyev A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini müvəffəqiyyətlə bitirir. Elbrus üçün nə qədər ağır olsa da o, opera səhnəsini müəllimlik peşəsi ilə əvəz etməli olur. E.Mehdiyev S.Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsində dərs deməyə başlayır. Daim axtarışda olan E.Mehdiyev elə həmin il təhsilini davam etdirmək üçün Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə daxil olur. Qiyabi yolla təhsilini davam etdirən E.Mehdiyev özünü tamamilə gənc vokal ifaçılarının hazırlanması işinə həsr edir. Təsadüfi deyil ki, onun dərs dediyi şagirdlərdən bir çoxu sonralar Azərbaycanda tanınan və sevilən müğənnilərdən olmuşdur. Onlardan Rəşid Bədirov, Tamara Ağamiyeva, Ruhəngiz Musəvi və başqaları bu gün də Elbrus müəllimin şərəfli işini layiqincə davam etdirir və müəllimlərini böyük ehtiramla yad edirlər. Beləliklə, Sumqayıtda vokal ifaçılıq sənətində tədricən "E.Mehdiyev məktəbi" formalaşmağa başlayır.

Elbrus müəllim ömrünün qısa olacağını sanki əvvəlcədən hiss edirdi. Bu səbəbdən də o, mümkün qədər cəmiyyətə çox fayda vermək, yaradıcılıq işlərini tamamlamaq və ölümündən sonra yadigar kimi dəyərli bir irs saxlamaq arzusu ilə durmadan çalışırdı.

Səhhətinin pis olmasına baxmayaraq E.Mehdiyev S.Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi Məktəbində müəllim, S.Vurğun adına Mədəniyyət Sarayında vokal dərnəyinin rəhbəri, Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olmaqla yanaşı tez-tez Sumqayıt şəhərinin müxtəlif müəssisələrində dərs dediyi tələbələrinin açıq konsertlərini təşkil edir, özü də onlarla birlikdə həmin konsertlərdə müğənni kimi iştirak edirdi.

Onun ifasında səslənən Ü.Hacıbəyovun «Sevgili canan», «Sənsiz», A.Zeynallının «Ölkəm», S.Rüstəmovun «Sumqayıt», T.Quliyevin «Qızıl üzük», C.Cahangirovun «Ana» əsərləri, ro-

mans və mahnıları sumqayıtlılar tərəfindən həmişə alqışlarla qarşılanırdı.

E.Mehdiyevin çalışqanlığı, yadda qalan səmimiyyəti fəaliyyət göstərdiyi hər bir kollektivdə ona müsbət imic qazandırır, rəhbərliyin isə ona olan etimadını daha da artırırdı.

Bu baxımdan S.Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi Məktəbinin iş kollektivinin Elbrus Mehdiyevə göstərdiyi qayğı və səmimiyyəti xüsusi qeyd etmək istəyirəm. Sıravi müəllimdən tutmuş direktoradək hamı Mehdiyevə yaxın dost və həmkar idi. Belə insanlardan məktəbin direktoru Bayandur Mehdiyev, şöbə müdirləri Fazil Əliyev, Faiq Nağıyev, müəllimlərdən Həsən Abbasquliyev, Ələkbər Əsgərov, Darvin Quliyevi və başqalarını misal göstərmək olar.

Ömrünün son aylarınadək (19 oktyabr 1981) müğənni öz yaradıcılıq fəaliyyətini bu şəkildə davam etdirir. Ümumiyyətlə, o, 1965-ci ildən 1981-ci ilədək daim Azərbaycan Televiziya və Radiosu, Bakı Filarmoniyası, Bakı, Naxçıvan, Sumqayıt şəhərlərində keçirilən dövlət və yubiley (Naxçıvan MSSR-in 40 illiyi, Sumqayıt şəhərinin 25 illiyi və s.) konsertlərində, habelə kütləvi el şənliklərində çıxışlar etmiş, tamaşaçılara öz məlahətli səsi ilə yaddaqalan və gözəl əhval-ruhiyyə bəxş etmişdir.

Ölüm müğənni Elbrus Mehdiyevi yaradıcılığının bahar çağında sıramızdan qoparıb bir payız yarpağı tək uçurdu. Lakin bu yarpaq saralsa da yerə düşmədi. O, sadəcə havada uçaraq əbədiyyətə qovuşdu...

# ƏLİ BAYRAMƏLİ OĞLU MURADOV
# (1938)



Atalar sözüdür: «Uzaqdan döyüş adama asan gələr». Bu fikir, sözün əsl mənasında, sənət adamının həyat və yaradıcılığını əks etdirir desək, səhv etmərik. Sənətkarın keçdiyi həyat yolundan xəbərdar olmayanlara sənət aləmi çox asan, sadə, firavan görünməklə yanaşı, sənətkarın özü də nağıllar aləmində olduğu kimi, sehrli çubuqla hər arzusu bir anda yerinə yetirilən adam təsəvvürü yaradır. Halbuki, yaradıcı adamların həyat tərzi digərlərindən dəfələrlə mürəkkəb və çətin olur. Məsələnin maddi və mənəvi tərəfini bir yana buraxıb təkcə onu demək kifayətdir ki, hər kəs öz həyatını yaşadığı halda, sənət adamı iki yaşam içərisində çarpışaraq həm özünü, həm də sevdiyi sənətini yaşatmağa çalışır. Bu baxımdan da "sənətkar ömrü fədai ömrünə bənzər" demək, yerinə düşər. Haqqında söz açdığımız müğənni də belə həyat yolu keçmişdir.

Azərbaycan Respublikasının Əməkdar artisti Əli Bayraməli oğlu Muradov 1938-ci ildə Naxçıvan MR Babək rayonunun Alagöz Məzrə kəndində dünyaya göz açmışdır. Uşaqlığı müharibə illərinə təsadüf edən Əli ailəsinə az da olsun köməklik etmək üçün erkən yaşlarından gərgin əmək fəaliyyətinə başlayır. Ağır keçən müharibə illərində (1941–1945) körpə uşaq əməyinə də böyük ehtiyac var idi. Bu səbəbdən Əli də üzərinə düşən işi uşaqlara aid səbirlə yerinə yetirir və öz şəxsi təsərrüfatlarında, yeri gəldikdə kolxoz sahələrində, sonralar isə Bakı şəhərində müxtəlif peşələrdə işləməklə ailəsinə yaxından

köməklik göstərirdi. Əlinin əməksevərliyi məhz belə bir şəraitdə, erkən yaşlarından formalaşmağa başlamış və illər boyu qarşıya çıxan çətinlikləri aradan qaldırmaqda ona güclü, etibarlı dayaq olmuşdur.

Boş vaxtlarında Əli bağçalarında ağac altında oturub eşitdiyi mahnıları zümzümə etməyi çox sevərdi. Həmin anlar Əlinin, təsadüfən onu dinləyənlərin ağlına belə gəlməzdi ki, qarşılarındakı bu balaca oğlan, vaxt gələcək Alagöz Məzrədən çox-çox uzaqlarda doğma kəndinin, Naxçıvanın, Azərbaycanın şöhrətini ucaldacaqdır.

Nə qədər ağır olsa da Əli oxumağa olan istəyini daxili aləmində qapayır, kiminləsə bu haqda söhbət etmək belə istəmirdi. Uşaq olmasına baxmayaraq o, yaxşı başa düşürdü ki, ağır və uzun sürən müharibə illəri kimdəsə mahnı oxumağa, musiqi dinləməyə həvəs qoymamışdır. Cəbhədən gələn "qara kağızlar" yurdun hər yerində olduğu kimi Alagöz Məzrəni də matəmə bürümüşdü.

O illərin yeganə xoş xatirəsi ibtidai sinifdə dərs aldığı qonşu Qaraqala kəndindən olan Kazım və Xanlar müəllimlərlə bağlıdır. Müəllimlərinin şagirdlərə verdikləri təlim-tərbiyə, göstərdikləri qayğı, nəvaziş indi də Əlinin yaddaşında şirin xatirələr oyadır.

Doqquz illik kənd həyatı bir yuxu tək gəlib keçdi. 1947-ci ildə balaca Əli ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçməli olur. Qaynar, gərgin şəhər həyat tərzi öz mütərəqqi cəhətləri ilə Əlinin də davranışına yaxşı mənada təsir göstərməyə başlayır. Anadangəlmə gözəl səsə, musiqi qavrama və eşitmə qabiliyyətlərinə malik olan Əli uzun sürən susqunluğa son qoyaraq ciddi şəkildə musiqi ilə məşğul olmaq qərarına gəlir. O, indiki Xətai adına Mədəniyyət Sarayında fəaliyyət göstərən musiqi dərnəyinin tar sinfinə daxil olur. İxtisas müəllimi Səlim İxizgilovun gərgin səyi nəticəsində Əli Azərbaycan xalq mahnı-

larını və muğamlarını sevə-sevə öyrənərək tarda özünəməxsus tərzdə ifa etməyə başlayır. Xalq mahnılarımızı və muğamlarımızı dərindən öyrənməyə çalışan Əli bilmirdi ki, bu tükənməz musiqi xəzinəsinin öyrənilməsi gələcəkdə onun vokal ifaçısı kimi formalaşmasına necə böyük kömək və təsir göstərəcəkdir.

Həvəslə tar çalan Əlinin bir müddətdən sonra müəllimləri tərəfindən gözəl səsi olduğu da müəyyən edilir. Beləliklə də, o, tar çalmaqla bərabər, həm də mədəniyyət sarayında fəaliyyət göstərən xalq çalğı alətləri ansamblında müğənni kimi iştirak etməyə başlayır. Əlinin gözəl, məlahətli səsi və oxumaq qabiliyyəti haqqında artıq mədəniyyət sarayında xoş söhbətlər eşidilirdi. Müəllimlərinin gələcəkdə onu mükəmməl musiqiçi kimi görmək istəyini Əli öz əməksevərliyi ilə doğrultmağa çalışırdı. Lakin 1952-ci ildə 14 yaşlı Əli dövrünün ənənəsinə rəğmən Bakı şəhər 7 №-li sənət məktəbinə daxil olur. Təhsil illəri hiss olunmadan gəlib keçir və 1954-cü ildə çilingər peşəsi üzrə məktəbi bitirən Əli Keşlə Maşınqayırma Zavodunda işləməyə başlayır. İşinin öhdəsindən asanlıqla gələn gənc çilingər kollektivin hörmətini qazanmaqla yanaşı, yaxın gələcəyin bacarıqlı ustası kimi də hamıda xoş ümid doğururdu. Amma Əli əqli, ruhu ilə Xətai adına Mədəniyyət Sarayında üzvü olduğu xalq çalğı alətləri ansamblı və C.Cahangirovun rəhbərlik etdiyi «Neftçilər» xor kollektivi ilə birlikdə idi. Zavodda işin ağır olmasına baxmayaraq o hər iki kollektivdə də məşqlərini uğurla davam etdirirdi.

Uzun sürən tərəddüddən sonra Əli Muradov özünü tamamilə vokal ifaçılıq sənətinə həsr etmək qərarına gəlir. Bu yolda Əliyə köməklik göstərən və istiqamət verən onun vokal ifaçılıq qabiliyyətinə yaxından bələd olan «Neftçilər» xor kollektivinin bədii rəhbəri və dirijoru, Azərbaycanda xor sənətinin inkişafında böyük xidmətləri olmuş görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti Cahangir Cahangirov olmuşdur. O za-

manlar çox dəbdə olan «Avara» hind filmindən Racın mahnısı ilə solo oxumağa başlayan Ə.Muradov qərarını qətiləşdirdikdən sonra daha da ciddi mahnılar üzərində işləməyə başlayır.

Çox keçmir ki, Ə.Muradov gözəl bəstəkar və pedaqoq, Azərbaycanda tar ifaçılıq məktəbinin inkişafında müstəsna xidmətləri olmuş, tar üçün gözəl əsərlər yaratmış və çoxlu sayda xarici bəstəkarların əsərlərini işləmiş Adil Gərayın «Qızıl ulduzlu oğlan», «Gözəl Şirvan», unudulmaz pedaqoq, bəstəkar «Tar məktəbi» dərsliyinin müəllifi, xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Səid Rüstəmovun «Mən sülhə səs verirəm», «Bənövşə», «Bilmədin, dünən dedin gələcəyəm, gəlmədin», «A dostlar», «Şeir deyilmi?» və s. mahnıları ilə müxtəlif konsert salonlarında tamaşaçıların alqışlarını qazanmağa başlayır. Bir vokal ifaçısı kimi Ə.Muradov ilk qastrol səfərinə də məhz 1956-cı ildə «Neftçilər» xor kollektivi tərkibində Moskvada keçirilən müsabiqənin iştirakçısı kimi başlamışdır.

1958-ci ildə Ə.Muradov uşaqlıqdan ürəyində saxladığı arzusunu həyata keçirmək və peşəkar vokal ifaçısı olmaq istəyi ilə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsinə daxil olur. İxtisas imtahanlarında Ü.Hacıbəyovun «Sənsiz» və «Sevgili canan» romanslarını hər baxımdan (xarakter, artistlik, səhnə mədəniyyəti və s.) uğurla ifa edən Əli qəbul imtahan komissiyasının rəğbətini və təşəkkürünü qazanır. Ə.Muradovun səsi tembrinə görə lirik-dramatik tenor olmaqla yanaşı, diapazon etibarı ilə bu dövrdə iki oktava, yəni birinci oktavanın «do» səsindən üçüncü oktavanın «do» səsinədək olan səs həcmini əhatə edirdi. Tam lirik-dramatik tenor səs diapazonuna sahib olmaq üçün o, səs diapazonunu aşağıya doğru böyük sekunda ($b_2$) genişləndirərək kiçik oktavanın «lya, si bemol-si» səslərini də əlavə etməli idi.

Məktəbə daxil olan digər vokal ifaçılarından fərqli olaraq Əlinin qarşısında səs aparatının refleks hərəkəti, səsin sazlanması, habelə müxtəlif gündəlik oxuma məşqləri ilə düzgün açılması və alınması kimi çətin problemlər durmurdu. Qeyd etmək lazımdır ki, onun səs aparatının lazımi səviyyədə olmasına «Neftçilər» xor kollektivində oxuma məşqləri zamanı aldığı düzgün musiqi təliminin və oxuma vərdişlərinin böyük təsiri olmuşdur. İfaçılıqda bu kimi üstün cəhətlərə malik olmasına baxmayaraq Ə.Muradov ixtisas müəllimi K.Kərimov tərəfindən səs üçün verilən oxuma çalışmalarını həmişə vaxtında və səylə yerinə yetirirdi. Uşaqlıqdan vərdiş etdiyi əməksevərlik burada da Əlinin köməyinə yetmiş və o, çalışqanlıqda digər şagirdlərə nümunə olmuşdur.

1961-ci ildə (üçüncü kursun ilk günlərindən) Ə.Muradov hərbi xidmətə çağırılır. Vladimir-Volınski şəhərində hərbi xidmətə başlayan Əli əsgər həyatının ilk günlərinin (karantin dövrünün) necə çətin keçdiyini indi də narahat halda xatırlayır... Ancaq yaxşı deyiblər, pis günün ömrü az olar. Vaxtını boş yerə sərf etməyən Ə.Muradov bu müddət ərzində zabitlər mədəniyyət evi ilə sıx əlaqə saxlayır və demək olar ki, qiyabi olsa da oranın iş prosesi ilə ətraflı tanış olur. Məhz buna görə də o, karantin dövrünü başa vurar-vurmaz zabitlər mədəniyyət evinin fəal üzvünə çevrilir. Tezliklə sıravi əsgər, müğənni Ə.Muradov hamının sevimlisi olur. Əlinin ifaçılıq isdedadına heyran olan polkovnik bir azərbaycanlı kimi ona böyük nəvaziş göstərir, himayədarlıq edir. Bu qayğının əməli göstəricisi olaraq İsgəndərov yüzlərlə əsgərin içərisindən məhz Əlini Lvov şəhərinə fortepiano kökləmə və təmiretmə kursuna göndərir. Beləliklə, sıravi əsgər Ə.Muradov musiqi aləmində böyük hörmətə və tələbata malik peşəyə sahib olmaq imkanı da əldə edir.

Kursu uğurla tamamlayan Ə.Muradov hissəsinə qayıdır və hərbi xidmətini başa vuranadək zabitlər mədəniyyət evində

ansamblın solisti olmaqla bərabər fortepiano alətlərini kökləyən peşəkar usta kimi də fəaliyyət göstərir. Onun müğənni kimi ifa etdiyi Ü.Hacıbəyovun «Koroğlu» operasından «Aşıq» mahnısı, «Sənsiz», «Sevgili canan», Azərbaycan xalq mahnısı «Aman ovçu», rus xalq mahnısı «Viju çudnoe privolye» və digər mahnı, romanslar milliyyətindən asılı olmayaraq əsgər və zabit heyəti arasında özünə xeyli pərəstişkar tapmışdır.

1964-cü ildə hərbi xidmətini bitirən Ə.Muradov Bakıya qayıdır və yarımçıq qalmış təhsilini davam etdirmək üçün A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin vokal şöbəsinin II kursuna bərpa olunur. Üç illik ayrılıqdan sonra Əli üçün yenidən gərgin məşq saatları, semestr imtahanları, müxtəlif səpkili konsertlər, bir sözlə, əsl tələbəlik həyatı başlayır. Peşəkar səhnəyə alışmış müğənninin belə gərgin fəaliyyəti təbii qarşılanırdı. Məktəbin rəhbərliyi də öz növbəsində gənc ifaçını müxtəlif tədbirlərə, hami konsertlərə cəlb edərək onun hərtərəfli inkişaf etməsinə köməklik göstərirdi. Müğənninin ifasında səslənən F.Əmirovun «Sevil» operasından Balaşın mahnısı, S.Ələsgərovun «Küsmərəm», Azərbaycan xalq mahnılarından «Ləbüləb», «Ay Güləbətin» və digər əsərlər tamaşaçılar tərəfindən hərarətlə qarşılanırdı. Bu ərəfədə müğənninin səs diapazonunun aşağı hissəsindəki çatışmazlıq da (böyük oktavanın «lya-si» səsləri) aradan qaldırılmış və o səs həcmindən istədiyi şəkildə istifadə etmək imkanı əldə etmişdi.

1967-ci ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirən Ə.Muradov elə həmin il Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə daxil olur. İstər musiqi məktəbinin buraxılış, istərsə də konservatoriyaya qəbul imtahanları zamanı müğəninin ifa etdiyi əsərlər imtahan komissiyaları tərəfindən yekdilliklə bəyənilmiş və yüksək balla (beş) qiymətləndirilmişdir. Ə.Muradovun ifa etdiyi Ü.Hacıbəyovun «Koroğlu» operasından Koroğlunun, F.Əmi-

rovun «Sevil» operasından Balaşın, C.Bizenin «Karmen» operasından Xozenin ariyaları, C.Verdinin «Trubadur» operasından Manrikonun «Stretto»su, «Riqoletto» operasından Hersoqun mahnısı ifa edilən əsərlər içərisində ifaçılıq xüsusiyyətlərinə, surətlərin dolğun, xarakter etibarı ilə düzgün əks etdirilməsinə görə aparıcı mütəxəssislər tərəfindən müsbət qiymətləndirilirdi.

Konservatoriyada Ə.Muradovun ixtisas müəllimləri Nikolski, sonralar isə əməkdar artist Kamal Kərimov heç bir çətinlik çəkmədən ona tədris proqramında nəzərdə tutulan əsərləri öyrədir və semestr imtahanlarını müvəffəqiyyətlə başa vururdular. Tələbə müğənninin səs aparatının, diapazonunun lazımi səviyyədə olması və peşəkar sənət adamı kimi işinə daima ciddi münasibət bəsləməsi qazanılan uğurun əsasını təşkil edirdi.

Özünü peşəkar müğənni kimi tanıdan Əli konservatoriyanın nəzdində fəaliyyət göstərən opera studiyasının truppasına dəvət edilir. Burada gənc müğənni ifaçılıq qabiliyyətini bir daha səhnə vasitəsi ilə nümayiş etdirmək fürsəti əldə edir. O, dəfələrlə opera studiyası tərəfindən tamaşaya qoyulmuş Ü.Hacıbəyovun «Koroğlu» operasında Koroğlu, F.Əmirovun «Sevil» operasında Balaş, R.Korsakovun «Çar gəlini» operasında Bomeli, S.Raxmaninovun «Aleko» operasında cavan qaraçı rollarında uğurla çıxış edərək opera səhnəsində özünü bacarıqlı artist kimi göstərməyə müvəffəq olmuşdur.

Yaradılan obrazların müxtəlifliyinə baxmayaraq Ə.Muradov işinin öhdəsindən bacarıqla gəlirdi ki, bu da onun artistlik qabiliyyətindən xəbər verirdi. Məsələn, əgər bir tərəfdə xalq hərəkatına başçılıq edən, vətən üçün canından keçməyə hazır olan qəhrəmanlıq, cəsurluq rəmzinə çevrilən Koroğlu surəti canlandırılırdısa, digər tərəfdə tamamilə buna zidd–qorxaq, yaltaq, bir ovuc pul üçün zəhər sataraq başqalarının həyatını

məhv edən saray təbibi Bomelinin surəti dururdu, öz məhəbbəti uğrunda ölümə gedən cavan qaraçı və eyş-işrətdən əl çəkməyən, ailə səadətini, məhəbbətini puç edən Balaş obrazları gənc müğənninin rəngarəng yaradıcılığının göstəricisi idi. Təsadüfi deyil ki, məhz bu müddət o, bir çox yaradıcı kollektivlərdən işləmək üçün təkliflər alırdı.

Belə təkliflərdən biri 1970-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət xor kapellasının bədii rəhbəri və baş dirijoru E.Novruzov tərəfindən edilmişdi. Bu dəvət müğənni üçün çox vacib olmaqla yanaşı, həm də onun yaradıcılığına vaxtında verilən yüksək qiymət idi. Təklif ilk baxımdan maraqlı görünsə də müğənnini bəzi məsələlərin həlli ilə üzbəüz də qoymuşdu. Bunlardan ən başlıcası isə xor kapellasında özlərinə məskən salmış digər millətlərdən olan məkrli ifaçılara «vokal dərsi» verərək bir ifaçı kimi onlardan üstün olduğunu sübut etməkdən ibarət idi.

1970-ci il olmasına və ön sətirlərdə adlarını qeyd etdiyim dahi sənətkarlarımızın inamla qazandıqları şöhrətlərə, uğurlara baxmayaraq, kollektivdə işləyən bədnam ermənilər burada da öz xislətlərinə uyğun hərəkət edərək “azərbaycanlıdır deyə yaxşı vokal ifaçısı ola bilməz” ideyasını gizli şəkildə həyata keçirirdilər. Amma yaxşı deyiblər: «Dərin qazan, gen qazan sonunda özü düşər». Əli də sənət aləmində qazandığı müvəffəqiyyətləri ilə alçaq niyyətliləri öz qazdıqları «quyuya» salmağı bacardı.

Ə.Muradovun hər dəfə məharətlə ifa etdiyi ariyalar, xalq və bəstəkar mahnıları sənətçiyə ruh verən və böyük uğurun göstəricisi sayılan tamaşaçı alqışları gətirirdi. Respublikamızdan kənarda qastrol səfərləri zamanı dilimizi bilməyən, musiqimizi bir dəfə də olsun eşitməyən sıravi tamaşaçılardan tutmuş musiqi mütəxəssislərinədək müğənninin ifasında səslənən hər əsəri hərarətlə qarşılamaqla bərabər konsertdən sonra pərdə arxasına gələrək onunla

yaxından tanış olur, ifa edilən əsərlərin not və lent yazılarını onlara göndərməyi xahiş edirdilər.

Sibirdən Baltikyanı respublikalaradək, Uraldan Ukraynayadək, Orta Asiya, Volqaboyu, Moskvaətrafı və digər regionlardakı yüzlərlə şəhərdə gözəl çıxışları ilə müğənni tamaşaçıları heyran etməklə yanaşı, Azərbaycan musiqi mədəniyyətini də layiqincə təmsil və təbliğ etmişdir.

Gərgin əmək fəaliyyəti artıq öz bəhrəsini verməyə başlamışdı. Ə.Muradov müxtəlif fəxri fərmanlar, diplomlarla təltif edilir, ən nəhayət isə, 1982-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı verilir. Bu fəxri ad Əli üçün bir də ona görə qiymətlidir ki, görkəmli dirijor, maestro Niyazinin bilavasitə tövsiyəsi ilə ona verilmişdi.

İllər xəyal tək ömür kitabını, biz isə söhbətimizi bitiririk. Beləcə, Ə.Muradov 1996-cı ildə yaradıcılıq fəaliyyətinə, böyük səhnəyə vida etdi. Onun qırx illik səhnə fəaliyyəti kiminə çox, kiminə isə az göründü. Sənətkar isə səhnədən vaxtında ayrılmağı hər şeydən üstün tutdu...

# YAŞAR ABUTALIB OĞLU SƏFƏROV
# (1940–2007)



Naxçıvan vokal ifaçılıq tarixində, Azərbaycanda və onun hüdudlarından çox-çox uzaqlarda özünə şöhrət tapmış, məlahətli səsi, gözəl ifaçılıq qabiliyyəti, rəngarəng repertuarı, səhnə və pedaqoji fəaliyyəti ilə geniş dinləyci auditoriyasının və həmkarlarının rəğbətini qazanmış sənətkarlarımızdan biri də Yaşar Abutalıb oğlu Səfərovdur.

Azərbaycanın cənnət guşələrindən sayılan Şahbuz rayonunun Çay-Şahbuz kəndində, mühasib Abutalıb Səfərovun ailəsində 25 iyun 1940-cı ildə bir körpə dünyaya gəlir. Abutalıb kişi sanki ürəyindəki arzuları yaşadacaq, onlara həyat verəcək körpənin dünyaya gəldiyini hiss edib oğluna Yaşar adı verir...

İllər ötdükcə bu müqəddəs ata duyğusunu Yaşar öz yaradıcılıq fəaliyyəti ilə Azərbaycanda və dünyanın bir çox ölkələrində canlandırdı, ona yaşam verdi! Beləliklə, hələ atasının sağlığında Yaşar onun arzularını həyata keçirərək atasına ruhi qida verib xəyalən ona əbədi heykəl ucaltdı...

Valideyn borcunu qaytarmaq mümkün deyil, amma yaxşı əməlləri ilə onlara başucalığı gətirmək hər bir övladın şərəfli vəzifəsi, müqəddəs borcudur.

1943-cü ildə Qarababa kəndində mühasib işləyən Abutalıb Səfərov yeni işi ilə əlaqədar, ailəsi ilə birlikdə Naxçıvan şəhərinə köçür. İllər bir-birini əvəz etdikcə balaca Yaşarın da məktəbə getmək zamanı gəlib çatır və o, təhsil almaq üçün

1947-ci ildə valideynləri tərəfindən məhəllələrindəki 5 №-li yeddiillik məktəbin birinci sinfinə gətirilir.

İbtidai sinifdən əla qiymətlərlə oxuyan Yaşar, XX əsrin 50-ci illərin əvvəllərindən başlayaraq məktəbin ictimai həyatında da fəal rol oynamağa başlayır.Yaşarın musiqi qabiliyyəti, oxuma tərzi, xüsusilə də Şahbuzun axar-baxarlı bulaqlarının şəffaf sularını, uca dağlarını xatırladan gözəl, məlahətli, aydın səsi hamını heyran edirdi.

Bu yenilik o illərdə məktəbin direktoru işləmiş, qabaqcıl maarif işçisi, Naxçıvanın mədəni həyatında özünün xüsusi yeri və çəkisi olmuş, uzun illər müxtəlif mədəniyyət ocaqlarına (Pioner və Məktəblilər evi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi və s.) müvəffəqiyyətlə başçılıq etmiş İdris Səlimovun da diqqətindən yayınmır. İdris müəllim dördüncü sinif şagirdi Yaşar Səfərovun ifa etdiyi mahnıları dinlədikdən sonra məsləhət görür ki, o, Pioner və Məktəblilər evində Səfər müəllimdən xanəndəlik dərsi alaraq oxumağın sirlərinə dərindən yiyələnsin. Qeyd etmək lazımdır ki, Naxçıvanda müğənni, tar, qaval (dəf) ifaçısı kimi tanınan və 30-cu illərin əvvəllərindən başlayaraq Naxçıvan musiqi mədəniyyətinin inkişafına böyük əmək sərf edən, bir çox tar ifaçısının, müğənninin yetişib ərsəyə gəlməsində Səfər Rəcəblinin (S.Rəcəbov 1915–1968) əvəzsiz xidmətləri olmuşdur. Səfər müəllim həm də Naxçıvan həvəskar bəstəkarlıq məktəbinin yaradıcılarından biridir. İllər ötməsinə baxmayaraq Səfər müəllim musiqi ictimaiyyəti tərəfindən yenə böyük hörmət və etiramla xatırlanır.

Beləliklə, 1951-ci ildə ilk dəfə Pioner və Məktəblilər evinə qədəm qoyan gənc müğənni Yaşar Səfərov ümumtəhsil məktəbini bitirənədək Naxçıvan şəhər Pioner və Məktəblilər evində M.Məmmədovun başçılıq etdiyi «Əlvan çiçəklər» mahnı və rəqs ansamblının aparıcı solistlərindən biri olur. İstər Səfər müəllimin, istərsə də Məmməd müəllimin göstərişlərinə həvəslə və əzmkarlıqla əməl edən gənc ifaçı tez bir müddətdə Naxçıvan

MR məktəbliləri içərisində seçilib-sayılan müğənnilərdən biri, az sonra isə birincisi olur. Gənc müğənninin məlahətli səsi dinləyiciləri heyran edirdi. Naxçıvan şəhərində elə bir tədbir olmurdu ki, Yaşar Səfərov məktəblilərin təmsilçisi kimi orada sevimli mahnıları ilə çıxış etməsin. Həmin mahnılar içərisində S.Rüstəmovun «Mən sülhə səs verirəm», A.Gərayın «Şirvan», S.Rəcəblinin «A dostlar», «Cənnət Ordubad», M.Cavadovun «Naxçıvan», M.Məmmədovun «Gənclik», «Dostluq», M.Ələkbərovun «Doğma Naxçıvan» və bir sıra başqalarını xüsusi məharətlə ifa edən gənc müğənni naxçıvanlıların sevimlisi olmuşdur.

Y.Səfərova ilk böyük və rəsmi uğuru S.Rəcəblinin «Əlvan çiçəklər» mahnı və rəqs ansamblı üçün yazdığı «A dostlar» mahnısı qazandırdı. Həmin mahnının lent yazısı bu gün də Azərbaycan radiosunun uşaq fonotekasında saxlanılır və vaxtaşırı sənətkar haqqında hazırlanan proqramların «uvertürası» kimi səsləndirilir.

Mahnı Naxçıvanda həyata vəsiqə qazandıqdan sonra 1954-cü ildə Bakıda keçirilən Azərbaycan məktəblilərinin bədii özfəaliyyət kollektivlərinin yekun konsertində ifa edilmiş və Naxçıvan məktəblilərinə böyük uğur gətirmişdi. Mahnının solo hissəsinin gözəl ifası Y.Səfərova böyük şöhrət gətirir. Bu uğur ona M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən məktəblilərin yekun konsertində Adil Gərayın «Şirvan» və görkəmli dirijor, maestro Niyazinin idarə etdiyi simfonik orkestrin müşayiəti ilə 500 nəfərlik xorun ifa etdiyi C.Cahangirovun «Partiya» mahnısının solo hissəsini ifa etmək hüququnu qazandırır. Mahnı ifa edildikdən sonra zalda alqış səsləri kəsilmək bilmirdi. Ertəsi gün o dövrün aparıcı qəzetlərindən olan «Kommunist» qəzeti yazırdı: «Naxçıvan şəhərindəki 4 nömrəli orta məktəbin şagirdi Y.Səfərov A.Gərayın «Şirvan» mahnısını məlahətli bir səslə oxudu. Səsindəki coşqunluq və daxili ehtiras onun gələcəkdə istedadlı bir müğənni olacağını göstərir».

«Partiya» mahnısına gəldikdə isə qeyd etməliyəm ki, solisti onlarca ifaçının içərisindən maestro Niyazinin özü bəyənib seçmişdi. Vokal sənətinə dərindən bələd olan maestronun diqqətini hamıdan çox diskant səsə malik Y.Səfərov cəlb etmiş və o, solist olaraq məhz Yaşarı irəli sürmüşdü. Konsertin parlaq yekunu Niyazi uzaqgörənliyini bir daha nümayiş etdirdi.

Qazanılan bu nailiyyəti, eyni zamanda, Naxçıvan musiqi mədəniyyəti tarixinə gözəl salnamələr yazmış «Böyük üçlüyün» - pioner və məktəblilər evinin direktoru İdris Səlimovun, kollektivin bədii rəhbəri Məmməd Məmmədovun, instrumental ansamblının üzvlərini və müğənnilərini bir-bir hazırlayan Səfər Rəcəblinin nailiyyəti kimi qiymətləndirmək lazımdır. Belə ki, əlli ildən artıq bir müddət ərzində bu yaradıcı üçlüyün fəaliyyəti Naxçıvan musiqi mədəniyyətinin inkişafına öz layiqli töhfəsini vermiş və verməkdədir.

Olimpiadadakı gözəl çıxışlarına görə Yaşar Səfərov mükafatlandırılaraq Beynəlxalq «Artek» pioner düşərgəsinə istirahətə göndərilir. Bu fakt həm də naxçıvanlı vokal ifaçılarının beynəlxalq arenaya ilk çıxışı baxımından çox maraqlıdır.

Orta məktəbi bitirənədək (1957) Y.Səfərov Naxçıvan şəhərində keçirilən dövlət və bədii kütləvi tədbirlərin bir nömrəli iştirakçısına çevrilir. Bundan əlavə, gənc olmasına baxmayaraq Y.Səfərov Naxçıvana Bakı şəhərindən qastrol səfərinə gəlmiş adlı-sanlı müğənnilərlə (Şövkət xanım Ələkbərova, Gülağa Məmmədov və s.) eyni səhnəni paylaşan ilk müğənnilərdəndir.

Y.Səfərovun musiqiçi kimi formalaşmasında bir sıra naxçıvanlı yaradıcı ziyalıların böyük rolu olmuşdur. Onlardan gözəl pedaqoq, təşkilatçı-rəhbər, qabaqcıl maarif işçisi İ.Səlimov, tar, qaval ifaçısı, müğənni, ilk həvəskar bəstəkarlardan hesab edilən S.Rəcəbli, truba sənətinin bayraqdarı, kütləvi xor kollektivlərinin yaradıcısı, bəstəkar M.Məmmədovun pioner və məktəblilər evində Yaşara göstərdikləri qayğı və diqqəti haqqında epizodik olsa da oxuculara məlumat verilmişdi. Bu sıraya Y.Səfərovun kamança sinfi üzrə ixtisas müəllimi, Naxçıvan

musiqi mədəniyyəti tarixində özünə layiqli yer tutmuş Məmməd Ələkbərovun adı xüsusi olaraq əlavə edilməlidir.

M.Ələkbərov əllinci illərin əvvəllərindən başlayaraq Naxçıvanda musiqi mədəniyyətini təbliğ edən, formalaşdıran, pedaqoji və yaradıcı fəaliyyəti ilə musiqimizi inkişaf etdirən ziyalılarımızdan olmuşdur. Məhz onun gərgin səyi nəticəsində Naxçıvanda bu gün də fəaliyyət göstərən iki böyük əhəmiyyətli, yaddaqalan mədəniyyət ocağı yaradılmışdır: Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblı (1959) və Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsi (1978). İkinci təşkilatın yaradılmasında Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Quliyevin fədakar əməyini də qeyd etmək yerinə düşərdi.

Adları sadalanan ziyalılarımızın hər birinin təkcə Y.Səfərovun deyil, ümumilikdə Naxçıvan musiqi mədəniyyəti tarixinin inkişafında, formalaşmasında, püxtələşməsində böyük əməkləri olmuşdur.

Yaşarın məlahətli səsini, gözəl ifaçılıq qabiliyyətini diqqətlə izləyən Məmməd müəllim onu işlədiyi Uşaq Musiqi Məktəbinə təhsil almağa dəvət edir. Yaşarın həvəsi tar çalmağa olsa da Məmməd müəllim onu kamança çalmağa sövq edir, səbəbini də belə izah edirdi: «Musiqi alətlərinin hamısı ifa üçün gözəldir, lakin kamança alətinin üstünlüyü ondadır ki, barmaqların qoyulması üçün pərdəsi olmayan bu alətə yiyələnmək ifaçıdan yüksək səviyyədə eşitmə, qavrama, yaddaş, ritm tələb edir, bu isə hamıya xas olan xüsusiyyət deyil». Məmməd müəllimin bu sözlərinin hikmətini Yaşar yalnız böyük səhnə fəaliyyəti zamanı dərindən hiss etdi. Yaşarın musiqi məktəbi ilə tanışlığı belə başladı...

İxtisasca kamança müəllimi olan Məmməd müəllim Yaşarı öz sinfinə qəbul edir. Kamança sinfində uğurla təhsil almasına baxmayaraq Yaşar Səfərov yaddaşlara bir vokal ifaçısı kimi həkk olunmuşdu. Kamança sinfində aldığı təhsil isə yalnız çətin bir məqamda, A.Zeynallı adına Bakı Orta İxtisas

Musiqi Məktəbinə qəbul imtahanı zamanı Yaşarın köməyinə çatmışdı.

1957-ci ildə 4№-li ümumtəhsil məktəbinin 10-cu, 1 saylı Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin (kamança ixtisası üzrə) 5-ci sinfini bitirən gənc müğənni təhsilini davam etdirmək üçün iki seçim qarşısında idi. Hansını seçməli?.. Bu günədək ona uğur gətirən, sevinc bəxş edən, həyatına rəng qatan vokal ifaçılığını, yoxsa əla qiymətlər aldığı humanitar elmlər üzrə hər hansı bir ixtisası?

Musiqiyə, vokal ifaçılığına olan güclü həvəs Y.Səfərovu Azərbaycanda musiqi elminin beşiyi sayılan A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə gətirib çıxarır. Lakin yaşı kiçik olduğundan və səsində mutasiya ("mutasiya"-latıncadan tərcümədə "dəyişiklik" deməkdir. Vokal ifaçılığında səsin keçid dövrünü ifadə edir) dövrünün başa çatmaması açıq-aşkar hiss edildiyindən, Yaşarın israrla daxil olmaq istədiyi vokal şöbəsinə sənədlərini qəbul etmirlər. Çarəsiz qalan Yaşar sənədlərini məktəbin xalq çalğı alətləri şöbəsinə (kamança ixtisası üzrə) təqdim edir. Qəbul imtahanlarını müvəffəqiyyətlə başa vuran Yaşar məktəbə daxil olur.

İxtisas və muğam fənlərindən Hafiz Mirzəliyevin sinfində dərs alan Yaşar ifaçılıq qabiliyyətinə görə digər şagirdlərdən heç də geri qalmır, əksinə ixtisas fənnindən aldığı yüksək qiymətlər onun gözəl qabiliyyətindən xəbər verirdi. Bunu birinci kurs ərzində ifa olunan əsərlərin ümumi siyahısı da açıq-aydın təsdiq edir: F.Əmirov «Layla», A.Gəray «Şahnazsayağı", O.Ridinq «Konsert», İ.Brams «Macar rəqsi», xalq muğamları «Şüştər», «Rahab» və s.

...İkinci kursun əvvəlləri idi. Yaşar sinifdə fortepianonun müşayiəti ilə «Küçələrə su səpmişəm» Azərbaycan xalq mahnısını ifa edirdi. Birdən qapı açıldı. Otağa məktəbin direktoru Mütəd Əhmədov daxil oldu. Yaşarın gözəl, məlahətli səsi bəstəkarı sanki ovsunlamışdı. "Mən bilmirəm, sən bu səslə niyə vokal şöbəsində oxumursan?" – deyə Mütəd müəllim Yaşara

müraciət etdi: "Səni vokal sinfinə, özü də ikinci kursa qəbul edirəm. Sabahdan gedərsən Firudin Mehdiyevin yanına". Həmin anı Yaşar heç zaman unutmayacaq. İllər boyu həsrətində olduğu sevimli peşəsinə gedən yol özü onun üzünə açılmışdı. O sanki yuxu görürdü. Sevincindən özünü itirən Yaşar Mütəd müəllimə heç əməlli-başlı təşəkkür də edə bilmədi...

Firudin müəllim Yaşarı mehribanlıqla qarşıladı, hətta zarafat da etdi: «Bu nədir, deyəsən, naxçıvanlıların hamısını mənim sinfimə verəcəklər? Eybi yoxdur, biz göstərərik Naxçıvandan necə müğənnilər çıxır!..» İllər keçdi, Firudin müəllimin mehribanlıqla söylədiyi bu sözlər böyük həqiqətə çevrilərək dinləyicilərə sevinc gətirdi.

Lirik-tenor (kiçik oktavanın «lya-si-bemol» səsindən II oktavanın «do» səsinə qədər olan səs diapazonudur) səs tembrinə və diapozonuna malik Y.Səfərovun ibtidai musiqi təhsilinin, səs diapazonunun, səs aparatının refleks hərəkətinin yerində olması, xüsusi ilə də səsləri düzgün intonasiya etməsi Firudin müəllimi çox sevindirirdi. Bu göstəricilərin yerli-yerində olması Yaşarın II kurs tələbələri ilə yanaşı təhsil almasına əsaslı kömək göstərən amillər oldu. Müəlliminin verdiyi əsərlərin ifasına gəldikdə isə Yaşar Səfərov hər baxımdan digər şagirdlərdən çox üstün görünürdü.

Əgər ilk vaxtlar Yaşarın repertuarında Azərbaycan xalq mahnıları və bəstəkarlarının əsərləri üstünlük təşkil edirdisə, zaman ötdükcə onun repertuarı Azərbaycan və Qərb bəstəkarlarının klassik operalarından ariyalar və romanslar hesabına daha da zənginləşdi. Bu əsərlərdən Ü.Hacıbəyovun «Sevgili canan», A.Zeynallının «Ölkəm» romansları, Ü.Hacıbəyovun «Koroğlu» operasından Koroğlunun mahnısı, F.Əmirovun «Sevil» operasından Balaşın ariyası müğənninin yaradıcılıq repertuarında xüsusi yer tuturdu.

Yaradıcılıq taleyi Y.Səfərovu öz axarı ilə aparırdı. Vokal ifaçılıq sənəti istər məktəb daxilində, istərsə də Bakı musiqi ictimaiyyəti arasında Yaşar Səfərova bir müğənni kimi şöhrət

gətirməyə başlamışdı. Bu, müğənninin ciddi vokal ifaçılıq sənətində ilk kövrək addımları idi.

Təsadüfmü və ya Tanrı yazısı idi, amma iş elə gətirir ki, Y.Səfərov 1959-cu ildə Azərbaycan Radio və Televiziya Komitəsinin xor kollektivinə solist olaraq işə qəbul edilir. Böyük sənətkar Səid Rüstəmovla müğənninin ilk yaradıcılıq təmasları da məhz bu dövrə təsadüf edir. Yaşarın ifaçılıq qabliyyətini, gözəl, məlahətli və geniş səs diapazonuna malik olduğunu rəğbətlə qarşılayan dirijor onu orkestrin məşqlərinə dəvət edir. Söhbətlərinin birində Səid müəllim Yaşarın yaradıcılığına olan müsbət münasibətini belə ifadə etmişdi: «Mənim əksər mahnılarımın ilk ifaçıları Şövkət xanım Ələkbərova və Gülağa Məmmədov olmuşlar. Səsin çox xoşuma gəlir, istəyirəm sən də onların davamçısı olasan». Bəstəkarın bu sözləri gənc müğənninin yaradıcılığına verilən qiymətdən çox, onun üzərinə düşən məsuliyyəti bildirirdi.

Bu ehtimadı doğrultmağa çalışan müğənni qısa müddət ərzində bəstəkarın «Ağ çıçəklər», «Yollar», «Bənzərsən», «Nə deyim» mahnılarını ilk dəfə olaraq səsləndirmiş və lentə yazdırmışdı. Səid Rüstəmovun mahnılarının silsilə ifasını davam etdirən müğənni «Şeir deyilmi», «Qurban adına», «Sənindir», «Sevgi mahnısı», «Oxu tar» və s. mahnılarını da ifa etməklə yanaşı, lentə də aldırır.

Təməli Ü.Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan Xalq Çalğı Alətləri Orkestri bir çox dahi sənətkarlarımızın ifaçılıq və yaradıcılıq məktəbinə çevrilmişdi. Orkestrin müşayiəti ilə Azərbaycanın məşhur müğənniləri Bülbül, R.Behbudov, S.Şuşinski, X.Şuşinski, S.Qədimova, Ş.Ələkbərova, G.Məmmədov, Ə.Əliyev, T.İsmayılova, Z.Xanlarova və onlarca başqaları çıxış etmiş, öz yaradıcılıqlarını burada püxtələşdirmişdilər. Bu siyahıya yeni bir ad, Yaşar Səfərovun adı da əlavə edildi. Müğənninin yaradıcılıq tərcümeyi-halında bu dövr əlamətdar hadisələrlə çox zəngindir. İllər ötəcək, Y.Səfərovun Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə ifa

etdiyi əsərlər haqqında monoqrafiyalar yazılacaq, kitablar dərc ediləcəkdir. Orkestrin bədii rəhbəri və baş dirijoru S.Rüstəmovun isə sənəti və yaradıcılığı qarşısında baş əyərək deməliyəm ki, orkestrin parlaq ifaçılıq dövrü məhz onun adı ilə bağlıdır.

1962-ci ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirən Y.Səfərov elə həmin il M.A.Əliyev adına İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu fakültəsinə daxil olur. Yaşarın birdən-birə aktyorluq sənətinə üz tutması ilə bağlı müxtəlif səbəblər göstərilsə də, məncə başlıcası, əmisi, Naxçıvan MR-in Əməkdar artisti, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının artisti Müzəffər Səfərovun yaratdığı obrazların təsiri hesab edilməlidir. Uzun illər teatrda çalışan Müzəffər Səfərov yaratdığı bir çox uğurlu rollarla yadda qalmışdı. Gözəl səsi olduğundan Müzəffər Səfərov əsasən xanəndəlik məharəti tələb edən rolların mahir ifaçısı kimi məşhurlaşmışdır. M.Səfərovun H.Cavidin «Şeyx Sənan» dramında Kor Ərəb, Ü.Hacıbəyovun «Əsli və Kərəm» tamaşasında Kərəm, «O olmasın, bu olsun» musiqili komediyasında müğənni, «Vaqif» tamaşasında xanəndə və bir sıra başqa rollar söylədiklərimin əyani təsdiqidir. Beləliklə, Yaşarın teatra olan böyük məhəbbəti buradan qaynaqlanır desək, səhv etmərik.

İncəsənət İnstitutunda (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dərslər başlar-başlamaz Yaşar ordu sıralarına çağırılır. Bölgüyə əsasən o, qulluq etmək üçün Leninqrad (Sankt-Peterburq) hərbi dairəsinə yola salınır. İlk gündən Yaşarın gözəl səsi olduğunu anlayan komandirlər onun lazımi hissəyə göndərilməsi üçün çox çalışırlar. Nəhayət, gözlənilən gün gəlib çatır, müğənni Leninqrad Hərbi Dairəsinin mahnı və rəqs ansamblına təyin edilir. Həmin günü Y.Səfərov ömrünün ən xoşbəxt günlərindən biri kimi sağlığında yaxşı xatırlayırdı. Çox keçmir ki, müğənni ansamblın aparıcı solistlərindən biri kimi müxtəlif konsertlərdə çıxış etməyə başlayır. Onun ifa etdiyi R.Hacıyevin «Azərbaycan», S.Rüstəmovun

«Alagöz», T.Quliyevin «Bakı» və s. mahnılar ansamblın daimi repertuarına salınmışdı. Ansamblın tərkibində Y.Səfərov keçmiş SSRİ-nin müttəfiq respublikalarında, habelə bir çox xarici ölkələrdə, o cümlədən Kuba, Avstriya, Macarıstan, Polşa, Çexoslovakiya, Finlandiyada çıxış edərək Azərbaycan musiqisini layiqincə təmsil etmişdir. İlk dəfə beynəlxalq pioner düşərgəsində Naxçıvan vokal məktəbini təmsil edən gənc müğənni bu uğuru beynəlxalq səviyyədə inamla davam etdirirdi. Gözəl çıxışlarına görə sıravi əsgər Y.Səfərov dəfələrlə Leninqrad Hərbi Dairəsinin fəxri fərmanlarına, diplomlarına layiq görülmüşdür.

1965-ci ildə hərbi xidməti başa vuran Y.Səfərov doğma Azərbaycana qayıdır. İstər institutda, istərsə də Dövlət Radio və Televiziya Komitəsində Yaşarı mehribanlıqla qarşılayırlar. Səid müəllim hətta onun nə vaxt məşqlərə başlayacağı ilə maraqlanır. Gərgin tələbəlik və iş günləri başlayır.

İncəsənət İnstitutunda yeni obrazlar, S.Rüstəmovun idarəsi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrində isə yeni mahnılar üzərində işləyən Y.Səfərov ağır bir iş rejimində çalışırdı. Yaxşı deyiblər, ağır zəhmətin bəhrəsi şirin olar. Çox çəkmir ki, Yaşar bu bəhrənin şirinliyini «dadmağa» başlayır. Bir-birinin ardınca ifa olunan yeni mahnılar Y.Səfərovu Azərbaycanda dillər əzbəri edir. Müğənninin ifa etdiyi mahnılar hər gün televiziya və radionun müxtəlif proqramlarında dəfələrlə səslənirdi. Təkcə onu demək kifayətdir ki, 70-ci illərin əvvəllərinədək müğənni müxtəlif bəstəkarların 500-dək mahnısını ifa etmiş və lentə yazdırmışdı. İnamla demək olar ki, Y.Səfərov yaradıcılığının intibah dövrünü keçirirdi. Vokal yaradıcılığında müğənninin bir yeni dəsti-xətti də Azərbaycanda çox az ifaçıların müraciət etdiyi duet ifaçılığına müraciət etməsidir. Müğənninin Azərbaycanın xalq artisti Elmira Rəhimova ilə ifa etdiyi mahnı duetləri dediyimə gözəl nümunədir. Ümumiyyətlə, bu dövrdə onun ifa etdiyi mahnılardan bir neçəsini oxucularımıza xatırlatmaq istəyirəm: S.Rüstəmov «Oxu tar», «Qurban

adına», H.Xanməmmədov «Yadıma düşdü», «Sona keçdi», «Gözüm düşdü», S.Ələsgərov «Vətənimdir», «Gözləri nəğməli», N.Məmmədov «Üzmə məni yar», «Göyün yer ulduzları», «Gəl sahilə gedək biz», R.Mirişli «Günəşi gözləyirik», «Səadət» «Ulduzlar», «Dalğalar», «Həyat, söylə, sən kiminsən», «Azərbaycan, yurdum mənim» və s.

1970-ci il Yaşar üçün əsasən iki xoş hadisə ilə əlamətdar olmuşdur. Müğənninin İncəsənət İnstitutunu bitirməsi və elə həmin il Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin solisti kimi məsul işə təyin edilməsi onun ağır zəhmətinin unudulmaz, yaddaqalan bəhrəsi kimi qiymətləndirilməlidir. Aktyorluq sənətinə gəldikdə isə deməliyəm ki, buraxılış imtahan komissiyası qarşısında Ü.Hacıbəyovun «O olmasın, bu olsun» musiqili komediyasında Y.Səfərovun yaratdığı Məşədi İbad surəti aktyorun səhnədə oynadığı sonuncu rolu olmuşdur. Həmin tarixdən etibarən o, bütün yaradıcılıq fəaliyyətini vokal ifaçılığına həsr etmişdir.

1989-cu ildən Y.Səfərov yaradıcılıq fəaliyyətini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində uğurla davam etdirməyə başlayır. Universitetin dosenti kimi o, gənc nəslin vokal sənətinə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmir. Yaşar müəllimin dərs dediyi tələbələr artıq bu gün respublikamızda gözəl ifaçılıq fəaliyyətləri ilə müəllimlərinə başucalığı gətirirlər.

Yaşar Səfərovun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Müğənni 1974-cü ildə Naxçıvan MR, 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adlarına, 2002-ci ildə isə Prezident təqaüdünə layiq görülmüşdür. 2007-ci ildə qəfil ölüm Yaşar Abutalıb oğlu Səfərovu aramızdan apardı. Allah ona rəhmət eləsin, ruhu şad olsun.

# NAZİM KAZIM OĞLU KAZIMOV
# (1950)



Nazim Kazımov 4 aprel 1950-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası Kazım Kazımov sayılıb-seçilən ziyalılardan olmuş və təhsilinə, təşkilatçılıq bacarığına, insanlarla doğru-düzgün davranışına görə ömrünün çox hissəsini müxtəlif vəzifələrdə şərəflə çalışmışdır. Ailənin altı övladından dördünün ali, ikisinin orta ixtisas təhsilli olmasında Kazım müəllimin böyük əməyi olmuşdur. Övladlarından ikisinin–Hüseynlə Nazimin namizədlik dissertasiyası müdafiə edərək elmlər namizədi alimlik dərəcəsinə layiq görülməsi onu hədsiz sevindirirdi. Kazım müəllim dünyanın ağrı-acısını görmüş uzun və mənalı həyat yolu keçmişdir. Bu baxımdan o, cəmiyyətdə doğru mövqedə olmağın yeganə yolunu yalnız vətənə, xalqa layiqli xidmət etməkdə və sadiq olmaqda görürdü. Təsadüfi deyildi ki, Böyük Vətən müharibəsi illərində uzun döyüş yolu keçmiş leytenant Kazım Kazımov vətənə üzüağ, alnıaçıq, çoxlu orden və medalla qayıtmışdı. Bu nailiyyətlərin təməlində isə Kazım Kazımov təhsilin, elmin durduğundan əmin idi və övladlarının, nəvə-nəticələrinin yüksək təhsil almaları üçün ahıl yaşlarında belə onlara dəstək olmaqdan yorulmurdu.

Nazimin uşaqlığı belə bir mühitdə keçmiş və qardaş-bacıları kimi o da elmə, təhsilə məhəbbət hissi ilə böyümüşdür. Balaca Nazimi qardaş-bacılarından fərqləndirən tək cəhət onun musiqiyə, incəsənətə olan tükənməz həvəsi idi. Bu da yəqin ki, ona irsən keçmişdi. Dayısı, sənətşünaslıq doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının muxbir üzvü, Azərbaycan təsviri sənətinin inkişafının müxtəlif dövrləri və problemləri, Orta əsr Azər-

baycan rəssamları Sultan Məhəmməd, Məhəmmədi, Mir Seyid Əli, Sadiq bəy Əfşar, Mir Möhsün Nəvvab və başqalarının yaradıcılığı haqqında tədqiqatlar aparmış, bir sıra monoqrafiyalar, çoxlu sayda elmi məqalələrin müəllifi Kərim Cabbar oğlu Kərimovun yaradıcılığı bu işin bariz nümunəsi kimi göstərilə bilər. Cəsarətlə demək olar ki, görkəmli alim yaradıcılığı ilə gənc musiqiçiyə örnək olmuş və onun bu sahədə püxtələşməsinə müsbət təsir göstərmişdir.

Günü-gündən musiqiyə artan həvəs Nazim Kazımovu 1961-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinə gətirir. Burada o, ixtisas müəllimi Sahib Axundov, muğam ustadı Vahid Axundovdan mükəmməl təhsil alır. Eyni zamanda, gənc tarzən Naxçıvan şəhər Pioner və Məktəblilər evinin (Heydər Əliyev-Uşaq Gənclər Yaradıcılıq Mərkəzi) tar dərnəyində ustad pedaqoq Səfər Rəcəbovdan da tar çalmağın sirlərini öyrənir. Çox keçmir ki, balaca istedad məharətli ifası ilə müəllimlərin diqqətini cəlb edir. O zamanlar Azərbaycan tar məktəbinin qüdrətli yetirmələrindən Əkrəm Məmmədov Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində təhsil alırdı. Onun layiqli davamçıları kimi isə müəllimlər gənc istedadlar Nazim Kazımov və Ələkbər Ələkbərovu göstərirdilər.

Nazim Kazımov musiqi məktəbinin proqramını çox asanlıqla mənimsəyir, boş vaxtlarını isə Pionerlər evinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının məşqlərində keçirirdi. Əslində Məmməd Məmmədovun rəhbərliyi altında müxtəlif süita və rəqsləri repertuarında səsləndirən kollektiv XX əsrin 50-ci illərinin əvvəllərindən gənc ifaçıların sınaq məktəbinə çevrilmişdi. Ansamblda yalnız gözəl musiqi duyumuna, yüksək ifaçılıq texnikasına malik məktəblilər iştirak edirdilər. Nazimin də bu ifaçılar arasında özünəməxsus, layiqli yeri var idi.

Gözəl repertuara malik "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı bir çox dövlət tədbirlərində, festivallarda uğurlu çıxışları ilə yadda qalmışdır. Kollektiv tez-tez Bakıya, SSRİ-nin müxtəlif şəhərlərinə səfərlər edərdi. Belə səfərlərdən biri də 1962-ci ildə

Soçi kurort şəhərinə oldu. Naxçıvanlı məktəblilər pansionat və sanatoriyalarda rəngarəng konsertləri ilə Naxçıvanı, bütün Azərbaycanı layiqincə təmsil edirdilər. Qeyd etməliyəm ki, balaca Nazim də bu tədbir və səfərlərin daimi iştirakçısı kimi konsertlərin yüksək səviyyədə keçməsi üçün əlindən gələni əsirgəmirdi.

İllər ötdükcə Nazim böyüyür, sənət aləmində daha da püxtələşirdi. Orta məktəbdə də yaxşı oxuyan gənc tarzən məktəbi bitirdikdən sonra bir ara təhsilini harada davam etdirəcəyinə qərar verə bilmirdi. Sonda musiqiyə olan böyük həvəsi onu bu sənətin ardınca aparmış və o, 1966-cı ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə daxil olmuşdu. Qısa müddət ərzində Nazim Kazımov gözəl pedaqoq Ağasaleh Abbasəliyevin rəhbərliyi ilə ifaçılıq qabiliyyətini xeyli artırmış və ümidverici şagirdlər sırasında adını möhkəmləndirmişdi. Muğam müəllimi Elxan Müzəffərovdan isə milli dəyərlərimizin ifadəsi olan muğamı ustalıqla mənimsəyərək gələcək nəslə çatdırmaq üçün yaddaşına həkk edirdi. Müşahidə dərslərində Nazim Kazımov xanəndə Nəriman Əliyevin sinfində gənc xanəndələri ustalıqla müşahidə edərək sinif və muğam müəllimlərinin etimadını layiqincə doğruldurdu. Burada gənc musiqiçiyə xas olan belə bir dəyəri xüsusi qeyd etmək istəyirəm. Harada və neçə yerdə oxuyub işləməsindən asılı olmayaraq N.Kazımov həm dərslərinin, həm də işinin öhdəsindən bacarıqla gəlirdi. Gərgin tədris və əmək fəaliyyətinə baxmayaraq o, 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə də daxil olur. Beləliklə, Nazim Kazımov Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində, Azərbaycan Dövlət Universitetində təhsil almaqla yanaşı, Əli Bayramlı şəhər Uşaq Musiqi Məktəbində də bacarıqla müəllimlik edirdi. Böyük zəhmət hesabına Nazim müəllim bu işlərin üçünü də bir arada tutmağa nail olmuşdu.

1978-ci ildə Nazim Kazımov Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. Burada o, görkəmli bəstəkar, dirijor, gözəl pedaqoq, Azərbaycan tar məktəbinin yaradıcısı, Üzeyir bəy yadigarı Səid Rüstəmovun sinfində dərs alır.

Görkəmli ustadın həyat və yaradıcılığı haqqında Nazim müəllim "Səid Rüstəmov" (Bakı, 2007) monoqrafiyasında oxuculara dolğun və ətraflı məlumat verir. Mən yalnız onu qeyd etmək istəyirəm ki, Səid müəllimin sinfində təhsil almaqla Nazim Kazımov bir ömürdə neçə ömür yaşamış oldu. Bunu isə uca Tanrı tərəfindən ona bəxş edilmiş xoş sənətkar ömrü kimi dəyərləndirmək olar.

1992-ci ildə Nazim müəllim Azərbaycan Respublikası Təhsil Nazirliyində inspektor vəzifəsinə işə təyin edilir. Yeni təyinat çətin dövrə təsadüf etsə də bacarıqlı mütəxəssis işinin öhdəsindən layiqincə gəlmiş, nəzarət etdiyi sahənin geriləməsinə yol verməmişdir. Burada çalışdığı doqquz il ərzində Nazim Kazımov yalnız yüksələn pillə üzrə addım-addım irəliləyir: inspektor, aparıcı mütəxəssis, baş mütəxəssis, idarə rəisinin müavini.

Gərgin əmək fəaliyyəti ilə yanaşı, gözəl mütəxəssis təhsilini, elmini artırmaq üçün durmadan çalışırdı. 1997-ci ildə o, "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi adına layiq görülür. Uğurlu alimlik və əmək fəaliyyəti tezliklə Nazim müəllimin yeni iş yerinə təyin edilməsinə səbəb olur. O, 2001-ci ildə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə direktor təyin edilir. Qısa müddət ərzində Nazim Kazımov bu böyük məsuliyyətli işin öhdəsindən bacarıqla gələrək kollecdə təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin ifaçılıq qabiliyyətinin artırılması, muğam ifaçılıq sənətinin inkişaf etdirilməsi və onlarla yeni-yeni layihələrin həyata keçirilməsi işində gərəkli uğurlara imza atır. Ən önəmli layihələrdən biri də Asəf Zeynallı adına Bakı Musiqi Kollecinin yaradılmasının 110 illik yubileyinin keçirilməsi olmuşdur. Bununla bağlı keçirilən təntənəli tədbirlər respublikanın bütün bölgələrində maraqla izlənilmiş və əhalinin rəğbətini qazanmışdır. Yubileylə bağlı maraqlı töhfələrdən biri isə Nazim müəllimin "Musiqi Kolleci-110" (Bakı, 2008) monoqrafiyası olmuşdur. Monoqrafiyada müəllif kollecin 110 illik fəaliyyətini ətraflı işıqlandıraraq oxuculara çox

dəyərli məlumatlar vermişdir. Yeri gəlmişkən qeyd etməliyəm ki, Nazim Kazımov gərgin iş cədvəlinə baxmayaraq elmi yaradıcılığına bir an da olsun ara verməmiş və son illər Azərbaycanın mədəni həyatına dair 5 monoqrafiya, 3 həmmüəllifi olduğu dərs vəsaiti, onlarla elmi-publisistik məqalə yazmışdır. Göründüyü kimi, Nazim müəllim bu gün də yorulmadan yaradıcılıq fəaliyyətini davam etdirir. O, Azərbaycan Milli Konservatoriyasının professoru kimi üzərinə düşən vəzifənin öhdəsindən şərəflə gəlir. Fərəhli haldır ki, dövlətimiz professorun əməyini layiqincə qiymətləndirərək onu 2006-cı ildə Azərbaycan Respublikasının "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görmüşdür.

# ADIGÖZƏL MƏMMƏDHÜSEYN OĞLU ƏLİYEV (1943)



1943-cü il avqust ayının 22-də Naxçıvan şəhərində, indiki İdris Məmmədov küçəsi, ev 47-də Məmmədhüseyn kişinin ailəsində bir oğlan övladı dünyaya gəlir. Məmmədhüseyn kişi Münəvvər xanımla götür-qoy edərək canından çox sevdiyi körpə oğluna atası Adıgözəlin adını verir. Dini adət-ənənələrə uyğun olaraq uşağın qulağına adı oxunan zaman körpə ruhani babanın avazını dinləyirmiş kimi sakitləşmiş və sonadək səsini çıxarmamışdır. Gələcək musiqiçinin bu dünyada ana laylasından sonra eşitdiyi ilk şirin avaz müqəddəs Qurani-Kərimdən oxunan həmin ayə olmuşdur.

Adıgözəl böyüdükcə onda musiqiyə olan həvəs daha da artır və onun musiqi istedadı tədricən ətrafdakıların diqqətini cəlb edirdi. Uşaqlıq şıltaqlığı ilə taxta parçasının üzərinə boş konserv qabı yerləşdirib üzərindən əlinə düşən sim keçirərək ondan kamança kimi istifadə edən Adıgözəl artıq hansı musiqi alətini seçdiyini də müəyyənləşdirmişdi. 1950-ci ildə evlərinin yaxınlığında yerləşən Naxçıvan şəhər 2 saylı məktəbin birinci sinfinə daxil olan Adıgözəl burada da musiqi qabiliyyətinə görə həmyaşıdlarından fərqlənirdi. Musiqiyə olan həvəs 9-10 yaşlı Adıgözəli o dövrlər Naxçıvan şəhərində uğurla fəaliyyət göstərən Pionerlər evinin (Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) kamança dərnəyinə gətirir. Dərnəyin fəal üzvlərindən olan Adıgözəl tezliklə Məmməd Məmmədovun rəhbərliyi altında fəaliyyət göstərən "Əlvan çiçəklər" mahnı və rəqs ansamblına üzv olur. Ansamblın repertuarı əsasən iti templi rəqs və süi-

talardan ibarət olduğundan bura yalnız texniki cəhətdən yüksək ifaçılıq qabiliyyətinə malik şagirdlər qəbul edilirdilər. Adıgözəl də tezlklə bu sırada öz yerini tutaraq ansamblda ümid verən gənc musiqiçilərdən hesab edilirdi.

1955-ci ildə musiqi təhsili almaq üçün Adıgözəl o zamanlar Naxçıvan Muxtar Respublikasında yeganə musiqi məktəbi olan Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinə daxil olur. Burada ixtisas üzrə Məmməd Ələkbərov və Ənvər Hüseynovdan dərs alır. Ənvər müəllim çox gözəl kamança müəllimi idi. O, peşəsinin kamil ustadı olaraq dərs dediyi şagirdləri də peşəkar yetişdirməyə çalışırdı. Ənvər müəllimdə sənətə olan bu sevgi və istəyi digər məqamlarla bərabər Adıgözəl özünəməxsus bir tərzdə mənimsəmiş, canına hopdurmuşdu. Bu gün də Adıgözəl müəllimin ifa zamanı (xüsusilə də iti templi əsərlərdə) əks etdirdiyi mimikalar Ənvər müəllimi xatırladır. Alqış bu kimi şagirdlərə ki, öz yaradıcılıqları ilə müəllim və ustadlarına şöhrət gətirirlər.

Məmməd Ələkbərov ixtisasca kamança müəllimi olsa da, nəzəri biliklərə daha çox meyil göstərən bir musiqiçi idi. Şagirdlərə o, ixtisas dərsində də nəzəriyyədən çoxlu suallar verir, solfecio oxudur, fortepianoda müxtəlif akkordlar vuraraq onları oxumağı və ya müəyyənləşdirməyi tələb edirdi. Məmməd müəllim çoxlu misallar gətirməklə şagirdlərin dünyagörüşünü artırmağa çalışırdı. Kim bilir, bəlkə də Adıgözəlin uşaqlıqdan nəzəri fənləri dərindən mənimsəməsinə, sevməsinə bütün bunlar səbəb olmuşdu.

1962-ci ildə musiqi təhsilini artırmaq və musiqi elminə dərindən yiyələnmək arzusu gənc musiqiçinin Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin kamança sinfinə qəbulu ilə nəticələnir. Burada o, ixtisasdan Tərlan Qazıyevadan, muğam fənnindən Hafiz Mirzəliyevdən, digər fənlərdən isə (alətşünaslıq, orkestrləşdirmə və s.) Adil Gəray, Müdhəd Əhmədov, Dadaş Dadaşovdan dərs

alır. Müəllimlərdən hər birinin Adıgözəlin bir sənətkar kimi püxtələşməsində xeyli əməyi olmuşdur. Musiqi elminin zirvəsini fəth etmək üçün Adıgözəl xalq çalğı alətləri şöbəsində oxuya-oxuya ali təhsilini tam başqa istiqamətdə musiqi nəzəriyyəsi və tarixi üzrə davam etdirməyə qərar verir. Uşaqlıqdan hər iki sahədə müfəssəl biliyə sahib olmaq arzusu ilə yaşayan Adıgözəl burada da ənənəsinə sadiq qalır. Bu da onun elmə olan böyük sevgisindən irəli gəlirdi. O, elm aləmində durmadan yüksəlmək eşqi ilə daima yaşamış və bu gün də yaşayır. Beləliklə, Adıgözəl Əliyev 1966-cı ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının musiqi tarixi və nəzəriyyəsi şöbəsinə daxil olur. Təhsil müddətində A.Əliyev müxtəlif konfranslarda, tələbə elmi-praktiki simpoziumlarında maraqlı, yaddaqalan məruzələri ilə müəllim və tələbələrin diqqətini cəlb edirdi. Təsadüfi deyildi ki, Məmmədsaleh İsmayılov Azərbaycan xalq musiqisinin əsasları fənni üzrə çıxış etmək üçün mövzuların hazırlanmasını əksər halda Adıgözəl Əliyevə həvalə edirdi. Müəllilmləri X.Məlikov, A.Tağızadə, B.Hüseynli və başqaları Adıgözəl Əliyev haqqında fəxrlə söhbət açardılar. Bu etimadı Adıgözəl konservatoriyanı uğurla bitirməklə (1971) doğruldur. Onun Azərbaycan Respublikasının Xalq artisti, professor, Prezident təqaüdçüsü Ramiz Zöhrabovun rəhbərliyi altında "Süleyman Ələsgərovun xalq çalğı alətləri orkestri üçün yazılan əsərləri" mövzusunda yazdığı diplom işi dövlət imtahan komissiyası tərəfindən yüksək qiymətləndirilir. Gərgin əməyinin bəhrəsi olaraq Adıgözəl Əliyev Azərbaycan musiqi ictimaiyyətinin ağsaqqallarından biri, görkəmli bəstəkar, professor, Azərbaycan Respublikasının Xalq artisti Süleyman Ələsgərov tərəfindən konservatoriyaya dərs demək üçün dəvət olunur. O dövrdən ağır, lakin şərəfli müəllimlik fəaliyyətini ləyaqətlə davam etdirən Adıgözəl müəllim ötən illər ərzində gözəl nailiyyətlər əldə etmişdir. Bu sırada söz yox ki, ilk növbədə Adıgözəl Əliyevin yetirmələri, tələbələr durur. Onun

dərs dediyi bir çox tələbələr müxtəlif müsabiqələrin qalibi, mükafatçısı olmuşlar. Belə tələbələrdən Ceyhun Muradovun, Vəfa Cəfərovun, Mehriban Qasımovanın və başqalarının adlarını çəkmək olar. Adıgözəl müəllim bununla yanaşı respublika miqyaslı festivalların, konfransların, müxtəlif müsabiqələrin, yaradıcılıq gecələrinin təşkilatçısı, münsiflər heyətinin üzvü olmuş və yüksək təşkilatçılıq qabiliyyətinə görə dəfələrlə Azərbaycan Mədəniyyət Nazirliyinin fəxri fərmanlarına, təşəkkürünə layiq görülmüşdür.

Dərin nəzəri biliklərə malik olan Adıgözəl müəllimin Azərbaycan xalq musiqisinin əsasını təşkil edən muğam və xalq mahnılarının təbliği sahəsində də böyük xidmətləri olmuşdur. 1964–1976-cı illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsi nəzdində respublikanın Əməkdar artisti Əhsən Dadaşovun rəhbərlik etdiyi "Xatirə" xalq çalğı alətləri ansamblında çıxış edən Adıgözəl Əliyev üçlük tərkibində (Ramiz Quliyev, Adıgözəl Əliyev, Tahir Hüseynov) görkəmli sənətkarlar Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Əbülfət Əliyev, Zeynəb Xanlarova, Qulu Əsgərov, İslam Rzayev və başqaları ilə bir çox ölkələrdə: Hindistan, Əlcəzair, Suriya, Polşa, Fillandiyada Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

Burada Adıgözəl müəllimin taleyinə düşən bir xoş məqamı da sizlərə çatdırmaq istəyirəm. Sovetlər birliyi dövründə çox az musiqiçiyə nəsib olardı ki, (xüsusilə də müsəlman respublikasının nümayəndəsi kimi) xarici dövlət başçısı, prezidenti ilə görüşsün, onunla əl tutub söhbət etsin. Bu xoşbəxtlik Adıgözəl müəllimə nəsib olmuşdur. 1979–1982-ci illərdə Yəmən Ərəb Respublikasında Ədən incəsənət institutunda işlədiyi zaman bu ölkənin prezidenti ilə, Elmira Rəhimova ilə Hindistana səfəri zamanı isə Hindistanın prezidenti İndira Qandi ilə görüşmək ona nəsib olmuşdur.

Adıgözəl müəllim uzun illərdir ki, yorulmadan, fədakarcasına çalışır. İstər müəllim, istər ifaçı, istərsə də bir rəhbər kimi Adıgözəl Əliyev həmişə kollektivin etibarını, hörmətini qazanmışdır. Asəf Zeynallı adına Bakı Musiqi Kollecində Adıgözəl müəllimin rəhbərlik etdiyi xalq çalğı alətləri şöbəsində çalışan müəllimlərin əksəriyyəti Azərbaycan Respublikasının ən yüksək fəxri adlarına layiq görülmüş sənət adamlarıdır. Burada xalq, əməkdar artistlərin adlarını saymaqla qurtarmaq olmur. Bu sırada Əlibaba Məmmədov, Arif Babayev, Canəli Əkbərov, Ağaxan Abdullayev, Mənsur İbrahimov, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Fəxrəddin Dadaşov, Alim Qasımov, Gülyaz Məmmədova və onlarla başqalarını görmək olar. Bu kimi sənətkarların yer aldığı kollektivə rəhbərlik etmək doğrudan da çətin, lakin şərəfli bir vəzifədir. Gəlin bu işdə Adıgözəl müəllimə yeni-yeni əmək və yaradıcılıq uğurları arzulayaq. Yolun açıq, ömrün uzun olsun!!!

# AFƏT MƏMMƏDCƏFƏR OĞLU NOVRUZOV (1943)



1943-cü ilin Novruz bayramı Məmmədcəfər kişinin ailəsi üçün ikiqat bayram oldu. Mart ayının 23-də ailənin yeni övladı dünyaya gəlmişdi. Ağır müharibə şəraitinə baxmayaraq körpənin dünyaya gəlişi qohum-əqrəbanın, dostların qonşuların sevincini birə-on artırmışdı. Hamı körpənin qədəmlərinin uğurlu olmasını, müharibənin tezliklə qurtarmasını Allahdan diləyirdi. Körpəyə Afət adı verildi və onun gələcəkdə vətənin layiqli oğlu olmasını arzuladılar. Məktəb vaxtı çatdıqda balaca Afət Naxçıvan şəhərindəki 4 saylı orta məktəbin birinci sinfinə daxil oldu. Afətin musiqiyə olan həvəsi tədricən özünü göstərməyə başlayırdı və o, həmyaşıdları ilə tez-tez yolunu Naxçıvan şəhərindəki Pionerlər evinə (Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) salırdı. Burada fəaliyyət göstərən "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı, xalq çalğı alətləri ansamblı və orkestri Afəti məftun edirdi. Çox çəkmir ki, Afət Pionerlər evinin musiqi dərnəyinə üzv yazılır. Buradakı musiqi mühiti Afətin taleyini özünə bağlayır və o, nəyin bahasına olursa olsun musiqiçi olmağa qərar verir. Tar çalmağı ilk dəfə mərhum sənətkar, gözəl müəllim Səfər Rəcəbovdan öyrənən Afət Novruzov bir neçə il musiqi dərnəyində tar çalmağın sirlərinə yiyələnir. Lakin musiqi təhsili almaq arzusu balaca Afəti Naxçıvan şəhər Musiqi Məktəbinə gətirir və o, 1956-cı ildə məktəbin birinci sinfinə qəbul olunur. Burada o, ixtisas fənnini Rəşid Məmmədovdan, muğamatın dərinliyini isə Yusif Əliyevdən sevə-sevə

öyrənir. Çox keçmir ki, mükəmməl ifaçılıq qabiliyyətinə yiyələnən Afət Novruzov əmək fəaliyyətinə başlayır. O, musiqi məktəbində oxuya-oxuya (1960-1961) Naxçıvan şəhər Pionerlər evində, Naxçıvan Dövlət Dram Teatrında, Naxçıvan mahnı və rəqs ansamblında işləyir. 1961-ci ildə musiqi məktəbini bitirən Afət Novruzov Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə (Musiqi Kollecinə) daxil olur. Burada o, ixtisas üzrə Məmməd Quliyevdən, muğam üzrə isə muğam ustadı Əlikrəm Hüseynovdan dərs alır. Dirijorluq, orkestrləşdirmə fənləri üzrə isə Azərbaycanda sayılıb-seçilən müəllimlər Rəşid Əfəndiyev, Şəmsi Kərimov, Dadaş Dadaşov, Adil Babayev və s. sinfində məşğul olur.

1965-ci ildə təhsilini başa vuran Afət müəllim özünü tamamilə musiqi ifaçılığına və müəllimlik fəaliyyətinə həsr edir. 1964-cü ildən Bakıda bir musiqiçi kimi tanınmağa başlayan Afət Novruzov Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, Əhsən Dadaşov, Hacı Məmmədovun rəhbərlik etdikləri xalq çalğı alətləri ansamblarında, Bakı, Xaçmaz, Dəvəçi musiqi məktəblərində səmərəli əmək fəaliyyəti göstərir.

1967-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Musiqi Akademiyasına) qəbul olan Afət müəllim burada zəmanəmizin görkəmli bəstəkarı, dirijoru, pedaqoqu Səid Rüstəmovdan dərs alır. Pedaqoji elmə böyük həvəs göstərən Afət müəllimin adı tezliklə Bakı şəhərində nüfuzlu müəllimlərlə bir sırada çəkilməyə başlayır. Təsadüfi deyil ki, onu 1980-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə, sonra isə Üzeyir Hacıbəyov adına Azərbycan Dövlət Konservatoriyasına işə dəvət edirlər. Müəllimlik fəaliyyəti dövründə Afət Novruzov bir sıra istedadlı musiqiçi yetirmişdir. Onlardan Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi mərhum Arif Quliyev, bəstəkar Vasif Allahverdiyev, Yusif Babayev, Mübariz Quliyev və başqalarını göstərmək olar.

Bütün bunlarla yanaşı, Afət müəllim elmi yaradıcılığa da böyük maraq göstərmiş, musiqi tədrisinə aid bir sıra elmi-publisistik məqalələrin, metodik tövsiyələrin, tar və xalq çalğı alətləri ansamblı üçün köçürmələrin müəllifi kimi tanınmışdır. Onun Üzeyir Hacıbəyovun "Tarın not ifaçılığında rolu", "Azərbaycan bəstəkarları və tarda not ifaçılığı", Nəriman Məmmədovun "Tar ilə simfonik orkestr üçün konsert", Səid Rüstəmovun "Tar dərsliyi" haqqında elmi-publisistik məqalələri, ifaçılarımızın portretləri silsiləsindən məşhur tarzən Əhsən Dadaşov, Murtuz Mehdiyevə həsr etdiyi "Həyatı duyğularla görən sənətçi", bəstəkar Vasif Allahverdiyevin "Qarabağ balladası"na, muğam bilicisi Vamiq Məmmədəliyevə həsr etdiyi "Ustad tarzən, təcrübəli pedaqoq, muğam bilicisi", Məmmədağa Kərimova həsr etdiyi "Sənət zirvəsində" məqalələri musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır.

Tədrislə bağlı Afət müəllim bir sıra elmi-metodiki vəsaitlər hazırlamış və sevindirici haldır ki, bu tədris vəsaitləri istər musiqi kollecində, istərsə də Milli Konservatoriyada dərs vəsaiti kimi bu gün də istifadə olunmaqdadır. Belə tədris vəsaitlərindən Hacı Xanməmmədovun "Tar ilə simfonik orkestr üçün bir və üç nömrəli konsertlər"ini, S.Ələsgərovun "Tar ilə simfonik orkestr üçün bir nömrəli konsert"ini, C.Verdinin "Riqoletto" operasının mövzuları əsasında "Fantaziya" adlı metodiki tövsiyələrini göstərmək olar. Elmi fəaliyyətini davam etdirən sənətkar 2002-ci ildə Azərbaycan Respublikasının Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabovun rəhbərliyi ilə "Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkar əsərlərinin rolu" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsi adına layiq görülmüşdür. Afət müəllim 2004-cü ildən Azərbaycan Milli Konservatoriyasının xalq çalğı alətləri şöbəsinin dosenti vəzifəsində çalışır. Bu çətin işdə ona uğurlar arzulayır, "yolun açıq olsun" deyirik.

# ABDULLA MƏMMƏDƏLİ OĞLU ABDULLAYEV (1942-2007)

*Yaradıcılıq tərcümeyi-halından...*



Abdulla Məmmədəli oğlu Abdullayev 1942-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1959-cu ildə Naxçıvan şəhər 4 saylı ümumtəhsil məktəbini bitirmişdir.

1960-cı ildən Naxçıvan şəhər Pioner və Məktəblilər Evində (Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) kamança dərnəyində müəllim, Naxçıvan Dövlət mahnı və rəqs ansamblında kamança ifaçısı kimi əmək fəaliyyətinə başlamışdır.

1962-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə daxil olmuş, 1966-cı ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. 1965–1966-cı illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı tərkibində Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ukrayna və Rusiyanın bir çox şəhərlərində qastrol səfərlərində olmuşdur.

1966–1971-ci illərdə Bakı şəhər 4 və 12 saylı uşaq musiqi məktəblərində, Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində müəllim kimi fəaliyyət göstərmişdir.

1971-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında işləyərkən Azərbaycanın əksər rayonlarında qastrol səfərlərində olmuş, xalq artistləri Əbülfət Əliyev, Şövkət Ələkbərova, Sara Qədimova, Əlibaba Məmmədov, İslam Rzayev, Yaqub Məmmədov kimi xanəndə və müğənniləri müşayiət etmişdir.

1973-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi münasibətilə Gürcüstan və keçmiş SSRİ-nin bir sıra respublikalarında korifey sənətkarlar Zeynab Xanlarova, Lütfiyar İmanov, Nəsibə Zeynalova,

Mehdi Məmmədov, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Adil İsgəndərov və başqaları ilə birlikdə müxtəlif tədbirlərdə iştirak etmişdir.

1976-cı ildə respublikanın Xalq artisti İslam Rzayev və Ramiz Quliyevlə birlikdə Türkiyədə qastrol səfərlərində olmuşdur.

1977-ci ildə Xalq artisti, tarzən Əliağa Quliyev, müğənnilərdən Elmira Rəhimova, Teymur Mustafayev və başqaları ilə Polşanın Poznan şəhərində keçirilən beynəlxalq sərgidə SSRİ pavilyonunda uğurlu çıxışları ilə yadda qalmışdır. İngiltərədə Xalq artisti İslam Rzayev, Həbib Bayramov, rəqqasə Afaq Məlikova ilə Oktyabr inqlabının 60 illik yubileyi münasibətilə təşkil edilmiş şənliklərdə iştirak etmişdir.

1978-ci ildə Azərbaycan Konsert Birliyi yaradılarkən respublikanın Xalq artisti Əlibaba Məmmədovun dəvəti ilə "Humayun" ansamblında kamança çalan və skripkaçı kimi fəaliyyət göstərmişdir.

1981-ci ildən Əməkdar artist Məmmədbağır Bağırzadənin "Dilkəş" ansamblında çalışmışdır.

1988-ci ildə Macarıstanda keçirilən Azərbaycan mədəniyyət günlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Televiziya və Radiosunda bir çox tanınmış xanəndə və müğənniləri müşayiət etmişdir.

Abdulla Məmmədəli oğlu Abdullayev 1992-ci ildən Bülbül adına Orta İxtisas Musiqi Məktəbində işləmişdir. Bu dövr ərzində onlarla ifaçıya dərs demiş, onların bir sənətkar kimi püxtələşməsində önəmli rol oynamışdır. O, kamança alətinin təkmilləşdirilməsi işində bir sıra yeniliklər həyata keçirmişdir. Kamança alətinin səsini gücləndirmək məqsədi ilə Abdulla Abdullayev yeni texniki vasitələr icad etmişdir. Bu onun musiqi alətinə dərindən bələd olmasının və professional yaradıcılığının bəhrəsidir.

Abdulla Məmmədəli oğlu Abdullayev "Əmək Veteranı" medalı ilə təltif olunmuşdur.

Abdulla Məmmədəli oğlu Abdullayev 2007-ci il 23 noyabr tarixində uzun sürən şəkərli diabet xəstəliyindən dünyasını dəyişmişdir.

# NAZİM PAŞA OĞLU QULİYEV
# (1950)



1950-ci ilin isti yay günləri idi. Paşa müəllimin ailəsində qız övladından sonra bir oğlan uşağı dünyaya gəlir. Bir neçə il oğlan övladı həsrəti ilə yaşayan Səkinə xanımla Paşa müəllim istəklərinə çatdıqları üçün nəzir-niyaz paylayaraq Allaha dualar edirdilər. O anlar gənc ata-ananın ağlına belə gəlməzdi ki, körpə Nazimdən sonra Allah-təala onlara daha iki oğlan uşağı nəsib edəcəkdir...

Bir ziyalı kimi Paşa müəllim övladlarını yaxşı tərbiyə etmək, onlara mükəmməl təhsil vermək, cəmiyyətə, vətənə layiqli vətəndaş yetirmək üçün əlindən gələni əsirgəmirdi. Müxtəlif vəzifələrdə işləməsinə baxmayaraq Paşa müəllim övladlarını sadə xarakterli, işgüzar, səmimi, məqsədlərinə çatmaq üçün sözün yaxşı mənasında prinsipial böyüdə bilmişdir. Dövrünün qabaqcıl ziyalılarından olan Paşa müəllim övladlarının ana dili ilə yanaşı, digər dilləri də bilmələrini vacib sayırdı. Məhz bu məqsədlə də o, qızı Sevil xanımdan sonra oğlu Nazimin də sənədlərini 1957-ci ildə Naxçıvanda "rus məktəbi" adlandırılan A.S.Puşkin (V.Zeynalov) adına şəhər 3 saylı orta məktəbin birinci sinfinə verir.

Balaca Nazimin musiqiyə, ümumiyyətlə, yaradıcılığa olan həvəsi iki amil əsasında formalaşmışdır. Uşaqlığından nənəsi Tükəzban xanımın nəvazişi ilə böyüyən Nazim baba ocağında böyük yaradıcılıq mühiti ilə əhatə olunmuş və özü də hiss etmədən bu hissləri yaşamağa başlamışdır. Dayıları, Azərbaycan Respublikasının Xalq artisti Əkbər Qardaşbəyov və gözəl

rəssam Abuzər Qardaşbəyov Nazimdə də musiqiyə, incəsənətə böyük maraq yaratmışlar. Qeyd etmək lazımdır ki, Əkbər Qardaşbəyov uşaqlıq dostu, Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdcüsü, professor Nəriman Məmmədovla birlikdə musiqi ilə də məşğul olmuşdur. Digər bir musiqi dünyası Nazimi orta məktəbdə əhatə edirdi. O zamanlar məktəbdə musiqi müəllimi işləyən Məmməd Məmmədov yaradıcı fəaliyyəti ilə yüzlərlə şagird kimi Nazimi də ovsunlamışdı. İstər nəğmə dərslərində, istərsə də məktəbdə 60-cı illərin əvvəllərindən başlayaraq keçirilən mahnı bayramlarında balaca Nazim də həvəslə iştirak edərək tədricən sehirli musiqi dünyasını fəth edirdi.

Musiqiyə olan bu istək 13 yaşlı Nazimi Naxçıvan şəhər Pioner və Məktəblilər Evində (Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) fəaliyyət göstərən tar dərnəyinə gətirir. O, unudulmaz sənətkar, gözəl müəllim Səfər Rəcəbovdan tar dərsi almağa başlayır. Bir il sonra 14 yaşlı Nazim Naxçıvan şəhər Musiqi Məktəbinə daxil olur. Burada o, ixtisasdan Sahib Axundov, Rəşid Məmmədov, muğamatdan Vahid Axundov, digər fənlərdən isə Məmməd Məmmədov, Məmməd Ələkbərov, Xəlil Cəfərovdan dərs alır.

Naxçıvan Pioner və Məktəblilər Evinin "Əlvan çiçəklər" mahnı və rəqs ansambılının konsertmeystri kimi 15 yaşlı musiqiçi instrumental heyətin ifasını yüksəltmək üçün kollektivi yorulmadan çalışdırırdı. Gərgin məşqlərin nəticəsi 1966-cı ildə ansamblın Krıma "Artek" beynəlxaq pioner düşərgəsinə səfəri zamanı özünü doğrultdu və Naxçıvandan olan gənc musiqiçilər "Artek" beynəlxalq pioner düşərgəsində keçirilən bütün tədbirlərin sevimli iştirakçısı olmaqla yanaşı, əksər müsabiqələrin qalibi olmuşlar. Söz yox ki, bu uğurda kollektivin bədii rəhbəri Məmməd Məmmədovla yanaşı, xalq çalğı alətləri ansamblının konsertmeysteri Nazim Quliyevin də böyük payı var idi.

İş elə gətirir ki, Nazim Quliyev Naxçıvan şəhər Musiqi Məktəbinin digər fəal, qabiliyyətli şagirdləri kimi heç bir təhsil

almadan 1967-ci ildə yenicə müstəqil musiqi məktəbi statusu almış Culfa şəhər Musiqi Məktəbinə müəllim təyin edilir. Əmək fəaliyyətinə müəllimliklə başlayan gənc musiqiçi işə olan ciddi münasibəti və çalışqanlığı ilə tez bir zamanda məktəbin direktoru Səyavuş Əlizadənin, mədəniyyət şöbəsinin müdiri Ramazan Səmədovun rəğbətini qazanır.

Nazim Quliyevin musiqiyə bağlılığı günü-gündən artaraq onun mənəvi həyatına çevrilirdi. İfaçılıqla yanaşı gənc musiqiçi ilk musiqi əsərlərini də məhz orta məktəb illərində yaratmağa başlayır. Nəhayət, 1968-ci ildə orta və musiqi məktəblərini bitirən Nazim Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin tar sinfinə qəbul olur. İlk gündən verilən tapşırıqları artıqlaması ilə yerinə yetirən Nazim tezliklə müəllimlərin etibarını qazanır. Qeyd etməliyəm ki, orta ixtisas musiqi məktəbində Nazim Quliyevə bir sıra adlı-sanlı müəllimlər, gözəl muğam biliciləri dərs demişlər. Onlardan Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdcüsü Ceyran Haşımova, Adil Gəray (ixtisas), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kamil Əhmədov, Elxan Müzəffərov (muğam), Adil Babayev (orkestr) və başqalarını göstərmək olar. Elxan Müzəffərov haqqında oxuculara onu da çatdırmaq istəyirəm ki, o, Kamil Əhmədovun yetirməsi olaraq uzun illərdi ki, A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində muğamın sirlərini gənc ifaçılara öyrədir. Gözəl muğam bilicisidir. Hətta bir çox ifaçılar məktəbi, konservatoriyanı bitirdikdən sonra və ya orada oxuya-oxuya Elxan müəllimin yanına gəlir, ayrı-ayrı muğamların yaddan çıxmış şöbə və guşələrini, mizrabların belə hansı halda necə vurulmasına qədər (alt, üst, tərs və s.) ondan öyrənirdilər. Elxan müəllim o zamanlar (1969–1974) cavan olmasına baxmayaraq böyük həvəslə tələbələrə yardım edirdi. Onlardan bu gün Azərbaycan Respublikasının Xalq artisti Ağasəlim Abdullayev, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, peda-

qoji elmlər namizədi, professor Nazim Kazımovu və başqalarını göstərmək olar. Çox səmimi, mehriban insan olan Elxan müəllim pedaqoji fəaliyyəti ilə yanaşı uzun illər muğam ustadları Yaqub Məmmədov, Hacıbaba Hüseynovun siniflərində tarzən müşayiətci kimi də dərs aparmışdır. Həmin siniflərdə dərs alan onlarla xanəndə illər boyu Elxan müəllimin müşayiəti altında muğamın sirlərinə yiyələnmişlər.

Nazim Quliyev xalq çalğı alətləri şöbəsində bu kimi gözəl sənətkarlardan dərs almaqla yanaşı, bəstəkarlıq fəaliyyətini də davam etdirirdi. Bəstəkarlıq biliyini təkmilləşdirmək məqsədi ilə o burada bəstəkar İbrahim Mirzəzadədən kompozisiya dərsi alır və çox həvəslə verilən tapşırıqlar üzərində işləyirdi. Demək olar ki, gənc musiqiçi gecə-gündüzünü məktəbdə keçirirdi. Gündüzlər dərsə gələr, axşamlar isə boş siniflərdə verilən tapşırıqları yerinə yetirərdi. 1971-ci ildə Nazim Quliyev əməyinin ilk bəhrəsini görür. O, Bakı şəhərində keçirilən "Oxu tar" müsabiqəsinə təqdim etdiyi "Andiçmə" mahnısına görə birinci dərəcəli diploma layiq görülür. Həmin mahnı bir müddət sonra münsiflər heyətinin üzvü, Azərbaycan Respublikasının Xalq artisti, mərhum İslam Rzayevin ifasında SSRİ Dövlət Səsyazmalar Evində lentə alınmışdır. Nazim Quliyev çox çalışqan və zəhmətkeş insan kimi daim məşq edir, yazdığı yeni mahnıları özü kimi gənc ifaçılara öyrətməkdən zövq alırdı. Sədi, Gülbəniz, Vilayət kimi xanəndə və müğənnilər Nazim Quliyevin tələbəlik illərində yazdığı mahnıların işlənib ərsəyə gətirilməsində xeyli əmək sərf etmişlər.

Yaradıcı şəxslərə xas olan "adətlər" Nazim Quliyevdə də özünü göstərirdi. Yeksənəklik onu tez yorur və o daima yeniliklər axtarışında olurdu. Gənc musiqiçi sanki qurub-yaratmaq eşqi ilə dünyaya gəlmişdi. Nazim müəllim 1972–74-cü illərdə təyinatla Ordubad şəhər Musiqi Məktəbində, 1974–78-ci illərdə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində musiqi redaktoru vəzifəsində işləyir. O, musiqi verilişləri re-

daksiyasına yeni bir ab-hava gətirmiş və burada işlədiyi illər ərzində naxçıvanlı musiqi xadimləri haqqında biri-birindən gözəl verilişlər hazırlayıb tamaşaçılara təqdim etmişdir. Nazim müəllim Naxçıvan televiziyasında ilk dəfə olaraq rayon, şəhər mədəniyyət şöbələrinin bədii özfəaliyyət kollektivlərinin televiziya müsabiqələrini təşkil edir. Bu müsabiqələr televiziya tamaşaçılarının böyük marağına səbəb olmuş, rayonlar arasında güclü yaradıcılıq rəqabəti yaratmışdır.

1978-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olan Nazim Quliyev Bakıya dönür. Yenidən gərgin təhsil illəri başlayır. O, görkəmli pedaqoq, Azərbaycan Respublikasının Xalq artisti, professor Səid Rüstəmovun sinfində oxumaqla yanaşı, bəstəkar Afaq Cəfərovadan bəstəkarlıq dərsi alır. Hər iki sahədə gərgin əmək fəaliyyəti göstərən Nazim Quliyev 1983-cü ildə təhsilini başa vurub təyinatı üzrə doğma Naxçıvana qayıdır. 1998-ci ilədək Naxçıvanda müxtəlif vəzifələrdə çalışan Nazim müəllim böyük yaradıcılıq və quruculuq işləri həyata keçirir. 1983–1988-ci illərdə Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbində müəllim, 1988–1998-ci illərdə Naxçıvan Dövlət Universitetinin musiqi tədrisinin metodikası kafedrasında kafedra müdiri, 1986-cı ildə onun təşəbbüsü və böyük səyi nəticəsində yaradılmış Naxçıvan Xalq Konservatoriyasının rektoru, 1998-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilatının sədri vəzifələrində işləyir. Yeri gəlmişkən qeyd etməliyəm ki, bu təşkilatın yaradılmasında Nazim Quliyevin müstəsna xidmətləri olmuşdur. Bundan əlavə, Naxçıvan musiqi məktəblərində səmərəli xidmətləri ilə fərqlənmiş Məmməd Məmmədov (1 saylı Naxçıvan şəhər UMM) və Səfər Rəcəbovun (3 saylı Naxçıvan şəhər UMM) adlarının göstərilən musiqi məktəblərinə verilməsi və bir sıra başqa xeyirxah işlərin həyata keçirilməsi Nazim Quliyevin adı ilə bağlıdır. Nazim müəllim Bakı şəhərində də bir sıra mühüm vəzifələrdə, o cümlədən 1999-cu ildə

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, 2000–2004-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin direktoru, 2004–2007-ci illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının direktoru vəzifələrində çalışmışdır.

Nazim Quliyev uğurlu yaradıcılığı ilə də diqqəti cəlb edir. Onun simfonik orkestr üçün "Təntənəli" uvertüra, xalq çalğı alətləri orkestri üçün "Nəqşi-cahan" süitası, qarışıq xor və orkestr üçün "Naxçıvan" kantatası, tar və simfonik orkestr üçün "Nəqşi-cahan" konserti (ilk ifaçısı Azərbaycan Respublikasının Xalq artisti, professor Ramiz Quliyev olmuşdur), kamera orkestri üçün "Cavidi düşünərkən", fortepiano üçün "Naxçıvan eskizləri" süitası, variasiyalar, prelüdlər və s. əsərləri buna misal ola bilər. Bu əsərlərdə müəllifin doğma yurdu Naxçıvana sonsuz məhəbbəti, vurğunluğu açıq-aşkar özünü göstərir.

Müəllifin son uğurlu işi 2009-cu ildə tamamladığı və 20 Yanvar şəhidləri, sevgililər İlham və Fərizəyə həsr etdiyi ikipərdəli eyni adlı operadır. Bu opera iki gəncin nakam sevgisindən bəhs etməklə yanaşı, Azərbaycan xalqının qəhrəmanlığını, cəsurluğunu əks etdirən bir sənət əsəridir. Ümumilikdə, Nazim Quliyev 1 opera, 100-dən artıq iri və kiçik həcmli musiqi əsərləri, 3 monoqrafiya, metodiki tövsiyələrin müəllifidir.

Nazim Quliyvin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 2000-ci ildə "Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdür. Nazim müəllim bu gün də pedaqoji və yaradıcılıq işlərini uğurla davam etdirir. Nazim müəllim Azərbaycan Milli Konservatoriyasının dosenti kimi gənc musiqiçi nəslin yetişdirilməsi işində səmərəli fəaliyyət göstərməkdədir. Kim bilir, Nazim müəllim gələcəkdə musiqisevərləri, musiqi ictimaiyyətini daha neçə-neçə gözəl əsərləri və yetirmələri ilə heyran edəcəkdir.

# HƏSƏNAĞA ƏLİ OĞLU QURBANOV (1955-2007)



Haqqında söz açacağım mərhum dostum, sevimli həmkarım, sənəti ilə çoxlarını məftun etmiş, böyük bir coğrafi məkanda (Naxçıvandan Moskvayadək, MDB-də, İran, Türkiyə və s. yerlərdə) özünə çoxlu pərəstişkar qazanmış gözəl dirijor, bəstəkar, pianoçu Həsənağa Qurbanov onu tanıyanların qəlbində fitri istedada malik sənətkar kimi əbədi yer tutmuşdur. Həsənağanın şəxsində biz bir daha əmin olduq ki, harada doğulub boya-başa çatmağından, yaşadığı, təhsil aldığı mühitdən asılı olmayaraq Tanrının insana bəxş etdiyi istedadı görməməzlikdən gəlmək, ona laqeyd münasibət bəsləmək, qarşısına sədd çəkmək olmaz. Əbəs yerə deməyiblər ki, istedadın vətəni olmur. O hamı üçün doğmadır, mehribandır, əzizdir.

Olsun ki, istedadlı insanı incitmək, "ruhdan salmaq" üçün qarşısında süni maneələr yaratsınlar. Lakin unutmaq olmaz ki, istedadı bəxş edən uca Tanrı onun parlamasına, zirvələrə ucalmasına da yol açandır.

Həsənağa Əli oğlu Qurbanov 1955-ci il iyul ayının 20-də Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Yaddaşlarda uzun illər özünə dərin kök salmış "övladlar atasının yolunu tutarlar" ifadəsi burada bir istisna təşkil edir. Düzdür ailənin beş övladından üçü həkim ixtisasına yiyələnmiş, böyük oğlu Hüseynağa Qurbanov isə tibb elmləri doktoru, YUNESKO-nun professoru, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki kimi yüksək fəxri adlara layiq görülmüşdür. Lakin onun necə istedadlı musiqiçi, gözəl akkordeon ifaçısı oldu-

ğunu yaşlı nəsil çox yaxşı xatırlayır. Sözümün qayəsi ondadır ki, musiqi aləmi ilə heç bir əlaqəsi olmayan ailədə yüksək musiqi istedadı ilə sayılıb seçilən övladların ərsyə gəlməsi bu fikrin mütləq olmadığını bir daha sübut edir.

... Balaca Həsənağanın fitri musiqi istedadı onu Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinə gətirir. 1965-ci ildə musiqi məktəbinin fortepiano sinfinə qəbul olan Həsənağa qısa müddət ərzində tədris proqramlarını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, fortepianoda muğamların, xalq və bəstəkar mahnılarının mahir ifaçısı kimi ustad müəllimlərin diqqətini cəlb edir. Qeyd etməliyəm ki, müxtəlif dövrlərdə Naxçıvan musiqi məktəbində təhsil aldıqlarına baxmayaraq pianoçulardan haliyədə Türkiyədə çalışan Müzəffər Əsgərov və Həsənağa Qurbanovun adları bir çox hallarda yanaşı çəkilərdi. Məhz gözəl ifaçılıq qabiliyyətlərinə görə gənc pianoçu 15-16 yaşlarından C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında, şəhər mədəniyyət evində və bir sıra klub, müəssisələrdə pianoçu kimi fəaliyyət göstərirdi.

Həsənağa Qurbanovla bir musiqiçi kimi mənim ilk tanışlığım belə olmuşdur. 1970-ci il fevral ayının sonları idi. Azərbaycan Respublikası Həmkarlar Şurasının xətti ilə rayonlarda fəaliyyət göstərən həmkarlar təşkilatları bədii özfəaliyyət kollektivlərinə baxış keçirmək üçün bir qrup musiqiçi rayonlara ezam edildi. Bir zamanlar Müslim Maqomayev adına Bakı Dövlət Filarmoniyasında Mahnı və Rəqs ansamblının xormeystri, sonralar isə respublika tibb işçiləri mədəniyyət evində, Bayıl mədəniyyət evində xormeystr işləmiş Hacıbaba müəllimin məsləhəti ilə məni də Naxçıvana ezam etdilər. Etiraf etməliyəm ki, Hacıbaba müəllimin Naxçıvana, naxçıvanlılara çox böyük hörmət və ehtiramı var idi. Bu da yəqin ki, onun həvəskar bəstəkar Yusif Naxçıvanlı ilə uzun illərdən bəri davam edən yaradıcılıq dostluğundan irəli gəlirdi.

Həsənağa Maarif (Təhsil) Nazirliyi Həmkarlar Şurası nəzdində fəaliyyət göstərən xalq çalğı alətləri ansamblında pianoçu kimi çalışırdı. Səhnədə 15 yaşlı, bığ yeri yenicə tərləmiş, qarasaclı, arıq bədən quruluşuna malik, bəstəboylu gənc pianoçu nəzəri

hamıdan çox cəlb edirdi. Onun yüksək ifaçılıq texnikası, hər bir əsəri özünəməxsus tərzdə ifa etməsi, melodiyadaxili improvizasiyaları (işləmələri) dinləyənləri heyran edirdi. Həsənağa rəsmən ansamblın bədii rəhbəri olmasa da, ansambla, sözün əsl mənasında, rəhbərlik edirdi. Qeyd etməliyəm ki, zaman keçdikcə bu görüş dostluğa, həmkar təəssübkeşliyinə çevrildi.

1972-ci ilin isti yay günləri idi. Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində (Kollecində) qəbul imtahanları keçirilirdi. Məktəb komsomol təşkilatı katibinin birinci müavini kimi mən də qəbul imtahan komissiyasının tərkibinə daxil edilmişdim. Xor-dirijorluq şöbəsinin müdavimləri imtahana dəvət edilmişdi. Onların sırasında Həsənağa da var idi. Mükəmməl hazırlığa baxmayaraq o bir az narahat görünürdü. Ciddi nəzarət olsa da, mən onunla söhbət edib sakitləşdirməyə çalışdım. Deyəsən, istəyimə nail olmuşdum. Həsənağa sakitcə mənə pıçıldadı: "Narahatçılığım keçdi, ancaq əllərim bir az tərləyir". İmtahanları əla qiymətlə başa vuran Həsənağa xor-dirijorluq şöbəsinin birinci kursuna daxil oldu. O bu şöbədə təhsil alan dördüncü naxçıvanlı tələbə idi (Rafail Kərimov, Səkinə Hüseynova, Tünzalə Sadiqova, Həsənağa Qurbanov). Həsənağa tələbəçilik həyatına çox tez alışdı və tezliklə onun necə istedadlı tələbə olduğu haqda yaxşı rəylər dolaşmağa başladı. İxtisas müəllimimiz Eduard Novruzovdan Həsənağa haqqında tez-tez təriflər eşidirdim. Hətta nadir hallarda tələbələri tərif edən xor sinfi müəllimimiz Alla Alekseyevna Vayman Həsənağa sənətinin vurğunu olaraq onun haqqında tez-tez belə bir ifadə işlədirdi: "Əhsən, gözəl musiqiçidir". Bu iki sənət adamının adlarını mən təsadüfi qeyd etmirəm. Onların hər ikisi Azərbaycan xor sənətinin inkişafı yolunda böyük əmək sərf etmişlər. Eduard Novruzov isə bu sənətin korifeylərindən biridir. Eduard (Adil) Bəylər oğlu Novruzov həm insan, həm sənətkar kimi çox yüksəklərdə duran bir ziyalı idi. Bütün bunlara görə Həsənağa Qurbanov E.Novruzova dərin minnətdarlıq hissi bəsləyirdi.

...Həsənağa Qurbanov yüksək musiqi duyumu ilə yanaşı ifa olunan əsərlərin daxili məzmununu açmaq, onları xora, xorun tərkibində olan ayrı-ayrı partiyalara öyrətmək, bunları əl hərəkəti, üz ifadələri, bədən hərəkəti, bir sözlə, dirijora xas olan bütün hərəkətlərlə göstərmək, xorun üzvləri ilə ifa zamanı sabit rabitə yaratmaq üçün dirijor aparatının (əsərin ifa zamanı əl hərəkətinin düzgün istiqamətdə tutması, aparılması) düzgün olmasından asılı olduğunu yaxşı bilirdi. Təsadüfi deyil ki, "Dan ulduzu" instrumental ansamblından tutmuş böyük simfonik orkestr və xor kollektivləri tərkibində olan hər bir ifaçı Həsənağa Qurbanovun nəinki əl hərəkətlərini, üz ifadəsini, deyərdim ki, kirpiyinin hər çalınmasında olan ifadəni hiss edirdi. Bunun bariz nümunəsi kimi H.Qurbanovun təhsil illəri müddətində A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin (1972–1976), Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (1976–1981) xor kollektivləri ilə, Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında hazırladığı və tamaşaçılara təqdim etdiyi onlarla müxtəlif xarakterli, biri-birindən janr baxımından çox fərqli musiqi əsərlərini göstərmək olar. Bunlardan yalnız birini diqqətinizə çatdırmaq istəyirəm. 1981-ci ildə H.Qurbanov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (Musiqi Akademiyasını) bitirən zaman diplom işi üçün C.Cahangirovun "Füzuli" kantatasını seçir. Onun ixtisas müəllimi C.Cahangirov həm müəllif, həm də bir müəllim kimi Həsənağanın kantatanı hazırlayıb səsləndirməsindən çox razı qalmışdı. Əsərlə tanış olanlar bu kantatanın necə çətin, melodiya cəhətdən zəngin olmasını yaxşı bilirlər. Zəngin milli koloritə malik melodiya, xorun ayrı-ayrı partiyalarında çətin texniki keçidlər, aşağı səslərin (xüsusilə bass səslərin), sopranoların isə yuxarı tissiturada düzgün pozisiyada səsləri, nüansları ifa etmələri, xor və ayrı-ayrı partiyalar daxilində ansamblın gözlənilməsi, Həsənağanın gözəl, əsərin xarakterinə uyğun dirijorluğu hamını heyran etmişdi. Əsər sona çatdıqda dövlət imtahanında deyil, sanki hansısa bir konsert tamaşasındakı kimi müəllim və tələbələr ayaq üstə Həsənağa Qurbanovu alqışlayırdılar. Ən böyük sevinc hisslə-

rini isə həmişəki kimi onun müəllimləri C.Cahangirov, Eduard Novruzov, Alla Vayman, yaxınları və məslək dostları keçirirdilər.

İstedadlı musiqiçi konservatoriyanı bitirərək 1978-ci ildən (konservatoriyanın ikinci kursundan) işlədiyi Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında əmək fəaliyyətini davam etdirir. Üç ildən artıq bir müddət ərzində burada çalışan gənc dirijor musiqi elminin dərinliklərini mənimsəməklə yanaşı, Azərbaycan musiqi ictimaiyyəti, görkəmli sənət adamları ilə yaxın təmasda olur, bir musiqiçi kimi onların böyük hörmətini qazanır. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı Həsənağa üçün sənət və həyat məktəbi oldu. Burada o həm öyrətdi, həm öyrəndi, musiqi dünyasını fəth etdi. Teatrda Nazim Əliverdibəyovun "Nazxanım naz eyləyir" əsəri ilə ilk dəfə dirijor pultu arxasına keçən gənc dirijor illər ötdükcə biri-birindən xarakter etibarı ilə fərqli əsərlər hazırlayıb tamaşaya qoymuş və Azərbaycan musiqi ictimaiyyətinin, tamaşaçıların rəğbətini qazanmışdı. Bunu Həsənağanın tamaşaya qoyduğu, dirijorluq etdiyi əsərlərin sayı da (78) deməyə əsas verir. Bu sənət məbədində uzun illər çalışan korifey sənətkarlardan, Azərbaycan Respublikasının xalq artistləri Şəmsi Bədəlbəyli, Nəsibə Zeynalova, Lütvəli Abdullayev, Bəşir Səfəroğlu, Hacıbaba Bağırov, Səyavuş Aslan, Mobil Əhmədov, rejissorlar Niyazi Şərifov, Cənnət Səlimova, Kamal Kərimov və başqaları ustad dirijorun sənətini çox yüksək qiymətləndirirdilər. Təsadüfi deyildi ki, bir müddət sonra Həsənağa Qurbanov teatrın baş dirijoru vəzifəsinə təyin edilir (1988).

Həsənağa Qurbanov çoxşaxəli əmək fəaliyyətinə və yaradıcılıq diapazonuna malik bir sənətkar idi. O, "Necəsən, gənc dost?", "Birimiz-hamımız" teleproqramlarında aparıcı, "Azərbaycan təranələri", tarzən Əhsən Dadaşovun rəhbərlik etdiyi "Xatirə", "Təranə" gənclik ansamblında və Gülarə Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblında pianoçu, 1983–1985-ci illərdə Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbində (Kollecdə) direktor, 1985–1987-ci illərdə Moskvada,

Böyük Teatrda ixtisaslaşdırma kurslarında dirijor kimi fəaliyyət göstərmişdi.

Bir pianoçu kimi Həsənağa Qurbanovun ən çox fəaliyyət göstərdiyi "Dan ulduzu" instrumental ansamblı olmuşdur. Gülarə xanımın vəfatından sonra–1991-ci ildə ansamblın fəaliyyəti bərpa olunarkən Həsənağa müəllim bədii rəhbər olmaqla yanaşı pianoçu vəzifəsini də öz üzərinə götürmüş və ömrünün sonunadək bu vəzifəni daşımışdır.

Harada işləməsindən asılı olmayaraq musiqiçi yenilik eşqi ilə alışıb yanırdı. Bu, Şıxəli Qurbanov adına Azərbaycan Dovlət Musiqili Komediya Teatrında, Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblında, Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbində, Moskvada ixtisaslaşdırma kurslarında və ən nəhayət, Bakı şəhər Mədəniyyət İdarəsinin rəisi işlərkən də belə olmuşdur.

Söhbət yardıcılıqdan düşmüşkən qeyd etməliyəm ki, Həsənağa müəllim bəstəkar kimi də çox maraqlı yaradıcılıq yolu keçmişdir. Hələ orta ixtisas musiqi məktəbində təhsil aldığı illərdə onun Bəxtiyar Vahabzadə, Musa Ələkbərlinin sözlərinə yazdığı "Ana laylası", "Körpə səsi" mahnıları Flora Kərimova və Firuzə İbadova tərəfindən uğurla ifa edilirdi. Bəstəkarlıq fəaliyyətini tədricən püxtələşdirən gənc bəstəkar operetta janrına müraciət edir. Onun dramaturq Cahangir Aslanoğlunun mətninə bəstələdiyi "Məhəbbət oyunu və ya qarğa, məndə qoz var", "Gəl qohum olaq" musiqili komediyaları sənətsevərlər üçün sürpriz hədiyyə oldu. Uzun illər Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərən gənç bəstəkar truppaya daxildən yaxşı bələd olduğundan, aktyorların yaradıcılıq imkanlarını "özlərindən" daha yaxşı hiss etdiyindən əsərlərində ifa üçün çox əlverişli partiyalar yaradırdı. Vokal ifaçılıq sənətini dərindən bilən sənətkar hər bir ifaçının səs diapazonunu nəzərə alır, onlara partiyalarını məharətlə ifa etməyə şərait yaradırdı. Simfonik orkestrə gəldikdə isə deməliyəm ki, musiqiçi tamaşalarında orkestrlə vokal səhnələrinin vəhdətində yüksək peşəkarlıq göstərmişdi.

Həsənağa müəllimin yaradıcılığında ulu öndər Heydər Əliyev mövzusu xüsusi yer tutur. Onun ümummilli liderimizə həsr etdiyi türk şairəsi Müəyyəssər Hilal Coşkunun sözlərinə "Bir millət, iki dövlət", Səlaləddin Quliyevin sözlərinə bəstələdiyi "Döyünən ürək", ulu öndərin anadan olmasının 80 illiyinə həsr etdiyi "Dahilər dahisi" kontatası və s. əsərləri xalqımız tərəfindən böyük sevinc və coşqu ilə qarşılanmışdır. Bəstəkarın "Bir millət, iki dövlət" əsəri simfonik orkestr, xor, vokal və bədii qiraətçilər üçün nəzərdə tutulmuş monumental bir əsərdir. Əsərin ilk ifaçıları sırasında Azərbaycan Respublikasının xalq artistləri Elxan Əhədzadə, Məleykə Əsədova, İlham Əsgərov, Nurəddin Quliyev və başqaları olmuşlar.

Bəstəkar Bakı şəhər Mədəniyyət İdarəsinin rəisi kimi (2001–2007) dünyasını dəyişənədək gənc ifaçıların sənət aləmində üzə çıxması və parlaması üçün yorulmadan çalışmışdır. Bu illər ərzində o, respublika və Bakı şəhəri üzrə keçirilən onlarla dövlət tədbirlərinin, müsabiqələrin, simpoziumların, konfransların təşkilatçısı, münsiflər heyətinin sədri, üzvü olmuş, gənc istedadların seçilib üzə çıxarılmasında müstəsna xidmətlər göstərmişdir.

Kim bilir, Həsənağanın qəlbində neçə-neçə həyata keçirilməmiş layihələr, səslənməmiş əsər yatırdı? Yaşasaydı daha nələr yaradacaqdı? Ancaq Uca Tanrının çağırışı və kövrəlmiş, incəlmiş qəlbinin səsi ilə o, 2007-ci il 6 noyabr tarixində haqqın dərgahına qovuşdu...

# MƏHƏRRƏM HÜSEYN OĞLU MƏMMƏDOV (1950)



Məhərrəm Hüseyn oğlu Məmmədov 15 noyabr 1950-ci il tarixdə Naxçıvan şəhərinin qədim məhəllələrindən olan Gomayıl məhəlləsində dünyaya göz açsa da, böyüyüb ərsəyə gəldiyi ocaq atasının "Qızlar bulağı" adlanan yaşayış sahəsinin Qala məhəlləsində aldığı ev olmuşdur. Naxçıvanın səfalı guşələrindən hesab edilən bu yerlər bir tərəfdən qədim tarixi abidələrilə: Möminə Xatın Türbəsi, Ehsan xanın evi, Mir Yaqub piri, digər tərəfdən isə əfsanəfi "Qızlar bulağı"nın şəfalı suyu, şəlaləsi ilə Naxçıvanın başqa məhəllələrindən həmişə fərqlənmişdir. Bu gün burada ömrünü başa vurmuş və təbiətin hökmünə tab gətirməyən köhnə uçuq-salxaq evlərin yerində salınmış "Əcəmi seyrəngahı" mədəniyyət və istirahət kompleksi müasir Naxçıvanın gözəl guşələrindən birinə çevrilmişdir.

Atası Hüseyn kişi sadə peşə sahibi olsa da, musiqiyə, incəsənətə böyük maraq göstərən bir insan idi. Maraqlıdır ki, Hüseyn kişi oğluna musiqini hansısa dərnəkdə öyrənməyi deyil, bu sənətə musiqi məktəbində dərindən yiyələnməyi tövsiyə edir və bacardığı qədər ona dəstək olurdu. Onun Məhərrəm üçün həvəslə tar axtarması, ustaların adlarını öyrənməsi və ən nəhayət, Bakıda tar sexlərinin ünvanlarını əldə etməsini mən bu gün də yaxşı xatırlayıram. Bu, Məhərrəmlə mənim dostluq əlaqələrimizdən xatırladığım yalnız bir məqamdır. Qayğısız, şirin, bir də geri dönməyən uşaqlıq xatirələrindən...

Məhərrəm Naxçıvan şəhər Pionerlər evində (indiki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) Səfər Rəcəbo-

vun rəhbərlik etdiyi dərnəkdə tar çalmağa başlamış və bir müddətdən sonra burada fəaliyyət göstərən "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının üzvü olmuşdur. Burada oxucuların diqqətinə belə bir məqamı çatdırmaq istəyirəm ki, XX əsrin 50–70-ci illərində Naxçıvanda tar ifaçılığı ilə məşğul olanların əksəriyyəti eyni yaradıcılıq yolu keçmişdir. Tar çalmağı Səfər müəllimdən öyrənmiş şagirdlər Pionerlər evində "Əlvan çiçəklər" mahnı və rəqs ansablının üzvü olurdular, sonra isə musiqi elmini öyrənmək üçün Naxçıvan şəhərindəki musiqi məktəbinə üz tuturdular. Digər şagirdlər kimi Məhərrəm də bu yolun yolçusu olmuşdur. Qeyd etmək lazımdır ki, musiqi məktəbində oxuya-oxuya Məhərrəm Məmmədov Naxçıvan Dövlət Musiqili Dram Teatrında, 1967-ci ildən 1968-ci ilin iyununadək "Araz" Naxçıvan Dövlət mahnı və rəqs ansamblında tarçalan işləmişdir. Çox gənc yaşlarından Məhərrəm Məmmədov işlədiyi ansamblların tərkibində Naxçıvan MR-in rayon və kəndlərində, habelə qonşu Gürcüstan Respublikasının paytaxtı Tiflis şəhərində qastrol səfərində olmuşdur.

Məhərrəm Məmmədov 1968-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinə daxil olur. Burada o, tez bir zamanda öz çalışqanlığı ilə ixtisas müəllimi Akif Novruzov, muğam müəllimi, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kamil Əhmədovun rəğbətini qazanır. Qeyd etməliyəm ki, adı çəkilən müəllimlər mükəmməl ixtisas sahibləri kimi Azərbaycanda ad-san qazanmış pedaqoqlar idilər. Akif Novruzov Azərbaycanda ixtisas üzrə Səid Rüstəmov, Adil Gərayla bir sırada duran müəllimlərdən olmuşdur. Kamil Əhmədov isə bu gün Azərbaycanda orta və yaşlı muğam ifaçılarının əksəriyyətinin müəllimi olmuşdur. Hər iki müəllimin naxçıvanlı şagirdlərin bir musiqiçi kimi püxtələşməsində böyük zəhməti olmuşdur. Belə musiqiçilərdən Arif Quliyev, Kamal Əhmədov, Rza Abbasov, Məhərrəm Məmmədov, Rafail Kərimov və başqalarının adlarını

göstərmək olar. Bu musiqiçilər vaxtilə hər iki müəllimin və ya onlardan birinin şagirdi olmuşlar. Məhərrəm də bu müəllimlərin səyi nəticəsində tezliklə gözəl bir ifaçı kimi tanınmağa başlamışdır.

1972-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirən Məhərrəm Məmmədov təyinatla doğma Naxçıvana təhsil aldığı musiqi məktəbinə işləməyə göndərilir. Amma Məhərrəmin buradakı əmək fəaliyyəti çox da uzun sürmür. Elə həmin il hərbi xidmətə çağırılan Məhərrəm Məmmədov 1974-cü ilin sonunda ordudan tərxis olunaraq Naxçıvana qayıdır və bir neçə ay burada işlədikdən sonra 1975-ci ildə qəbul imtahanlarını uğurla verərək Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Musiqi Akademiyası )daxil olur. Burada Məhərrəm Məmmədov Azərbaycan Respublikasının Xalq artisti, professor Ramiz Quliyevin sinfində təhsil alır. Verilən əsərləri tez bir zamanda yüksək səviyyədə öyrənən Məhərrəm Məmmədov konservatoriyanın müəllim və tələbə kollektivləri içərisində yaxşı nüfuz sahibi olmuş, əla oxuyan tələbələr sırasında özünə layiqli yer tutmuşdur. Çox keçmir ki, yaxşı ifaçılıq texnikasına malik olan Məhərrəmin səsi-sorağı Azərbaycanda tanınmış, böyük şöhrət qazanmış ustad Əhməd Bakıxanovun adını daşıyan xalq çalğı alətləri ansamblından gəlir. Burada o unudulmaz tarzən Həbib Bayramovun rəhbərliyi altında uzun illər çalışmış və ansamblın tərkibində Bakıda, Azərbaycanın əksər rayonlarında konsert proqramları ilə çıxış etmişdir.

1972-ci ildən müəllimlik fəaliyyətinə Naxçıvandan başlayan istedadlı musiqiçi 1975-ci ildən sevimli peşəsini Bakı şəhərində Qara Qarayev adına 11 illik musiqi məktəbində davam etdirir. Həmin ildən bu günədək məktəbin xalq çalğı alətləri şöbəsinə başçılıq edən Məhərrəm müəllim 35 il ərzində istər öz sinfində, istərsə də şöbə üzrə bir çox gənc istedadlı musiqiçilərin üzə çıxması, parlaması üçün fədakarcasına çalışmışdır.

Təkcə onu demək kifayətdir ki, 1975-ci ildən bu günədək Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən keçirilən elə bir müsabiqə, baxış olmayıb ki, Məhərrəm müəllimin şagirdləri orada çıxış edərək yüksək yer tutub diploma, mükafata layiq görülməsinlər. Bu böyük uğurların bir neçəsini xatırlamaq istəyirəm:

1982-ci il, Naxçıvan şəhəri–Rafail Hüseynov fəxri fərmana layiq görülmüşdür;

1983-cü il, İrəvan şəhəri–Fuad Əliyev Hacı Xanməmmədovun tar ilə simfonik orkestr üçün ikinci konsertinin ifasına görə Zaqafqaziya musiqi festivalının qalibi olmuşdur;

1993-cü il, xalq çalğı alətləri ifaçılarının Hacı Məmmədov adına İkinci respublika müsabiqəsi – Xətai Şirinov birinci yeri tutmuşdur.

1996-cı ildə Bakı şəhərində orta ixtisas musiqi məktəbləri şagirdləri arasında keçirilən Altıncı respublika müsabiqəsini Məhərrəm Məmmədovun müəllimlik fəaliyyətində ən uğurlu, yaddaqalan müsabiqə hesab etmək olar. Belə ki, Məhərrəm müəllimin Bülbül adına Bakı Orta İxtisas Musiqi Məktəbində dərs dediyi şagirdlər fəxri yerlərin üçünə də sahib olmuşlar: Tağıyev Samir Şakir oğlu–birinci yer; Şirinov Xətai Gülxan oğlu–ikinci yer; Əkbərov İlkin Ədalət oğlu–üçüncü yer. Məhərrəm müəllim üçün bundan böyük nailiyyət ola bilməzdi. Bir ildən sonra Məhərrəm müəllimin yetirmələri yeni bir uğura imza atdılar. Görkəmli tarzən Mirzə Sadıq Əsəd oğlunun (Sadıqcanın) anadan olmasının 150 illiyinə həsr olunmuş xalq çalğı alətləri üzrə instrumental ifaçılarının 25-31 oktyabr 1997-ci il tarixdə Bakı Musiqi Akademiyasında keçirilən müsabiqəsində Quliyev Əyyub Ramiz oğlu–birinci yer (laureat), Növrəsli Arslan Növrəs oğlu, Şirinov Xətai Gülxan oğlu isə diplomant adına layiq görülmüşlər. Bundan əlavə, müxtəlif illərdə Məhərrəm müəllimin yetirmələrindən Hikmət Abdullayev, Rüfət Həsə-

nov, Seymur Mürsəlov, Məhəmməd Hacıyev və başqaları ayrı-ayrı müsabiqələrin qalibi, mükafatcısı, diplomantı olmuşlar. Tələbələrindən Əyyub Ramiz oğlu Quliyev Prezident təqaüdçüsüdür. Sadalanan bu kimi faktlar Məhərrəm müəllimin necə yüksək səviyyəli pedaqoq olduğunu bir daha təsdiq edir. Qazanılan uğurların nəticəsi olaraq Məhərrəm Məmmədova Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin xalq çalğlı alətləri üzrə müəllimlər şurasının sədri vəzifəsi tapşırılmışdır.

Məhərrəm Məmmədov bu gün də yorulmadan çalışır. O, 2001-ci ildən bu günə kimi Milli Konservatoriya tərkibində Respublika İncəsənət Gimnaziyasında xalq çalğı alətləri şöbəsinə rəhbərlik edir, gözəl pedaqoq kimi əvəzçilik üzrə Milli Konservatoriyada, A.Zeynallı adına Bakı şəhər Musiqi Kollecində də dərs aparmağa ona icazə verilmişdir. Məhərrəm müəllimə bu xeyirxah işdə yeni-yeni uğurlar arzulayırıq.

# TARİYEL ABBASQULU OĞLU ABBASOV
# (1953)



Tariyel Abbasqulu oğlu Abbasov 10 mart 1953-cü ildə Naxçıvan şəhərində dəmiryolçu ailəsində anadan olmuşdur. Uşaqlıqda Naxçıvan şəhər dəmiryol ərazisində yaşayan Tariyel qatarların hərəkətini izləməyi çox sevər, ürəyində isə "Bir gün gələcək mən də arzuma çatacağam" deyərdi. Arzularının qanadında o musiqi dünyasına qovuşmağı, bunun üçün uşaq təxəyyülü ilə qatarla Bakıya getməyi xəyal edirdi. Daha bilmirdi ki, gün gələcək o nəinki Bakıya gedib arzusuna çatacaq, buranın sakini, burada ailə, uşaq sahibi olacaqdır. Bir də bilmirdi ki, ona ayrılan ömrün 25 ilini hələlik Naxçıvanda keçirəcəkdir.

1964-cü ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin tar sinfinə daxil olan Tariyel ixtisas üzrə əvvəlcə gənc mütəxəssis Azər Abasov, sonra virtuoz tarzən Əkrəm Məmmədovdan, muğam sənətini isə qocaman ustad Yusif Əliyevdən öyrənmişdir. Müəllimlərinin hər üçü öz sənətini dərindən bilən, tanınmış musiqiçilər idi. Azər müəllim gənc olmasına baxmayaraq Asəf Zeynallı adına Bakı Orta Musiqi Məktəbini uğurla bitirmiş, görkəmli pedaqoq Adil Gərayın sinfində təhsil almışdır. Bir müddət sonra isə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirən A.Abasov musiqi elmini dərindən mənimsəməkdə Tariyelə lazımi tövsiyələr verirdi. Naxçıvan musiqi məktəbinin ilk müəllimlərindən olan Yusif Əliyev gənc tarzənə muğamın sirlərini öyrətmiş, mahir ifaçı, tarzən Əkrəm Məmmədov isə öz məharətli ifası ilə, sözün əsl mənasında, Tariyelə "ifaçılıq" dərsi keçirdi. 1969-cu ildə Tariyel musiqi məktəbi-

ni bitirir. Lakin ümumtəhsil məktəbini bitirmədiyindən valideynləri ona bir il də səbr etməyi məsləhət görürlər. 1970-ci ildə o, orta məktəbi bitirsə də təhsilini harada davam etdirəcəyinə qərar verə bilməyərək hərbi xidmətə yollanmalı olur. Hərbi xidməti başa vuran və bir müddət əmək fəaliyyəti ilə məşğul olan Tariyel Abbasov 1975-ci ildə yenicə açılmış Üzeyir Hacıbəyov adına Naxçıvan şəhər Orta İxtisas Musiqi Məktəbinə daxil olur.

Məktəbin ilk şagirdləri kimi o və onun tələbə dostları böyük məsuliyyət hissləri keçirirdilər. Belə ki, məktəbin gələcəyi bir musiqiçi kimi onların peşəkarlığından əldə ediləcək nailiyyətlərdən çox asılı idi. Onu da qeyd etməliyəm ki, ixtisas müəllimi Arif Məhərrəmov başda olmaqla gənc Tariyel Abbasov və onun həmkarları Tağı Tağıyev, Məmməd Xəlilov, Səyavuş Heydərov, Bəxtiyar Hümbətov bu işin öhdəsindən bacarıqla gələrək Naxçıvan tar və kamança ifaçılıq məktəbinin möhtəşəm ənənələrini davam etdirmiş və solo ifaçıları kimi müxtəlif qələbələrə imza atmışlar. Bir sıra müsabiqələrdə Naxçıvanı layiqincə təmsil edən gənc musiqiçilər mükafatlara, diplomlara layiq görülmüşlər. Belə mükafatlardan biri də tarzən Tariyel Abbasov tərəfindən qazanılmışdır. O, 1977-ci ildə Bakı şəhərində keçirilən ifaçıların I Respublika müsabiqəsinin laureatı olmuşdur. Burada məktəbin ilk ixtisas müəllimlərindən Arif Məhərrəmov, onun həyat yoldaşı Həlimə xanımın (fortepiano) və Naxçıvanda xanəndə sinfinin təməlini qoymuş Dilqəm Məhərrəmovun fədakar əməyi xüsusi qeyd olunmalıdır. Adı çəkilən müəllimlərin uğurlu əmək fəaliyyəti gələcəyin neçə-neçə istedadlı mütəxəssisinin üzə çıxmasına səbəb oldu. Onların sırasında Azərbaycan Respublikasının Əməkdar artistləri xanəndə Qurban Qasımov, tarzən Tağı Tağıyev, Tariyel Abbasov və başqalarını göstərmək olar.

1979-cu ildə orta ixtisas musiqi məktəbini bitirən Tariyel Abbasov Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına (Musiqi Akademiyası) daxil olur. Konservatoriyada o, görkəmli bəstəkar, dirijor, Azərbaycan Respublikasının Xalq artisti, professor Səid Rüstəmovun sinfinə təyin edilir. Ümumiyyətlə,

belə bir faktı oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, naxçıvanlı gənclər istər Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində (Musiqi Kolleci), istərsə də Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında çalışan ən güclü, tanınmış müəllimlərin siniflərinə təyin edilirdilər. Onların sırasında Azərbaycan musiqi təhsili sisteminin sütunları hesab edilən görkəmli pedaqoqlar Səid Rüstəmov, Süleyman Ələsgərov, Eduard Novruzov, Adil Gəray, Kamil Əhmədov, Firudin Mehdiyev, Akif Novruzov, Ramiz Quliyev və başqalarının adlarını iftixarla çəkmək olar. İllər boyu davam edən bu ənənə Naxçıvan ifaçılıq məktəbinin gücünün müsbət bir göstəricisidir.

Səid Rüstəmov gənc tarzənin təhsilə münasibətindən, ifaçılıq qabiliyyətindən çox razı idi. Verilən tapşırıqları qısa müddətdə yerinə yetirən tələbənin boş vaxtlarının çox olduğunu hiss edən professor ona musiqi məktəblərinin birində işləməyi tövsiyə edir. Beləliklə, Tariyel Abbasov II kursda oxuya-oxuya (1980) Bakı şəhər 3 saylı uşaq musiqi məktəbinə işə düzəlir. Uğurlu müəllimlik fəaliyyəti tezliklə Tariyeli yeni iş yerinə, Azərbaycan Dövlət Konservatoriyasına gətirir. 1988–1995-ci illərdə burada çalışan Tariyel müəllim paralel olaraq Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblında solo tarzən kimi də fəaliyyətini davam etdirir. Ansamblın tərkibində o, Həbəşistan, Bolqarıstan, Finlandiya, Türkiyə, İran kimi dövlətlərdə Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

Gənc yaşlarından ifaçılıq sənətinə böyük məsuliyyətlə yanaşan Tariyel Abbasov yorulmadan çalışaraq solo ifa üçün yeni-yeni əsərlər hazırlayırdı. Yaxın dostu və həmkarı, Azərbaycan Respublikasının Əməkdar artisti Tağı Tağıyev bu gün də Tariyel ilə konservatoriyada təhsil aldığı vaxtları xatırlayaraq hər axşam konservatoriyanın boş otaqlarında gecədən xeyli keçənədək keçirdikləri məşq saatlarını sevinçli, nostalji hisslərlə xatırlayır.

Yaradıcılıq fəaliyyətini genişləndirən tarzən Azərbaycan Dövlət Konservatoriyasının 60 illik yubileyi ilə bağlı (1982) Moskvada, MDB və Baltikyanı ölkələrdə solo konsertlərlə çıxış edir.

Bundan əlavə, o, Səid Rüstəmovun "Oxu tar", Zakir Bağırovun "Layla" mahnılarına solo ifada klip çəkdirmiş, Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin simfonik orkestri ilə Hacı Xanməmmədovun tar ilə simfonik orkestri üçün 2 nömrəli konsertini lentə yazdırmışdır.

...Bu nailiyyətlər Tariyel müəllimin çoxşaxəli fəaliyyətinin bir qismidir. Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblının bədii rəhbəri işləyən Tariyel Abbasovdan tamaşaçılar yeni-yeni solo ifa və konsert proqramları gözləyirlər.

# NURİYYƏ İSLAM QIZI HÜSEYNOVA (17.03.1969)



Ordubad Naxçıvan Muxtar Respublikasının tarixi abidələri, görkəmli ziyalıları, ləziz milli mətbəxilə şöhrət qazanmış şəhərlərindən biridir. Ordubad şəhərinin yaranma tarixi dəqiq müəyyənləşdirilməsə də, buradakı ilk yaşayış məskəninin 5–6-cı əsrlərə aid olması ehtimal olunur. Arxeoloji qazıntılar zamanı müasir Ordubadın ərazisində orta əsrlərə aid geniş bir ərazini əhatə edən yaşayış məskəni aşkar olunmuşdur. Dağlarla əhatə olunmuş Ordubad meyvə bağları, dağ bulaqları, kəhrizləri və sağlam ab-havası ilə bir çox tarixçi və səyyahların diqqətini cəlb etmişdir.

Nuriyyə İslam qızı Hüseynova 17 mart 1969-cu il tarixdə bu dilbər guşənin Dırnıs kəndində dünyaya göz açmışdır. 6-cı sinfədək Dırnıs kənd məktəbində təhsil alan balaca Nuriyyənin böyüyüb gözəl müğənni, xanəndə olacağını heç kəs ağlına belə gətirmirdi. Ancaq gözəl və məlahətli səsi Nuriyyəni tədricən digər şagirdlərdən fərqləndirməyə başladı...

Nuriyyənin gözəl səs tembri, mahnıları doğru-düzgün, xarakterinə uyğun ifa etməsi ilk dəfə olaraq Əmiraslan müəllimin diqqətini cəlb etdi. Bir gün söhbət əsasında musiqinin, incəsənətin vurğunu olan Əmiraslan müəllim Nuriyyənin yaxşı səsi olması və onun gələcəkdə müğənni olma ehtimalı haqda fikirlərini kənd mədəniyyət evinin bədii rəhbəri Gülsüm Niftəliyevaya bildirdi. Qədirbilən xalqımızın gözəl el misallarının birində deyilir: "Səbəbkarın atasına Allah rəhmət eləsin". Əmiraslan müəllim də belə səbəbkarlardan idi. O gündən məktəbdə, kənd mədəniyyət evində

elə bir tədbir olmurdu ki, balaca Nuriyyə ora dəvət almasın. Ələkbər Tağıyevin "Azərbaycan qızıyam" mahnısı isə gənc müğənninin repertuarında xüsusi yer tuturdu.

1980-ci ildə Bakı şəhərində keçirilən "Sarı bülbül"lər Birinci respublika muğam müsabiqəsində Naxçıvanı Nuriyyə Hüseynova təmsil edirdi. Maestro Niyazinin başçılıq etdiyi münsiflər heyəti (Vasif Adıgözəlov, Şəvkət Ələkbərova, İslam Rzayev və başqaları) balaca müğənninin ifa tərzini, səhnə mədəniyyətini, repertuar seçimini yüksək qiymətləndirərək onu müsabiqənin qalibi elan etmişdir. Nuriyyənin səsinə məftun olan münsiflər heyəti, ulu öndər Heydər Əliyevin göstərişi və tövsiyyəsini icra edərək onu, 1982-ci ildə bir qrup gənç ifacı ilə birlikdə Bakıya, Bülbül adına Musiqi Təmayüllü Onillik Musiqi Məktəbinə oxumağa dəvət edir. Qeyd etməliyəm ki, bu musiqi məktəbinin də Asəf Zeynallı adına Bakı Musiqi Kolleci, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Musiqi Akademiyası kimi öz ənənələri var. Belə ki, məktəbi bitirən yüzlərlə şagird Azərbaycan Dövlət Musiqi Akademiyasına, Azərbaycan Milli Konservatoriyasına, Bakı Musiqi Kollecinə daxil olaraq bacarıqlı tələbə kimi məktəblərini bu təhsil ocaqlarında layiqincə təmsil etmişlər.

Əlbəttə ki, nailiyyətlərin qazanılmasında və tədrisin vəziyyətinin bu səviyyəyə çatdırılmasında uzun illər məktəbə rəhbərlik etmiş Nazim Əliverdibəyovun zəhmətini xüsusilə qeyd etmək lazımdır.

Təhsilini uğurla davam etdirən Nuriyyə gözəl ifaçı kimi də müəllimlərin diqqət mərkəzində idi. Bunun bariz nümunəsi kimi, Nuriyyənin 1982-ci ildə Moskvada Azərbaycan mədəniyyət günlərində və 1983-cü ildə Səmərqənddə keçirilən Üçüncü ümumdünya musiqi simpoziumdakı çıxışlarını göstərmək olar. Bu nailiyyətlərin qazanılmasında gənc xanəndənin müəllimləri Şövkət Ələkbərova, İslam Rzayev, Arif Babayev kimi ustad sənətkarların böyük əməyini qeyd etmək lazımdır.

1987-ci ildə Bülbül adına Musiqi Təmayüllü Onillik Məktəbi bitirən gənc xanəndə Üzeyir Hacıbəyov adına Azərbaycan

Dövlət Konservatoriyasının muğam şöbəsinə daxil olur. Gənc ifaçı səbir və ehtiramla 5 il görkəmli xanəndə, gözəl pedaqoq, Azərbaycan Respublikasının Xalq artisti mərhum İslam Rzayevdən muğamın sirlərini öyrənir. Tələbəlik illəri çox sürətlə gəlib keçir. 1992-ci ildə konservatoriyanı bitirən gənç musiqiçi A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində, 1993–1994-cü illərdə Mədəni-maarif texnikumunda, 1995-ci ildən məzunu olduğu Bülbül adına Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin xanəndəlik sinfində, 2000-ci ildən isə Əlibəy Hüseynzadə adına İncəsənət Universitetində dərs deyir. Bu illər ərzində Nuriyyə xanım neçə-neçə gənc musiqiçiyə muğamın sirlərini öyrənməyə köməklik göstərmiş, onların bir xanəndə, müğənni kimi yetişməsində əlindən gələni əsirgəməmişdir. Bunların sırasında "Xalq ulduzu" televiziya yarışmasının qalibi Tural Salmanov, Ramal və Vüsal İsrafilovları, Elton Hüseynovu və başqalarını göstərmək olar.

Müəllimlik peşəsi Nuriyyə xanım üçün nə qədər əziz olsa da o, bir an da olsun şəxsi yaradıcılığına ara verməmiş və daima öz üzərində çalışaraq xanəndəlik sənətini püxtələşdirməyə çalışmışdır. Təsadüfi deyil ki, xanəndə 1995-ci ildən solisti olduğu "Qədim musiqi alətləri" ansamblında uğurlu yaradıcılıq fəaliyyətilə bu gün də tamaşaçıların diqqətini cəlb etməkdədir. Xanəndə ansamblın müşayiətilə yüzlərlə mahnı, təsnif və muğam dəstgahları ifa etmiş, sənət baxımından ən layiqlilərini isə "Mənim dünyam", "Həsrətindən", "Sevgilimə könül açdım", "Tanrıdan dilədim", "Oxu gözəl" və s. albomlar vasitəsilə dinləyicilərə ərmağan etmişdir.

Nuriyyə Hüseynova ansamblın tərkibində və dövlət tədbirləri xəttilə bir sıra xarici ölkələrdə Azərbaycan musiqisini layiqincə təmsil etmişdir. O, Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Türkiyə, Rumıniya, Macarıstan, İran, Küveyt, Qətər, İordaniya, Kipr və s. ölkələrdə ecazkar səsilə tamaşaçıları heyran qoymuş, onların alqışlarını, dərin məhəbbətini qazanmışdır. Xanəndənin gözəl ifaçılıq məharəti, muğamların özünəməxsus xarakterini göstərmək qabiliyyəti 2008-ci ildə Bakı şəhərində Beynəlxalq muğam festivalında görkəmli xanəndələrin iştirakı ilə keçirilən konsertlər-

də bir daha özünü göstərdi. Nuriyyə xanımın ifa etdiyi "Şüştər" muğamı xarakter etibarı və ifaçılıq xüsusiyyətinə görə çox çətin dəstgahlardan sayılır...

"Şüştər" –tərcümədə dünya, kainat mənasını daşıyır. Bu baxımdan da ifaçı kainatı, dünyanı sanki canlandırmalı və bunu xarakter etibarı ilə dinləyiciyə düzgün çatdırmalıdır. Üzeyir Hacıbəyov "Şüştər" haqqında yazırdı ki, bədii-ruhi təsir cəhətdən bu muğam dinləyicidə dərin kədər hissi oyadır. "Şüştər"i dinlədikcə insan xəyala dalır, düşünür, etiraz hissləri keçirir.

Görkəmli muğam bilicilərindən, ustad tarzən Kamil Əhmədovun da "Şüştər" dəstgahı haqda fikirlərini əziz oxuculara çatdırmaq istəyirəm. O yazırdı: "Şüştər" muğamı digər dəstgahlara nisbətən az ifa olunur". Bunun səbəbini isə belə izah edirdi. "Şüştər" dəstgahı, "Humayun", "Bayatı-Qacar" və başqa muğamlar kimi hələ 60–70 il bundan əvvəl də az oxunub-çalınırdı. Çünki "Şüştər" tarın birbaşa orta məsafəli pərdələrindən (orta registrdən) başlanır və "Əmiri", "Şüştər", "Tərkib", "Şüştərə ayaq"la tamamlanır. Bu şöbə və guşələrin ifası isə xanəndədən yüksək səs, rəngarəng zəngulə, uzun nəfəs tələb edir. Məhz bu xüsusiyyətlərə malik yüksək səsli zilxan xanəndələr bütün dövrlərdə "Şüştər"i ifa etmiş və indi də ifa edirlər".

"Şüştər" dəstgahının ifa xüsusiyyətinin incəliklərini sizlərə təqdim etməkdə məqsədim xanəndə Hüseynovanın yaradıcılıq tərzini, onun ifaçılıq məharətini göstərməkdir. Təsadüfi deyildi ki, istedadlı xanəndə 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2010-cu ildə isə Prezident mükafatına layiq görülmüşdür.

Nuriyyə xanımın yaradıcılığı çoxşaxəli və rəngarəngdir. Onun 2009-cu ildə xalq şairi Sabir Rüstəmxanlının ssenarisi əsasında rejissor Rövşən Almuradov tərəfindən lentə alınmış "Cavad xan" filmində ifa etdiyi Şükufə xanım obrazı bu yaradıcılığın bariz nümunəsidir. Obrazın uğuru haqda kino tənqidçilərinin fikir söyləməsi daha məqsədəuyğun olardı. Mən isə təkcə onu qeyd etmək istəyirəm ki, Nuriyyə Hüseynovanın yaradıcılığında bu da müsbət hal kimi müəyyən yer tutur.

# NAXÇIVAN MUSİQİ MƏKTƏBİNİN FƏXRLƏRİ

**Nəriman Həbib oğlu Məmmədov (28.12.1928)**-bəstəkar, Naxçıvan Muxtar Respublikası (1974) və Azərbaycan Respublikasının (1982) Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının Xalq artisti (2005), Prezident təqaüdçüsü (2005), Bakı Musiqi Akademiyasının professoru (2005), Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun elmi işcisi.

**Ramiz Aqil oğlu Mirişli (16.04.1934)**-bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti (1990), Bakı Musiqi Akademiyasının professoru (1993), Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Musiqi baş redaksiyasında böyük redaktor, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində musiqi redaksiyasının baş redaktoru, Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan şöbəsinin sədri (1978-1998), Prezident təqaüdçüsü.

**Məmməd Qəzənfər oğlu Məmmədov (28.04.1920 - 28.01.1987)**-xormeyster, nəfəs alətləri ifaçısı (truba), bəstəkar, Böyük Vətən müharibəsi iştirakçısı, 1961-ci ildə Moskva Xalq Konservatoriyasının xor-dirijorluq şöbəsini bitirmişdir. Uzun müddət Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının musiqi hissə müdiri vəzifəsində çalışmış, 30-dan çox tamaşaya musiqi yazmış və tərtib etmişdir. Naxçıvan Pionerlər evinin nəzdində "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı yaratmış və uzun illər ona rəhbərlik etmişdir.

**Məmməd Məşədihəsən oğlu Ələkbərov (08.07.1925-13.07.1984)**- kamança ifaçısı, xalq çalğı orkestrinin dirijoru, bəstəkar. Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi (1966), Əməkdar incəsənət xadimi (1980). Naxçıvan Muxtar Respublikası Radio Verilişləri Komitəsində kamera musiqi ansamblının, "Araz" Dövlət Mahnı və Rəqs ansamblının bədii rəhbəri, direktoru, Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi olmuşdur.

**Rəşid Rza oğlu Məmmədov (2.02.1936-11.05.2006.)**-tarzən, bəstəkar, dirijor. Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi (1973), Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi (1999). Naxçıvan şəhər Məmməd Məmmədov adına 1 saylı Uşaq Musiqi Məktəbinin (1961-1976), Şahbuz rayon Uşaq Musiqi Məktəbinin direktoru (1978-1982), Naxçıvan Muxtar Respublikasının Xalq yaradıcılıq evinin direktoru (1976-1978), Naxçıvan Musiqi Texnikumunun direktoru (1982), Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin müdiri (1996-2001), Prezident mükafatçısı (2006) olmuşdur.

**Yaşar Abutalıb oğlu Səfərov (25.06.1940-2007)**- Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü. 1957-ci ildə uşaq musiqi məktəbini, 1962-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1970-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Yaşar Səfərov əmək fəaliyyətinə 1959-cu ildə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin xor kollektivində solist olaraq başlamış, həmin ildən də Səid Rüstəmov adına Azərbaycan xalq çalğı alətləri orkestrinin solisti, 1970-ci ildən Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin solisti, 1989-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət İncəsənət İnstitutunun müəllimi vəzifəsində çalışmışdır. 1974-cü ildə Naxçıvan Muxtar Respubli-

kasının, 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına, 2002-ci ildə Prezident təqaüdünə layiq görülmüşdür.

**Səidə Müslim qızı Məmmədova (25.05.1942)**- xormeyster, bəstəkar, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi (1977), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi (1988), Azərbaycan Bəstəkarlar İttifaqının üzvü (1978), Naxçıvan şəhər Orta İxtisas Musiqi Məktəbinin direktoru (1975-1984), Naxçıvan Dövlət Universitetində ifaçılıq kafedrasının müdiri (1999). Prezident təqaüdçüsü (2007).

**Əkrəm Məmməd oğlu Məmmədli (01.10.1944)**-tarzən, bəstəkar. Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi (1974), Prezident təqaüdçüsü (2006). 1961-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1966-cı ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1974-cü ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət İnstitutunun filologiya fakültəsini bitirmişdir.

Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında tarzən, Naxçıvan Dövlət Filarmoniyasında solist-tarzən, dirijor, bədii rəhbər, Naxçıvan Musiqi Kollecinin müəllimi vəzifələrində çalışmışdır.

Əkrəm Məmmədli Azərbaycan və Qərb bəstəkarlarının tar üçün işlənmiş əsərlərini mahir ifa etməklə yanaşı bir çox əsərlərin ilk ifaçısı kimi də yaddaşlara həkk olunmuşdur. Naxçıvan Dövlət Filarmoniyasında işlədiyi 30 il ərzində mahnı və rəqs, instrumental ansamblları və xor üçün bir sıra vokal-xoreoqrafik süitalar, xalq mahnı və rəqslərini işləmiş, öz dirijorluğu və rəhbərliyilə səsləndirmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuş bir sıra əsərlərə musiqi bəstələmiş və musiqi tərtibatı vermişdir.

Müxtəlif nəşriyyatlarda işıq üzü görmüş "Tar üçün etüdlər", "Tar üçün qamma və etüdlər" və "Azərbaycan muğamları" tədris

vəsaitlərini Əkrəm Məmmədlinin musiqişünas kimi uğurlu yaradıcılığının gözəl bəhrəsi hesab etmək olar. "Azərbaycan muğamları" kitabının elmi redaktoru və ön sözün müəllifi, Azərbaycan Respublikasının Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov Əkrəm Məmmədlinin yaradıcılığını belə qiymətləndirmişdir: "Əvvəlki instrumental muğam məcmuələrində muğamlar sərbəst metroritmik ölçüdə qeyd olunmadığı halda, Əkrəm Məmmədlinin not yazılarında ölçülərin dəyişkənliyi göstərilir. Bəli, ölçülərin dəyişməsinin qeydə alınması metodik cəhətdən zəruridir".

Hesab edirik ki, instrumental muğamlar səriştəli, yüksək professional səviyyəli not yazısına malikdir.

**Nazim Kazım oğlu Kazımov (04.04.1950)**- tarzən, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, pedaqoji elmlər namizədi, professor. 1970-ci ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1973-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini, 1978-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1970-ci ildən 1992-ci ilə qədər Əli Bayramlı və Bakı şəhər musiqi məktəblərində müəllim, tədris işləri üzrə direktor müavini və direktor vəzifələrində çalışmışdır. 1992-ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyində inspektor, aparıcı mütəxəssis, baş mütəxəssis və idarə rəisinin müavini vəzifələrində işləmişdir. 2001-ci ildən Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktorudur. Azərbaycan Milli Konservatoriyasının xalq çalğı alətləri kafedrasının professorudur. 1997-ci ildə namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**Nazim Paşa oğlu Quliyev (20.09.1950)**-tarzən, bəstəkar, dosent, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. 1972-ci ildə A.Zeynallı adına Bakı Orta Musiqi Məktəbini, 1978–1983-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1972–1974-cü illərdə Ordubad şəhər Uşaq Musiqi Məktəbində müəllim, 1974–1978-ci illərdə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində musiqi redaktoru, 1983–1988-ci illərdə Naxçıvan Orta İxtisas Məktəbində müəllim, 1986-cı ildə yeni yaradılmış Naxçıvan Xalq Konservatoriyasının rektoru, 1988–1998-ci illərdə Naxçıvan Dövlət Universitetində musiqi kafedrasının müdiri, 1999-cu ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, 2000–2004-cü illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrinin direktoru, 2004–2006-cı illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının direktoru vəzifələrində işləmişdir. 3 monoqrafiya, 100-dən artıq iri və kiçik həcmli musiqi əsərlərinin, metodik tövsiyələrin müəllifidir. 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**Həsənağa Əli oğlu Qurbanov (20.07.1955-06.11.2007)**-dirijor, pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. 1972-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1976-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1981-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (Musiqi Akademiyasını) bitirmişdir. Əmək fəaliyyətinə 16 yaşından Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında pianoçu kimi başlamışdır. 1978-ci ildən Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında dirijor, baş dirijor, Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbində direktor (1983–1985), Bakı şəhər Mədəniyyət İdarəsinin rəisi (2001–2007) vəzifəsində işləmişdir. 1991-ci ildən Gülarə xanım Əliyeva adına

"Dan ulduzu" instrumental ansamblının bədii rəhbəri vəzifəsində çalışmışdır. 1998-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**Müsəvvər Əsgər oğlu Əsgərov (02.10.1947)**- xor dirijoru, professor, sənətşünaslıq namizədi. 1970-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1975-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1967-ci ildən əmək fəaliyyətinə başlamış və Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Texnikumunda, Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbində konsertmeyster işləmişdir. 1975-ci ildən M.Ə.Sabir adına Məktəbəqədər Pedaqoji Texnikumunda, Azərbaycan Dövlət İncəsənət İnstitutunda (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) müəllim işləmişdir. 1986-cı ildən elmi işlə məşğul olur. 1988-ci ildə "Azərbaycanda xor musiqisinin inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək sənətşünaslıq elmləri namizədi alimlik dərəcəsi almışdır. 1992–1996-cı illərdə Azərbaycan Dövlət Mədəniyyət Universitetinin professoru, 1997-ci ildən isə Türkiyənin Ergiyez Universitetinin musiqi bölümündə kafedra müdiri, dosent-doktor vəzifəsində çalışır.

**Əqidə Məmməq qızı Ələkbərova (25.04.1956-2012)**- musiqişünas, sənətşünaslıq namizədi (1994), Naxçıvan Dövlət Universitetinin dosenti, AMEA Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri olmuşdur. Moskva Ümumittifaq Sənətşünaslıq Elmi-Tədqiqat İnstitutunda təhsil almışdır. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi (1999).

**Arif Cəmil oğlu Quliyev (02.08.1949-26.05.2005)**-tarzən, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi (2000), "Dan ulduzu" instrumental ansamblının solisti 1968, 1969–1975-ci illərdə Sumqayıt şəhər Uşaq Musiqi Məktəbində, 1975-ci ildən Naxçıvan Orta İxtisas Musiqi Məktəbində tar

müəllimi işləmişdir. Məktəbin nəzdində yaratdığı "Nəqşi cahan" xalq çalğı alətləri ansamblı bir sıra xarici ölkələrdə Azərbaycan musiqisini təmsil etmişdir. 2001-ci ildən ömrünün sonunadək Naxçıvan Dövlət Filarmoniyasının direktoru işləmişdir. Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsini tar ixtisası üzrə bitirmişdir (1971).

**Rafail Musa oğlu Kərimov (15.06.1949)**- xor dirijoru, tarzən. Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi (2000), Azərbaycan Jurnalistlər Birliyinin üzvi (2010), Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xor-dirijorluq şöbəsini (1974), Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitunu (Slavyan Universitetini (1980)) bitirmişdir. Culfa (1967–1969), Şahbuz (1974–1976), Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi, Naxçıvan şəhər Uşaq İncəsənət Məktəblərində və Üzeyir Hacıbəyov adına Naxçıvan şəhər Orta İxtisas Musiqi Məktəbində müəllim (1977–1981), Naxçıvan şəhər Uşaq İncəsənət Məktəbində dərs hissə müdiri (1981–1989), Məmməd Məmmədov adına Uşaq Musiqi Məktəbinin direktoru (1989–2002) işləmişdir. Azərbaycan Respublikasının xor cəmiyyəti Naxçıvan MR təşkilatının sədri (1982–ci ildən) olmuşdur. R.Kərimov "Naxçıvan musiqi mədəniyyəti tarixindən-vokal ifaçılıq sənəti" adlı monoqrafiyanın (Bakı, 2006) və Naxçıvan MR-də doğulub boya-başa çatmış musiqiçi, rəssam, mədəniyyət işçiləri haqqında onlarla məqalənin müəllifidir. Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışmışdır.

**Tariyel Abbasqulu oğlu Abbasov (10.03.1953)**-Azərbaycan Respublikasının Əməkdar artisti. 1970-ci ildə orta məktəbi, 1979-cu ildə Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbini, 1984-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Əmək fəaliyyətinə 1968-ci ildə Naxçıvan Pionerler və Məktəblilər evində tar dərnəyinin rəhbəri kimi başlamışdır. 1974-cü ildə Naxçıvan Dövlət "Araz" mahnı və rəqs ansamblında solist, 1980–1984-cü illərdə Bakı şəhər 3 saylı uşaq musiqi məktəbində tar müəllimi, 1998-ci ildən Vaqif Mustafazadə adına İncəsənət Məktəbində, 1988–1995-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında tar müəllimi, 1982-ci ildən Gülarə xanım Əliyeva adına "Dan ulduzu" instrumental ansamblında solist tarzən kimi fəaliyyət göstərmişdir. Bir çox Azərbaycan bəstəkarlarının əsərlərini Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrinin müşayiəti ilə solo ifada lentə yazdırmışdır. 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti adına layiq görülmüşdür.

**Şəmsəddin Mustafa oğlu Qasımov ( 27.06.1955)**-tarzən, bəstəkar, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi. 1971-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1975-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1985-ci ildə isə M.A.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1974-cü ildə Pioner və Məktəblilər evinin tar dərnəyinin müəllimi kimi başlamışdır. 1977-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin müəllimi, 1981–1983-cü illərdə Nehrəm kənd Uşaq Musiqi Məktəbinin direktoru, sonralar Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbində müəllim, 2 saylı Uşaq Musiqi Məktəbində dərs hissə müdiri işləmişdir. 1997-ci ildə Naxçıvan Dövlət Universitetində müəllim, musiqi təhsili kafedrasının müdiri işləyir. 2000-ci ildən Naxçıvan Bəstəkarlar Təşkilatının sədri vəzifəsində çalışır. 40-a yaxın mah-

nı, instrumental musiqi, xor, xalq çalğı alətləri orkestri üçün əsərlərin müəllifidir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı və Naxçıvan Dövlət Uşaq Teatrının 35-dən artıq tamaşasına musiqi bəstələmiş və tərtib etmişdir. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

**Çingiz Məmməd oğlu Axundov (02.09.1959)**-dirijor. Azərbaycan Respublikasının Xalq artisti. 1978-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1983-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1976–1983-cü illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının və Azərbaycan Dövlət Filarmoniyasının orkestrində işləmişdir. 1985-ci ildən Naxçıvan Dövlət Filarmoniyasında çalışır. 2001-ci ildən Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində işləyir. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2009-cu ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

**Zeynalabdin Abdulla oğlu Babayev (15.09.1957)**-tarzən, Azərbaycan Respublikasının Əməkdar artisti. 1973-cü ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1981-ci ildə Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbini, 1986-cı ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Əmək fəaliyyətinə 1974-cü ildən "Araz" mahnı və rəqs ansamblında tarzən kimi başlamışdır. 1986-cı ildə Naxçıvan Dövlət Filarmoniyasında xalq çalğı alətləri orkestrinin konsertmeysteri, 1989-cu ildə Naxçıvan orta ixtisas musiqi məktəbinin müəllimi, 1995-ci ildə Naxçıvan Dövlət Universitetinin musiqi alətləri kafedrasının müdiri və baş müəllimi, 2005-ci ildən isə

Naxçıvan Dövlət Filarmoniyasının bədii rəhbəri vəzifəsində çalışır. Zeynalabdin Babayev uğurlu çıxışlarına görə bir sıra müsabiqələrin laureatı və diplomantı olmuşdur: 1981-ci ildə Gəncə şəhərində III Respublika orta ixtisas musiqi məktəbləri arasında keçirilən müsabiqədə I dərəcəli diploma; 1984-cü ildə Bakı şəhərində keçirilən "Elmi-ifaçılıq" müsabiqəsinin qalibi, 1986-cı ildə isə Bakıda keçirilən Beynəlxalq müsabiqələr laureatı adını qazanmışdır. 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

**Elman Kamil oğlu Əliyev (31.08.1960)**-tarzən, Azərbaycan Respublikasının Əməkdar artisti. 1976-cı ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1980-ci ildə orta ixtisas musiqi məktəbini, 1988-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Naxçıvan Musiqi Məktəbində, musiqi kollecində müəllim kimi fəaliyyət göstərmişdir. 2001-ci ildən Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru, 2002–2005-ci illərdə Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin, 2005-ci ildən isə Naxçıvan Dövlət Filarmoniyasının direktoru vəzifəsində çalışır. 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

**Tağı Fərman oğlu Tağıyev (27.05.1951)**-tarzən. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi. 1970-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1979-cu ildə Naxçıvan Orta İxtisas Musiqi Məktəbini, 1985-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (Azərbaycan Milli Konservatoriyası) bitirmişdir. Əmək fəaliyyətinə 1969-cu ildən Naxçıvan şəhər Uşaq Musiqi Məktəbində başlamışdır. 1981–1984-cü illərdə Soltan Hacıbəyov adına Sumqayıt Orta Musiqi Məktəbində, 1985-ci ildən bu günədək Naxçıvan Orta İxtisas

Musiqi Məktəbində (Kollec) müəllimlik fəaliyyətini davam etdirir. 1979-cu ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilən xalq çalğı alətləri ifaçılarının müsabiqəsinin laureatı olmuşdur. 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

**Vidadi Əkbər oğlu Heydərov (26.11.1948)**-pianoçu, Azərbaycan Respublikasının Əməkdər mədəniyyət işçisi. 1966-cı ildə orta məktəbi, 1972-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1993-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1972-ci ildən Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 saylı Uşaq Musiqi Məktəbində müəllim, dərs hissə müdiri, Naxçıvan Musiqi Kollecində, Özəl Universitetdə müəllim işləmişdir. 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

**Allahverdi Rza oğlu Qulamov (08.12.1961)**-klarnet ifaçısı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi. 1977-ci ildə orta məktəbin VIII sinfini və Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1981-ci ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini, 1992-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1981-ci ildən musiqi sahəsində çalışr. 1986-cı ildən Naxçıvan Dövlət Filarmoniyasında işləyir. 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

**Əbülfət Məmməd oğlu Babayev (18.07.1962)**-kamança ifaçısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti. 1978-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1986-cı ildə Naxçıvan Orta İxtisas Musiqi Məktəbini, 1992-ci ildə Ü.Hacıbəyov

adına Bakı Dövlət Konservatoriyasını bitirmişdir. 1992-ci ildən Naxçıvan Dövlət Filarmoniyasında işləyir. 2000-ci ildən Naxçıvan Şəhər Musiqi və Bədii Sənətkarlıq Məktəbinin direktoru vəzifəsində çalışır. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

**Mübariz Səməd oğlu Əsgərov ( 27.09.1970)**-vokal ifaçısı (tenor). Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti. 1985-ci ildə Naxçıvan şəhər Uşaq Musiqi Məktəbini, 1987-ci ildə orta məktəbi, 2006-cı ildə isə Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsini musiqişünaslıq ixtisası üzrə bitirmişdir. 1989–2006-cı illərdə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının orkestrinin artisti işləmişdir. 2006-cı ildən Naxçıvan Dövlət Universitetinin orkestr alətləri kafedrasının müdiri işləyir. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

---

## İSTİFADƏ OLUNAN ƏDƏBIYYAT

1. Naxçıvan-2005. Camlıca – Üsküdar/ İstambul.

2. Nazim Kazım oğlu Kazımov- Musiqi Kolleci- 110. Bakı, "Nurlan". 2008.

3. Nazim Paşa oğlu Quliyev-Naxçıvan Musiqi Mədəniyyəti tarixindən. Bakı, "Elm". 1999

4. Cəlil Həbib oğlu Vəzirov-"İllərin nəğmə yaddaşı". Naxçıvan 2001.

5.Eldar Sudeif oğlu Xəlilov-"Oxuyan barmaqlar". Bakı, "Elm". 2009.

# *MÜƏLLİF HAQQINDA*

*Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Rafail Məşədi Musa oğlu Kərimov 1949-cu ildə Naxçıvan şəhərində anadan olub.*

*1967-ci ildə A.S.Puşkin adına (V.Zeynalov) Naxçıvan şəhər 3 saylı ümumtəhsil məktəbini, Naxçıvan şəhər Uşaq Musiqi Məktəbinin tar sinfini bitirib.*

*1969–1974-cü illərdə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xor-dirijorluq fakültəsini, 1980-ci ildə isə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu müvəffəqiyyətlə bitirib.*

*1967-ci ildə əmək fəaliyyətinə başlayan Rafail Kərimov Culfa, Şahbuz, Naxçıvan şəhər uşaq musiqi, incəsənət məktəblərində müəllim, şöbə müdiri, dərs hissə müdiri, məktəb direktoru vəzifələrində çalışıb, Azərbaycan Dövlət Xor Kapellasında stajor kimi səmərəli fəaliyyət göstərib.*

*R.Kərimiov sıravi müəllimlikdən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Aparat rəhbəri vəzifəsinədək yüksəlmişdir.*

*Dərs dediyi şagirdlərin bir çoxu Naxçıvan, Bakı, Sumqayıt orta ixtisas musiqi texnikumlarını, (musiqi kolleci), Üzeyir Hacıbəyov adına Dövlət Konservatoriyasının (Musiqi Akademiyasını) bitirmişlər.*

*Naxçıvan Muxtar Respublikasında kütləvi el şənliklərinin (mahnı və məhsul bayramlarının) fəal təşkilatçısı və iştirakçısı olub.*

*1982-ci ildə Azərbaycan Respublikası Xor Cəmiyyətinin qərarı ilə Naxçıvan Muxtar Respublikası üzrə Xor Cəmiyyətinin sədri vəzifəsində çalışıb.*

*Rafail Kərimov xeyli müddətdir ki, Naxçıvan musiqi mədəniyyəti tarixinə dair araşdırmalar aparır. Respublika dövri mətbuatında xor, vokal, musiqi sənəti, rəssamların həyat və ya-*

*radıcılığı haqqında bir sıra məqalələri dərc olunub. Rafail Kərimov, həmçinin Naxçıvan Televiziya və Radiosunda Naxçıvan musiqi mədəniyyəti tarixi mövzusunda müxtəlif çıxışları ilə tanınır.*

*Rafail Kərimovun "Naxçıvan musiqi mədəniyyəti tarixindən–vokal ifaçılıq sənəti" adlı kitabı musiqi mədəniyyəti ilə maraqlananların müraciət etdiyi qiymətli vəsaitdir. Naxçıvan vokal məktəbinin yetirmələri olan sənət adamları haqqında yazılmış kitabda müəllif həmin sənətçilərin keçdiyi şərəfli yola nəzər salır, onlar haqqında geniş və dolğun məlumat verir. Bundan əlavə, Rafail Kərimov xor sənəti və naxçıvanlı sənət adamları haqqında onlarla məqalənin müəllifidir, ictimai və siyasi fəallığı ilə seçilir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 dekabr 2000-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikasında incəsənətin və mədəniyyətin inkişafındakı xidmətlərinə görə Rafail Məşədi Musa oğlu Kərimov "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.*

*Yeni Azərbaycan Partiyasının üzvüdür. Evlidir, iki övladı var.*

# MÜNDƏRİCAT


Rəy.....7
Giriş.....9
I Fəsil. Naxçıvan musiqi mədəniyyəti haqqında.....15
Məclis və cəmiyyətlərin Naxçıvan musiqi mədəniyyətinin inkişafında rolu.....19
Naxçıvanda musiqi təhsili.....24
Məmməd Kərim oğlu Cavadov (1912-2002).....37
Rəşid Rza oğlu Məmmədov (1936-2006).....56
Son söz.....70
II fəsil.....72
Məmməd Mirzə Həsən oğlu Nəsirbəyov (1897-1980).....73
Qacar Xurşid (Tərcümeyi-halından).....77
Elbrus Abbasqulu oğlu Mehdiyev (1940-1981).....78
Əli Bayraməli oğlu Muradov (1938).....84
Yaşar Abutadıb Səfərov (1940-2007).....93
Nazim Kazım oğlu Kazımov (1950).....104
Adıgözəl Məmmədhüseyn oğlu Əliyev (1943).....109
Afət Məmmədhuseyn oğlu Novruzov (1943).....114
Abdulla Abdullayev (1942-2007).....117
Nazim Paşa oğlu Quliyev (1950).....119
Həsənağa Əli oğlu Qurbanov (1955-2007).....125
Məhərrəm Hüseyn oğlu Məmmədov (1950).....132
Tariyel Abbasqulu oğlu Abbasov (1953).....137
Nuriyyə İslam qızı Hüseynova (1969).....141
Naxçıvan musiqi məktəbinin fəxrləri.....145
Müəllif haqqında.....157

Kompüter dizaynerləri:

**Günel Kərimova**

**Toğrul Kərimov**

**RAFAİL KƏRİMOV**

# NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİ TARİXİNDƏN

## MUSİQİ TƏHSİLİ

Çapa imzalanmış 12.12.2012.
Format 60x84 1/16.
Fiziki çap vərəqi 10.
Ofset çap üsulu. Tiraj-300
Qiymәti müqavilә ilә.

"RS Poliqraf" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.